# Aİ BİZNES MÜHİTİ HESABATI

## AZƏRBAYCAN 2020

5-Cİ BURAXILIŞ



Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

COWI

ITAZERCOM ITALY-AZERBAIJAN CHAMBER OF COMMERCE

AZERBAIJAN FRANCE CHAMBER OF COMMERCE

InvestBaku Investment Agency of Baku city

azpromo



**MƏSULİYYƏTDƏN İMTİNA:**
Bu buraxılış Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Bu sənədin məzmunu heç bir halda Avropa İttifaqının, üzv dövlətlərin və Şərq Tərəfdaşlığı ölkələrinin rəsmi mövqeyini əks etdirmir. Bu sənəd və buraya daxil olan hər hansı bir məlumat hər hansı bir ərazinin statusu və ya suverenliyinə, beynəlxalq sərhədlərin müəyyənləşdirilməsinə və hər hansı bir şəhər və ya ərazinin adına xələl gətirmir.

# MÜNDƏRİCAT

**4** **ÖN SÖZ**

**6** **GİRİŞ**

**7** **ƏHATƏ DAİRƏSİ**

**8** **ƏSAS NƏTİCƏLƏR**

**10** **XÜLASƏ**

**13** **FƏSİL 1.** Azərbaycan Avropa investorları üçün məkan kimi

- 1.1 Azərbaycan haqqında 13
- 1.2 Makroiqtisadi göstəricilər 2020 15
- 1.3 Avropa şirkətləri üçün investisiya təşviqləri və imkanları 16
- 1.4 2020-ci il üzrə Aİ Biznes Mühiti Sorğusunda iştirak edən Avropa şirkətləri 19

**23** **FƏSİL 2.** Biznes mühiti 2020.
Avropa şirkətləri üçün çətinliklər və imkanlar

- 2.1 Biznes və investisiya mühiti 2020 23
- 2.2 COVID-19-un Azərbaycanda Avropa biznesinə təsiri 27
- 2.3 Bizneslərin karantin rejiminə uyğunlaşdırılması 30
- 2.4 Pandemiya zamanı dövlət dəstəyi 32
- 2.5 Dağlıq Qarabağ və ətrafında hərbi əməliyyat 35

**37** **FƏSİL 3.** Yerli islahatlarda irəliləyiş

- 3.1 ASAN dövlət xidməti 38
- 3.2 Elektron vergi xidmətləri və Vergi Məcəlləsinə dəyişikliklər daxil olmaqla vergi islahatları 40
- 3.3 Gömrük sistemində islahatlar 41
- 3.4 DOST mərkəzləri daxil olmaqla əmək və sosial müdafiə sahəsində islahatlar 42
- 3.5 Digər islahatlar 42

**45** **FƏSİL 4.** Daha da təkmilləşdirmək üçün prioritetlər

- 4.1 Şəffaf məhkəmə sistemi və effektiv məhkəmələr 46
- 4.2 Stabil maliyyə sektorları və maliyyəyə daha yaxşı çıxış 47
- 4.3 Rəqəmsallaşmanın artırılması 50
- 4.4 Biznes üçün "yaşıl" imkanlar 52
- 4.5 İxtisaslı işçi qüvvəsinin mövcudluğu 55

**58** **ƏLAVƏ 1.** 2020-ci il üzrə Aİ Biznes Mühiti Sorğusunun nəticələri

**70** **ƏLAVƏ 2.** Aİ dəstəyi çərçivəsində biznes üçün imkanlar

**75** **ƏLAVƏ 3.** İqtisadi regionlar və onların strateji sektorları

**76** **Metodologiya**

**77** **Akronimlər və abreviaturalar**

**79** **Nəşr**

# ÖN SÖZ



## Kestutis YANKAUSKAS

Səfir – Nümayəndəliyin rəhbəri

AVROPA İTTİFAQININ AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİ

Azərbaycan üzrə Aİ Biznes Mühiti Hesabatı 2020 Aİ-Azərbaycan iqtisadi əməkdaşlığının nailiyyətləri və mövcud çətinliklərin aydınlaşdırılması, eləcə də biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə hazırlanan 5-ci buraxılışdır.

Çətin keçən 2020-ci il ərzində Aİ Azərbaycanın əsas ticarət tərəfdaşı olaraq qaldı. Belə ki, keçən il hamımız qlobal pandemiya ilə mübarizə apardıq. Bu, bizim həyat tərzimizi dəyişdirdi, müxtəlif bazar dəyişkənliklərini yaratdı, bizneslərə təsir etdi və bizi müxtəlif yollarla mövcud şəraitə uyğunlaşmağa məcbur etdi. Aİ və onun üzv dövlətləri "Avropa Heyəti" təşəbbüsü ilə tərəfdaş ölkə olan Azərbaycanda aparılan islahatları dəstəkləməyə və insan kapitalına investisiya qoymağa davam edərkən ölkədə ən təcili sağlamlıq ehtiyaclarının ödənilməsi, ictimai səhiyyə sisteminin gücləndirilməsi və pandemiyanın sosial-iqtisadi nəticələrinin azaldılmasına kömək etmək məqsədilə əməkdaşlıq proqramlarına dəyişiklik edərək dəstək verdi.

Çətinliklərə və dəyişkənliklərə baxmayaraq, biz Azərbaycanda islahatların davamlılığının şahidi oluruq. Hesabatın bu 5-ci buraxılışı mövcud biznes mühitinin müstəqil qiymətləndirilməsini təmin etməklə yanaşı, əvvəlki illərlə müqayisədə dəyişiklikləri görməyə imkan verir.

Ötən il Avropa İttifaqı Avropa Yaşıl Razılaşmasını başlatdı və əsasən rəqəmsal transformasiya və gənclər sektorunu vurğuladı. Hesabata ilk dəfə Avropadakı bu yeni tendensiyalar nəzərə alınaraq Azərbaycanda bizneslər üçün "yaşıl" və rəqəmsal imkanlar haqqında icmal daxil edilmişdir.

2020-ci ilin payızındakı müharibə bütün Cənubi Qafqaz bölgəsi üçün mühüm hadisə idi. Noyabr ayında hərbi əməliyyatların dayandırılması yeni imkanlarla bərabər yeni çağırışlar da gətirdi. Hesabat bu hadisələrin bizneslərə təsirinə də toxunur.

Aİ heyəti Hesabatın ərsəyə gəlməsində İtaliya-Azərbaycan Ticarət Palatası (ITAZERCOM), Azərbaycan - Fransa Ticarət və Sənaye Palatası (CCIAF), COWI Belçika, InvestBaku ilə birgə işləməkdən və AZPROMO ilə sıx əməkdaşlıqdan böyük məmnunluq duyur.

Aİ və Azərbaycan əməkdaşlığı genişləndirməyə davam edir və ikitərəfli münasibətlərin yeni hüquqi bazasının yaradılması üzərində birgə çalışır. Bu baxımdan Hesabatın hökumət və bizneslərin fəaliyyəti və gələcək planları üçün faydalı olacağına səmimi qəlbdən inanıram.

2021-ci ilin ümid ili olacağı gözlənilir və mən Aİ bizneslərini Azərbaycana yeni bir gözlə baxmağa təşviq edir, eyni zamanda Bakının islahatları davam edərək açıqlığı daha da artırmasını diləyirəm.

Hörmətlə,
*Kestutis YANKAUSKAS*



## Manuela TRALDİ

Prezident

İTALİYA-AZƏRBAYCAN TİCARƏT PALATASI (ITAZERCOM)

Şübhəsiz ki, 2020-ci il çətinliklərlə dolu, qeyri-müəyyənliklər yaradan, eyni zamanda tamamilə yeni bir mühitdə dəyişiklikləri stimullaşdıran bir il kimi xatırlanacaq. Pandemiyanın iqtisadiyyata təsirlərinin davam etməsinə, bu təsirlərin uzunmüddətli və çətin proqnozlaşdırılan olacağına baxmayaraq dövlətin bisneslərə dəstək tədbirləri çox mühüm əhəmiyyət kəsb etdi.

Bu qlobal gərginliyə baxmayaraq, 2020-ci il ərzində Azərbaycan ərazi bütövlüyünün bərpasını təmin etdi və bütün bölgəyə firavanlıq və sabitlik gətirə biləcək uzun müddətdir gözlənilən sülhə nail oldu. Bu fövqəladə amillərin birləşməsi nəticəsində hazırda ölkədə mövcud olan investisiya və biznes mühitinin Aİ şirkətlərinin baxışı və fikirləri ilə qiymətləndirilməsi və təhlili xüsusi əhəmiyyətə malikdir.

ITAZERCOM 2020-2022-ci illərdə Aİ-Azərbaycan Biznes Forumunun tərəfdaşlarından biri və bu Hesabatın həmmüəllifi olmaqdan məmnunluq duyur, eyni zamanda COWI Belçika, InvestBaku və Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasına peşəkarlıq və mükəmməl komanda işi üçün təşəkkür edir. Bu fürsətə görə Aİ-nin Azərbaycandakı Nümayəndəliyinə və dəyərli əməkdaşlığa görə AZPROMO-ya minnətdarlığımızı bildiririk.

Sonda isə çətinliklərə baxmayaraq, hesabatda töhfəsi olan bütün iştirakçı şirkətlərə və respondentlərə ən dərin təşəkkürümüzü bildiririk. Biz "Aİ-Azərbaycan Biznes Forumu 2020-2022" ərzində və daha sonra da dəstək olmağa hazırıq!

Hörmətlə,
*Manuela TRALDİ*



## Zibər HÜSEYNOVA

İdarəedici Direktor

AZƏRBAYCAN-FRANSA TİCARƏT VƏ SƏNAYE PALATASI (CCIAF)

Bu hesabat, dövlət və özəl sektor tərəfdaşları arasında etibarlı bir vasitəyə çevrilmiş Azərbaycan üzrə Aİ Biznes Mühiti Hesabatının beşinci buraxılışıdır. Hesabat dövlət və özəl sektor arasında dialoqu dəstəkləməklə Azərbaycanda biznes mühitinin yaxşılaşdırılmasına və Aİ -Azərbaycan iqtisadi əməkdaşlığını inkişaf etdirməyə xidmət edir.

Hər kəsin həyatını dəyişdirən qlobal pandemiya dövründə biznes mühitinin yaxşılaşdırılması heç vaxt bu qədər vacib olmamışdır. Dövlət və özəl sektor arasında tərəfdaşlıq yolu ilə əlverişli biznes mühitinin yaradılması bu dövrdə iqtisadiyyatı sabitləşdirmək üçün yeganə həll yoludur.

Bu il həm də bir ümid və möhtəşəm qələbə ili oldu. Deməl olar ki, otuz ildən sonra Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, bu isə tarixdə yeni bir səhifə açmağa imkan verəcək. CCIAF adından müharibədə həlak olan şəhidlərin əziz xatirəsini yad edir və ailələrinə başsağlığı verirəm. Ümid edirik ki, sülh qalib gələrək bölgəyə rifah gətirəcək.

Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası COWI Belçika, InvestBaku və İtaliya Ticarət Palatası ilə birgə Aİ-Azərbaycan Biznes Forumu 2020-2022-nin tərəfdaşı olmaqdan qürur duyur. Bu çətin dövrlərə baxmayaraq, yüksək əzmlə fəaliyyət göstərdiklərinə görə tərəfdaşlarımıza minnətdarlığımı bildirirəm. Həmçinin Sorğuda iştirak edən bütün şirkətlərə təşəkkür edir və onlara uğurlu, sağlam və firavan bir il diləyirəm.

Hörmətlə,
*Zibər HÜSEYNOVA*

# GİRİŞ

Bu hesabat 2015-ci ildən bəri Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi tərəfindən maliyyələşən illik "Aİ-Azərbaycan Biznes Forumu" çərçivəsində hazırlanmışdır. Forumun məqsədi Aİ ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığı inkişaf etdirməkdir. 2020-2022-ci illər ərzində "Aİ-Azərbaycan Biznes Forumu" COWI Belçika ilə Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası (CCIAF), İtaliya-Azərbaycan Ticarət Palatası (ITAZERCOM), InvestBaku-nun tərəfdaşlığı və Azərbaycan İqtisadiyyat Nazirliyinin tərkib hissəsi kimi AZPROMO-nun əməkdaşlığı ilə həyata keçirilir. 2020-2022-ci il üçün layihənin icrasının keyfiyyətinə nəzarət Ecorys tərəfindən həyata keçirilir.

"Aİ Biznes Mühiti Hesabatı Azərbaycan 2020" Azərbaycanda biznes mühitinə dair ölkədə fəaliyyət göstərən Avropa şirkətlərinin perspektivini əks etdirən beşinci buraxılışdır. Hesabatın əsas diqqəti 2016-cı ildən bəri ölkədə həyata keçirilən iqtisadi islahatlarda tərəqqiyə yönəldi. İslahatların məqsədi qeyri-neft sektorunu inkişaf etdirmək və kiçik və orta sahibkarlıq subyektlərini (KOB) gücləndirməklə yerli iqtisadiyyatı şaxələndirməkdir. COVID-19 pandemiyasının yaratdığı yeni çətinliklər və fürsətlər, habelə 2020-ci ildə Dağlıq Qarabağ və ətrafında aparılan hərbi əməliyyatlar nəzərə alınaraq, hesabatda bu yeni amillərin biznes mühitinə və Azərbaycanda fəaliyyət göstərən Avropa şirkətlərinə təsiri barədə xüsusi bölmə də yer aldı.

## 123 onlayn cavab

Avropa şirkətlərinin 2020-ci il yerli biznes mühitinə dair fikirlərinin təhlili məqsədilə 2020-ci ilin sentyabr, oktyabr aylarında anonim onlayn sorğu keçirildi. 2020-ci il üzrə Aİ Biznes Mühiti Sorğusunun hədəf qrupu ötən illərdə olduğu kimi qalaraq Azərbaycanda fəaliyyət göstərən təxminən 400 Avropa şirkətini – məhz Aİ və EFTA üzv ölkələri, Böyük Britaniyaya məxsus şirkətləri, həmçinin biznes əməliyyatlarının əsas istiqaməti Aİ ilə əməkdaşlıq olan Azərbaycan şirkətlərini əhatə etdi.

Builki sorğu əvvəlki sorğu nəşrlərinə əsaslanaraq son bir il ərzində biznes mühitini və islahatların həyata keçirilməsi zamanı əldə olunan irəliləyişlərə dair qiymətləndirməni təqdim edir. Bundan əlavə, pandemiyanın təsiri, şirkətlərin və Azərbaycan hökumətinin mənfi təsirləri məhdudlaşdırmaq üçün gördüyü tədbirlər barədə sualları özündə cəmləşdirən yeni bir bölmə təqdim edir.

Onlayn Aİ Biznes Mühiti Sorğusunun başlanması rəsmi olaraq Avropa İttifaqı, Fransa və İtaliyanın səfirləri və AZPROMO-nun direktorunun iştirakı ilə 18 sentyabr 2020-ci il tarixində keçirilmiş vebinar zamanı elan edildi. Sorğuda iştirak üçün dəvətlər icraçı təşkilatlar və informasiya tərəfdaşlarının rəsmi kanalları vasitəsilə yayılmışdır. Nəticədə 187 cavab alınmış və məlumatların keyfiyyət yoxlanışından sonra 123 cavab təsdiq edilərək nümunəyə daxil edilmişdir.

## 25 müsahibə

Əlavə məlumatlar ekspert müzakirələri ilə tamamlanan ikitərəfli müsahibə yolu ilə toplanmışdır. 2020-ci ilin oktyabr və noyabr ayları ərzində konsaltinq, neft-qaz, nəqliyyat və logistika, turizm, kənd təsərrüfatı, otelçilik, İKT, kimya sənayesi və maliyyə sektorlarının nümayəndələri ilə 25 müsahibə aparılmışdır. Müsahibə üçün ikitərəfli Ticarət Palatalarının, Aİ-Azərbaycan iqtisadi əməkdaşlıq qurumlarının nümayəndələri, eləcə də banklar, Beynəlxalq Maliyyə İnstitutları (BMİ) və Aİ təşəbbüslərinin nümayəndələri də dəvət edildi.

## Təşəkkür

"Aİ-Azərbaycan Biznes Forumu" effektiv koordinasiya və məlumat dəstəyi üçün Aİ üzv dövlətlərinin Azərbaycandakı səfirliklərinə, Avropa Yenidənqurma və İnkişaf Bankına (AYİB), ikitərəfli iqtisadi əməkdaşlıq edən təşkilatlara: "Advantage Austria", Azərbaycan-Niderland Biznes Qovşağı, Britaniya Biznes Qrupu, İtalya Ticarət Komissiyası (I.C.E), Polşa İnvestisiya və Ticarət Agentliyi (PAIH) və Aİ təşəbbüsləri - EU4Business, EU4Climate, EU4Digital, EU4En Environment təşəkkürünü bildirir.

# ƏHATƏ DAİRƏSİ

| | | | | | |
|---|---|---|---|---|---|
| Fransa<br>15% / 18 | Böyük Britaniya<br>13% / 16 | Azərbaycan<br>12% / 15 | Almaniya<br>12% / 15 | İtaliya<br>12% / 15 | Niderland<br>5% / 6 |
| Polşa<br>5% / 6 | Avstriya<br>4% / 5 | İsveçrə<br>3% / 4 | Danimarka<br>2% / 3 | Belçika<br>2% / 2 | Xorvatiya<br>2% / 2 |
| Çexiya<br>2% / 2 | Macarıstan<br>2% / 2 | Litva<br>2% / 2 | Estoniya<br>1% / 1 | Yunanıstan<br>1% / 1 | İrlandiya<br>1% / 1 |
| Lüksemburq<br>1% / 1 | Norveç<br>1% / 1 | Ruminiya<br>1% / 1 | Sloveniya<br>1% / 1 | İsveç<br>1% / 1 | Çoxmillətli<br>2% / 2<br>**ÜMUMİ**<br>**100% / 123** |

## 23 ölkə

"Aİ Biznes Mühiti Hesabatı Azərbaycan 2020", 19 Aİ üzv dövləti , 2 EFTA üzv ölkəsi, Böyük Britaniya və Azərbaycan daxil olmaqla ümumilikdə 23 ölkənin nümayəndələrinin fikirlərini əks etdirir.

## 19 sektor

Sorğuda iştirak edən şirkətlər iqtisadiyyatın 19 sektorunu təmsil edir. Təmsil olunan müəssisələrin əksəriyyəti iqtisadiyyatın konsaltinq, nəqliyyat və logistika, İKT, topdan və pərakəndə ticarət, mühəndislik, tikinti, təhsil, elm, tədqiqat və inkişaf, maşın, avadanlıq, kənd təsərrüfatı, istehsal, səhiyyə, otelçilik, turizm kimi qeyri-neft sektorlarında fəaliyyət göstərir.

## Şirkətlərin ölçüsü və hüquqi statusu

Şirkətlərin 85% -i Azərbaycanda məhdud məsuliyyətli cəmiyyətlər (MMC) və ya nümayəndəliklər kimi fəaliyyət göstərən KOB-ları təmsil edir.






# ƏSAS NƏTİCƏLƏR

## BİZNES MÜHİTİ 2020

›80%

**Avropa şirkətlərinin Azərbaycan iqtisadiyyatına inamı sabit olaraq qalır**

2020-ci ildə şirkətlər tərəfindən milli iqtisadiyyatın dəyərləndirilməsi keçən ilin nəticələri ilə müqayisə edilib. Bizneslərin 80% -dən çoxu biznes fəaliyyətləri üçün yenidən Azərbaycanı seçə biləcəklərini qeyd edib.

50%

25%

**Şirkətlərin Azərbaycandakı biznes mühitinin gələcəyinə dair nikbinliyi sabit qalır**

Müəssisələrin 50% -i yaxın bir neçə ildə genişlənməyi və 25% -i isə mövcud potensialları daxilində fəaliyyət göstərməyi planlaşdırır.

### İLK 5

**Biznes mühitinin güclü tərəfləri:**

1. Siyasi və sosial sabitlik
2. İnfrastruktur
3. Əməyin dəyəri
4. İqtisadi siyasətin proqnozlaşdırılması
5. Miqrasiya siyasəti

**İnvestorları cəlb edən amillər:**

1. Daxili bazarlar
2. Strateji tərəfdaşlıq
3. Sərhəd / azad ticarət bazarlarına çıxış
4. Yarımfabrikatlara və təchizatçılara çıxış
5. Aşağı istehsal xərcləri

**İnvestorlar üçün biznes mühitinin zəif tərəfləri:**

1. Qanunun aliliyi
2. Maliyyəyə çıxış
3. Korrupsiya
4. Peşə təhsili keyfiyyətinin aşağı olması
5. Ödəmə etikası və intizamı

**Biznes mühitinə təsir edən amillər:**

1. COVID-19 karantin məhdudiyyətləri
2. Qeyri-müəyyən bazar inkişafı
3. Dağlıq Qarabağ və ətrafında hərbi eskalasiya
4. Neft qiymətinin qeyri-sabitliyi
5. Bürokratiya

## COVID-19-UN BİZNESLƏRƏ TƏSİRİ

**Pandemiya dövründə beynəlxalq nəqliyyat əlaqələrinin məhdudlaşdırılması Avropa şirkətləri üçün ən böyük maneə oldu.**

**80%**

Avropa şirkətlərinin 80%-i üçün pandemiya ilə əlaqəli məhdudiyyətlər onların fəaliyyətinə mənfi təsir göstərərək mənfəət və dövriyyələrində azalmaya səbəb olub.

**25%**

Şirkətlər tərəfindən iqtisadi nəticələrin ortalama 25% kiçilməsi təxmin edilir.

**›60%**

Şirkətlərin 60% -dən çoxu pandemiyanın iş şəraitinə və məşğulluq səviyyəsinə mənfi təsirləri ilə üzləşdi.

**COVID-19 ilə əlaqəli məhdudiyyətlərə uyğunlaşma:**

- Şirkətlərin 94% -i karantin məhdudiyyətlərinin mənfi iqtisadi təsirini azaltmaq üçün xüsusi tədbirlər gördü
- İşçilər üçün distant iş rejimi (75%) və şirkət fəaliyyətinin rəqəmsallaşdırılması (58%) ən çox tətbiq olunan həll yollarından oldu. Şirkətlər işçilərinin əksəriyyətinin işlərini uzaqdan həyata keçirə bildiyini təsdiq etdi.
- Şirkətlərin 50% -i pandemiya ilə əlaqəli məhdudiyyətlərə uyğun olaraq işlərində əlavə dəyişikliklər etməyi planlaşdırır.

**İT infrastrukturunun daha da rəqəmsallaşdırılması və təkmilləşdirilməsi KOB-ların dayanıqlılığı üçün mühüm əhəmiyyətlidir.**

**Pandemiya zamanı dövlət dəstəyi:**

- Avropa şirkətlərinin 75% -i mövcud dövlət dəstəyindən tamamilə razıdır.
- Birinci növbədə vergi və maliyyə imtiyazları (55%), ardından əmək haqlarının ödənilməsi (49%) və inzibati prosedurların rəqəmsallaşdırılması (40%) ən əhəmiyyətli təşəbbüslər olaraq qiymətləndirilir.
- Şirkətlər dövlət tərəfindən verilən dəstək tədbirləri ilə əlaqədar kommunikasiyanın aparılması səviyyəsindən məmnundurlar.

**Daha çox gözlənilən dövlət dəstək tədbirlərinə daha geniş sektorlar üçün vergi güzəştlərinin tətbiqi, daha ucuz maliyyəyə çıxış və beynəlxalq səyahət məhdudiyyətlərinin azaldılması kimi tədbirlər daxildir.**

## DAĞLIQ QARABAĞ VƏ ƏTRAFINDA APARILAN HƏRBİ ƏMƏLİYYATLARIN BİZNESƏ TƏSİRİ

- Müharibə bölgəsi yaxınlığında fəaliyyət göstərən müəssisələr və layihələr hərbi eskalasiyalar zamanı işlərini dayandırdılar.
- Məhdud internet əlaqələri və sosial medianın bloklanması biznes əməliyyatlarına mənfi təsir göstərdi.
- Münaqişə potensial Avropa investorları üçün Azərbaycanın cəlbediciliyinə təsir etdi.
- Hərbi əməliyyatların genişləndirilməsi ehtimalı şirkətlər tərəfindən biznes mühiti üçün güclü bir təhlükə kimi qiymətləndirildi.

- Azərbaycanda fəaliyyət göstərən Avropa şirkətləri hərbi vəziyyətin səbəb olduğu qısa müddətli çətinliklərə müqavimət göstərməyə hazır olduqlarını nümayiş etdirdilər.
- Bakıda və münaqişə bölgəsindən uzaq digər regionlarda fəaliyyət göstərən müəssisələr adətən olduğu kimi işlərinə adi formada davam etdilər.
- Mövcud Avropa tərəfdaşları və investorlar Azərbaycanla əməkdaşlıqlarını olduğu kimi davam etdirdilər.

**Yeni fürsətlərə dair gözləntilər:**

- Şirkətlər Azərbaycan hökuməti tərəfindən yeni layihələrin başladılmasını və özlərini təqdim etmək üçün yeni investisiya imkanlarının olacağını gözləyir.
- Avropa şirkətləri münaqişə bitdikdən sonra hökumətin iqtisadi islahatlara daha güclü şəkildə üstünlük verməsini zəruri hesab edir.

## İQTİSADİ İSLAHATLAR

**2019-2020-ci illərdə ən effektiv islahatlar**

1. ASAN dövlət xidməti
2. Vergi islahatı
3. Gömrük islahatı
4. Əmək və sosial müdafiə sahəsində islahatlar

**Avropa biznes perspektivindən “effektiv islahatlar” üçün əsas meyarlar:**

1. Prosedurların şəffaflığı
2. Vaxtın və xərclərin səmərəliliyi
3. Müştəri yönümlü yanaşma
4. Bürokratiyanın azaldılması
5. Aydın prosedur və təlimatlar

**Daha da təkmilləşdirmək üçün 5 prioritet**

1. **Prioritet 1:** Məhkəmə sistemi
2. **Prioritet 2:** Maliyyə sektoru və maliyyəyə daha yaxşı çıxış
3. **Prioritet 3:** Rəqəmsallaşmanın artırılması
4. **Prioritet 4:** Biznes üçün “yaşıl” imkanlar
5. **Prioritet 5:** İxtisaslı işçi qüvvəsi



# XÜLASƏ

**Azərbaycandakı Avropa biznes icması,** ümumilikdə təxminən 400 şirkətlə ən böyük xarici investorlar qrupunu təmsil edir. Avropa müəssisələrinin əksəriyyəti yerli iqtisadiyyatın şaxələndirilməsi üçün strateji əhəmiyyətə malik qeyri-neft sektorunda fəaliyyət göstərən kiçik və orta müəssisələrdir. Bu hesabatın əsas nəticələri, sorğu və müsahibələr, kabinet tədqiqatı və fokus qrup müzakirələri ilə toplanan Avropa şirkətlərinin fikirlərinə əsaslanır. Azərbaycan hökumətinin biznes mühitini yaxşılaşdırmaq, iqtisadiyyatı şaxələndirmək və KOB sektorunu inkişaf etdirmək istəklərini nəzərə alaraq, Avropa şirkətlərinin fikirləri biznes və investisiya mühitindəki əsas istiqamətləri müəyyənləşdirməyə və gələcək siyasət seçimləri üçün ən yaxşı inkişaf yolunun müəyyən edilməsinə kömək edə bilər.

Şübhəsiz ki, 2020-ci il dünyada olduğu kimi, Azərbaycan üçün də fövqəladə dəyişikliklər və iqtisadi təlatümlər ilinə çevrildi. 2020-ci ildə Azərbaycan biznes mühiti ilin birinci yarısında qlobal pandemiya və karantin məhdudiyyətlərindən başlayan və neft qiymətlərinin qısa müddətli dalğalanması ilə kəskinləşən **qlobal və yerli amillərin** birgə təsirinə məruz qaldı. Dağlıq Qarabağ və ətrafında olan hərbi eskalasiya ilin ikinci yarısında ölkədəki biznes mühitinə təsir edən əlavə bir amil kimi beynəlxalq ictimaiyyətin diqqətini çəkdi. Oktyabr və noyabr aylarında baş verən hərbi əməliyyatlar özəl sektor üçün qeyri-müəyyənlik yaradaraq 2020-ci ildə beynəlxalq biznesləri təbii olaraq yerli mühitin etibarlılığı və dayanıqlılığını, eləcə də effektiv sərhədlərarası əməkdaşlığı tələb edən Avropa şirkətlərinə əhəmiyyətli dərəcədə təsir etdi.

Azərbaycan hökuməti tərəfindən tətbiq olunan **COVID-19-la bağlı məhdudlaşdırma tədbirləri** bölgədəki digər ölkələrlə müqayisədə ən uzun və ən sərt şəkildə tətbiq olunan tədbirlərdən idi. Şirkətlərin biznes fəaliyyətlərini qeyri-müəyyənliklərə və çevik dəyişikliklərə uyğunlaşdırma qabiliyyəti və hazırlığı bu il çox vacib oldu. Avropa şirkətləri arasında bu istiqamətdə ən geniş yayılmış həllər sırasında rəqəmsallaşdırma və ölkədə olan işçiləri üçün distant iş rejiminin tətbiqi yer aldı. Buna baxmayaraq, 2020-ci il sorğusu zamanı şirkətlərin böyük əksəriyyəti karantin rejiminin fəaliyyətlərinə mənfi təsir göstərərək dövriyyələrinin və mənfəətlərinin orta dərəcədə daralmasına səbəb olduğunu təsdiq etdi. Avropa müəssisələrinin məşğulluq və iş şərtləri ilə əlaqəli mənfi təsirə məruz qaldıqları da təsdiqlənmişdir.

Bu çətin şəraitdə özəl sektorun dayanıqlı olmasını dəstəkləyən Azərbaycan hökuməti ən çox təsirlənən sektorlar üzrə fəaliyyət göstərən KOB-lara üstünlük verən xüsusi **dəstək paketi** hazırladı. Təklif olunan tədbirlər Avropa biznesləri tərəfindən müsbət dəyərləndirildi və 2015-2016-cı illərdəki böhrandan sonra təklif olunan əvvəlki paketlərlə müqayisədə bu tədbirlər pandemiyaya qarşı effektiv, vaxtında başlanılmış və yaxşı kommunikasiya edilmiş siyasi cavab kimi qiymətləndirildi.

**Dağlıq Qarabağ** və ətrafında aparılan hərbi əməliyyatlar biznes mühitinə də təsir etdi. Avropa şirkətləri hərbi əməliyyat bölgəsinə yaxın ərazilərdəki fəaliyyətlərini dayandırmaq məcburiyyətində qaldılar. Bakıda və digər bölgələrdə fəaliyyət göstərən müəssisələr isə öz işlərini əvvəlki qaydada davam etdirdilər. Təqdim olunan ilkin rəylərə görə, hərbi gərginlik Azərbaycanın yeni xarici şirkətlər və investorlar üçün cəlbediciliyinə bir qədər təsir göstərsə də, mövcud tərəfdaşlar ölkə ilə müntəzəm işlərini davam etdirdilər. Avropa müəssisələri hərbi vəziyyətin səbəb olduğu qısa müddətli məhdudiyyətlərə qarşı hazır olduqlarını nümayiş etdirdilər. Digər tərəfdən döyüş əməliyyatlarının orta və ya uzun müddətə uzadılması ehtimalının Azərbaycanda fəaliyyətlərini davam etmələri üçün ciddi bir maneə olacağını qeyd etdilər. Bununla birlikdə, hərbi əməliyyatların sona çatması ilə Avropa şirkətləri yerli iqtisadi islahatlara daha çox üstünlük veriləcəyini və müharibədən təsirlənmiş bölgələri bərpa etməyi hədəfləyən yeni iddialı infrastruktur və iqtisadi layihələrin həyata keçirilməsini səbirsizliklə gözləyir.

2020-ci il ərzində yuxarıda göstərilən çətinliklərə baxmayaraq, yerli iqtisadiyyat və biznes mühiti baxımından ümumi vəziyyət Avropa şirkətləri üçün o qədər də pis görünmür. Sorğu və müsahibələr zamanı alınan cavablara görə, **Azərbaycan Avropa şirkətləri üçün cəlbedici investisiya məkanı** olaraq qalır. 2020-ci ildə Avropa şirkətlərinin 80%-dən çoxu investisiya məkanı olaraq yenidən Azərbaycanı seçməyə hazır olduqlarını təsdiqlədi. Respondentlər tərəfindən milli iqtisadiyyat "qənaətbəxş" səviyyədən bir qədər aşağı qiymətləndirildi, lakin 2020-ci ildə əvvəlki illərlə müqayisədə bu göstərici üzrə geriləmə müşahidə edilmədi.

Müəssisələr 2020-ci ildə biznes sektorlarına və öz şirkətlərinin fəaliyyətinə təsir edən qaçılmaz mənfi tendensiyaları təsdiqləyərkən gələcəyə dair nikbinliyini saxlayır və yaxın illərdə də Azərbaycanda fəaliyyətlərini davam etdirməyi və genişləndirməyi planlaşdırır.

Yuxarıda göstərilən çətinliklərə baxmayaraq, sabit qalan nikbinlik bu il biznes mühitinin bir neçə aspekti üzrə nəzərəçarpacaq dərəcədə irəliləyişlərin əldə edilməsi ilə bağlıdır. 2016-cı ildən bəri Azərbaycan **iqtisadi islahatları** prioritetləşdirdi. İslahatların tətbiqi ilə **ASAN** xidmətin yaradılması həyata keçirilmiş dəyişikləр arasında ilk uğurlu nümunə oldu və bir neçə ildir ki, Aİ Biznes Mühiti Hesabatlarında qeyd olunan bütün islahatlar paketi arasında ən səmərəli islahat layihəsi olaraq qalır. Biznes mühitinin digər aspektlərindəki proqresin şirkətlər üzərində təsiri daha çox vaxt apardı. 2018 və 2019-cu illərdəki hesabatların nəticələri **vergi və gömrük** məsələlərində ilk müsbət dinamikanın əlamətlərini nümayiş etdirdi. Nəticədə 2020-ci ildə bu iki islahat ASAN ilə birlikdə ən səmərəli islahatlar siyahısına əlavə olunaraq təsdiqini tapdı. Avropa şirkətləri bu il elektron vergi sistemi və gömrük rəsmiləşdirmə prosedurlarında əldə olunan inkişafları yüksək qiymətləndirdilər. Vergi qanunvericiliyinə tətbiq olunan son dəyişikliklər də müəssisələr arasında müsbət qiymətləndirildi. Avropa şirkətləri "Yaşıl Dəhliz" layihəsinin 2019-cu ildən bəri gömrük rejimini sürətləndirdiyini və sadələşdirdiyini təsdiqlədi. 2020-ci il sorğusunda əlavə bir müsbət nəticə kimi Azərbaycanda rəsmi məşğulluq və yaşayış səviyyəsinin yaxşılaşdırılmasına yönəlmiş **əmək və sosial müdafiə sahəsində** islahatların tətbiqi oldu. Hökumətin bu səyləri Avropa biznesləri tərəfindən yaxşı qarşılandı.

Əlavə olaraq, yerli biznes mühitinin bütün aspektləri balanslı inkişaf göstərmədiyi üçün hələ inkişafa doğru çox uzun bir yol var. Sorğu iştirakçılarının əksəriyyəti tərəfindən 2020-ci ildə **məhkəmə sistemi** islahatların aparılması vacib olan prioritet sahə olaraq seçilmişdir. Məhkəmə prosedurları qeyri-effektiv olaraq qalır və investorlar üçün həlledici əhəmiyyətə malik olan milli qanunun aliliyi və müqavilə icrasının nüfuzuna mənfi təsir göstərir. Təəssüf ki, yerli məhkəmə infrastrukturu hələ də bürokratik və qeyri-şəffaf hesab edilir. **Maliyyə sektoruna** gəlincə, Avropa şirkətləri 2015-2016-cı illərdəki böhrandan sonra dayanıqlılıq baxımından əldə olunan nəticələri uğurlu hesab edir. Ancaq bu sektorun dövlət maliyyəsindən əhəmiyyətli dərəcədə asılı olaraq qaldığını və yerli bankların məhdud beynəlxalq əlaqələrinin olduğunu qeyd edirlər. Bankların biznes sektoruna istiqamətlənən xidmətlərinin yaxşılaşdırılmasına ehtiyac var. Yüksək faiz dərəcələri və maliyyə vasitəçiliyi xərcləri, bank prosedurlarının aparılmasında mövcud bürokratiya ilə birlikdə biznes üçün xoşagəlməz bir imic yaradır. Təhsil və PTT islahatları da daxil olmaqla **əmək bazarını** yaxşılaşdırmaq üçün hökumətin göstərdiyi səylər nəzərə çarpır və Avropa şirkətlərində bu xüsusda nikbinlik yaradır. Yuxarıda göstərilənlərdən əlavə, hazırda bazarda yerli ixtisaslı kadrların tapılmasında hələ də irəliləyiş hiss olunmur. Bu, özəl və dövlət sektorunun birgə əməkdaşlığı ilə həll edilməli olan problemlərdən biri olaraq qalır.

Qlobal pandemiyanın yaratdığı məhdudiyyətlərin mənfi təsirinə baxmayaraq, bu məhdudiyyətlər həyatın bütün sahələrini əhatə edən rəqəmsallaşma üçün güclü bir katalizatora çevrildi. Azərbaycan iqtisadiyyatının rəqəmsal inkişafı və tranformasiyası yerli islahatları həyata keçirmək və karantin rejimi dövründə KOB sektorunun dayanıqlılığını təmin etmək üçün təsirli bir yol olduğunu sübut etdi. **Rəqəmsallaşma** elementi bu hesabatda İKT infrastrukturunun yaxşılaşdırılması, Bakıda və ölkənin digər yerlərində əhalinin bilik və bacarıqlarının artırılmasında dövlət dəstəyini tələb edən əsas prioritetlərdən biri kimi qeyd edilmişdir. Bu il ortaya çıxan digər bir məsələ də **KOB-lar üçün "yaşıl" imkanlar** oldu. Dayanıqlı sektorlar dünya miqyasında tendensiya və sürətlə böyüyən seqment halına gəldi. Azərbaycanın potensial təbii ehtiyatlarını nəzərə alaraq, alternativ enerji və dayanıqlı kənd təsərrüfatı layihələri yerli iqtisadiyyatın şaxələndirilməsinə kömək edən inkişaf etməkdə olan qeyri-neft sektoru üçün zəmin yarada bilər. Hazırda Avropa şirkətləri KOB-ları hədəf alan "yaşıl" layihələr çərçivəsində xüsusi fürsətlər gözləyir və yerli hökumət tərəfindən bu sahəyə prioritet veriləcəyinə ümid edir.



# 1 AZƏRBAYCAN AVROPA İNVESTORLARI ÜÇÜN MƏKAN KİMİ

## 1.1 AZƏRBAYCAN HAQQINDA

### Azərbaycan

Azərbaycan Respublikası Avrasiyada Qafqaz regionunun ən böyük ölkəsidir. Ölkə Şərqi Avropa ilə Qərbi Asiyanın kəsişməsində yerləşir və Xəzər dənizinə çıxışı var. Azərbaycanın ərazisi 86,600 km²-dir və 10 iqtisadi rayonu, 66 inzibati rayon və 77 şəhəri əhatə edir. Naxçıvan Muxtar Respublikası da Azərbaycana daxildir. Bakı Azərbaycanın paytaxtı və ən böyük şəhəridir. Ölkənin şimaldan Rusiya Federasiyası Dağıstan respublikası, şimal-qərbdən Gürcüstan, qərbdən Ermənistan və Türkiyə və cənubdan İranla quru sərhədləri var.[1]




### Siyasi sistem və hakimiyyət

Azərbaycan unitar yarıprezidentli respublikadır və dünyəvi dövlətdir. Azərbaycanın Prezidenti İlham Əliyevdir. Azərbaycan Milli Məclisi 125 deputatdan ibarətdir.

### Əhali və əmək bazarı

2020-ci il üçün Azərbaycanda əhalinin sayı 10,6 milyon nəfərdir. Əhalinin 53%-i şəhərlərdə, 47%-i kənd yerlərində yaşayır. Azərbaycanlılar ölkə əhalisinin 92%-ni təşkil edir. 2017-ci ildə savadlılıq nisbəti 99,79% olub. Azərbaycanda işçi qüvvəsinin təqribən 5,07 milyon nəfər olduğu bildirilir. Dövlət Statistika Komitəsinə görə, iqtisadi fəal əhali arasında orta işsizlik təxminən 4.5%-dir.[2]




Əhalinin **53%-i** şəhərlərdə yaşayır




Əhalinin **47%-i** kənd yerlərində yaşayır

### Dil

Rəsmi dil türk dilləri ailəsinə mənsub olan Azərbaycan dilidir. Əhalinin əhəmiyyətli bir hissəsi rus və türk dillərində də danışır. İngilis dili təhsil və işgüzar ünsiyyətdə mühüm rol oynayır.[1]

### Valyuta

Milli valyuta Azərbaycan manatıdır (AZN), 2020-ci il noyabr ayı etibarilə 0,50 avroya bərabərdir.

### İqtisadiyyat

Azərbaycan neft və qaz ehtiyatları ilə zəngindir. Ölkənin karbohidrogen sektoru milli ÜDM-in üçdə birini, ümumi ixracın 90%-dən çoxunu təşkil edir və əhalinin məşğulluğunun 14%-ni əhatə edir. Azərbaycan 1990 və 2000-ci illərdə güclü iqtisadi artım nümayiş etdirdi. Neft hasilatına keçid Azərbaycanın ÜDM-də nəzərəçarpacaq dərəcədə böyüməyə, 2005-ci ildə 26,4%-ə (dünyada ikinci ən yüksək ÜDM artımı), 2006-cı ildə 34,6%-ə (dünyada ən yüksək artım), həmçinin 2008-2009-cu illərdə müvafiq olaraq 10,8% və 9,3% -ə çatmasına səbəb oldu.[3] Hazırda neft və qaz sənayesi ÜDM-in 38%-ni təşkil edir və əhalinin məşğulluğunun 14%-ni əhatə edir.[1]

Hasilat sənayesindən güclü asılılıq Azərbaycanı neftin qiymət dəyişkənliyinin mənfi təsirlərinə məruz qoydu. 2001-2014-cü illər arasında uzun müddət davam edən kəskin böyümədən sonra Azərbaycan 2016 və 2017-ci illərdə ÜDM-də daralma ilə nəticələnən neft qiymətlərindəki enmə və regional ticarət tərəfdaşlarındakı iqtisadi yavaşlama ilə ağır zərbə aldı. 2017-ci ilin ortalarında neft qiymətlərinin artması və bölgədə daha əlverişli iqtisadi şərtlər ilə dəstəklənən ÜDM artımının 1,4%-ə çatması ilə canlanma başladı. 2019-cu ildə ÜDM 2,2%-ə yüksəldi və COVID-19 baş verməsi səbəbindən 2020-ci ildə 3% azalacağı gözlənilir. AYİB proqnozuna görə, pandemiya və neft bazarının gələcək gedişatı ilə bağlı qeyri-müəyyənlik şəraitində Azərbaycanın ÜDM-nin 2021-ci ildə müsbət dinamika göstərəcəyi və 2,5%-ə yüksələcəyi gözlənilir.[4]

### Strateji sektorlar və regional inkişaf

Hökumət 2015 və 2016-cı illərdəki böhrandan sonra iqtisadi tənəzzülə cavab olaraq KOB sektoru da daxil olmaqla 12 strateji sektorda islahatlar planı hazırladı. İqtisadiyyatın şaxələndirilməsi üçün üstünlük verilən sektorlara kənd təsərrüfatı, qida istehsalı, turizm, logistika, İKT və digər yüngül sənaye sahələri daxildir. Hökumət iqtisadiyyatın şəffaflığının artırılması, bürokratiyanın azaldılması və biznes mühitinin yaxşılaşdırılmasına yönəlmiş islahatlara da üstünlük verir.[5]

2017-ci ildən bəri Aİ tərəfindən maliyyələşən "Kənd Yerləri və Regional İnkişafa Dəstək Layihəsi" çərçivəsində 4 iqtisadi zona Abşeron, Şəki-Zaqatala, Quba-Xaçmaz, Dağlıq Şirvanın 16 rayonunda 2025-ci ilədək investisiyalar üçün strateji istiqamətlərin inkişaf etdirilməsi nəzərdə tutulur. Bu sənədlərin icrası üçün 170 investisiya layihəsi hazırlandı. Layihələr investorların cəlb edilməsini sürətləndirmək və asanlaşdırmaq üçün hazırlanmışdır. Hədəf sahələrə dayanıqlı kənd təsərrüfatı və dairəvi iqtisadiyyat, innovasiya və "yaşıl" sahibkarlıq, fermerlik, kənd təsərrüfatı və emal sektorunda innovasiya, rəqəmsal və "yaşıl" turizm daxildir. İqtisadi rayonların və onların strateji sektorlarının xəritəsi Əlavə 3-də verilmişdir.

2021-ci ildə 6 rayonu da daxil olmaqla Lənkəran iqtisadi zonası yeni EU4Lankaran proqramının dəstəyi ilə iqtisadi inkişaf üçün yeni imkanlar əldə edəcək. Proqram tərəfindən bölgənin meyvə və tərəvəz istehsalı hədəf alınır və bölgə yardım alaraq potensialını inkişaf etdirəcək. Proqramdan meyvə və tərəvəz dəyər zəncirinin təxminən 1000 sortunun faydalanacağı gözlənilir. Təşəbbüs, eyni zamanda həssas qrupları, qadınları və gəncləri hədəf alacaq və təxminən 4000 nəfərin layihə fəaliyyətlərindən birbaşa və ya dolayı yolla faydalanması və layihənin bacarıqların inkişafı, məşğulluq və biznes imkanlarına təsir edəcəyi gözlənilir.

### KOB sektoru

Azərbaycanda KOB-ların iqtisadi potensialı az inkişaf etmiş olaraq qalır. 2020-ci ilin iyul ayında təxminən 1.13 milyon KOB qeydiyyata alınmışdır ki, bunların da 87%-i fərdi sahibkarlardır.[1] 2018-ci ildə KOB sektorunun ÜDM-in 60%-i və məşğulluğun 60-70%-ni əhatə edən OECD ölkələri ilə müqayisədə Azərbaycanda ÜDM-in 13,4%-ni və ümumi məşğulluğun 42,9%-ni təşkil etdi. Strateji baxış 2025-ə görə, KOB sektoru milli ÜDM-in 60%-ni, ümumi məşğulluğun 70%-ni və ümumi qeyri-neft ixracının 40%-ni təşkil etməlidir.[6]

Azərbaycan hökuməti KOB-ların əhəmiyyətini anlayır və KOB-ların inkişaf edə biləcəyi bir mühit yaratmaq öhdəliyinə sadiqdir. "Sahibkarlıq Fəaliyyəti haqqında" Qanun, "Kiçik Sahibkarlığa Dövlət Köməyi haqqında" Qanun, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanun və "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Prezidentin 1771 nömrəli Fərmanı da daxil olmaqla bir sıra tədbirlər həyata keçirilmişdir. İnstitusional dəstək strukturlarının, xüsusən də Kiçik və Orta Biznesin İnkişaf Agentliyinin (KOBİA), habelə Sahibkarlar Şurasının yaradılması, eləcə də ailə sahibkarlığını dəstəkləyən təşəbbüs (ABAD) ilə əhəmiyyətli irəliləyişlər əldə edilmişdir. Bu, OECD-nin 2020-ci ili əhatə edən "KOB Siyasəti İndeksi" üzrə Azərbaycanın mövqeyinin xüsusən institusional və tənzimləyici çərçivə göstəricilərində 2016-cı ilin nəticələri ilə müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb oldu.[30]

**ŞƏKİL 1.** Azərbaycanla Aİ arasında ticarət dövriyyəsi, milyard ABŞ dolları




**MƏNBƏ:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi[1]

### Aİ ilə əməkdaşlıq

Azərbaycan Aİ üçün vacib tərəfdaşdır və Avropa investorları üçün cəlbedici bazarlardan biridir. Avropa İttifaqı Azərbaycanın ilk ticarət tərəfdaşı, ən böyük ixrac və idxal bazarı və ölkənin ən böyük investorudur (təxminən 7 milyard avro birbaşa investisiya ilə). Son beş ildə ölkələr arasındakı dövriyyə 30%-dən çox olub və illik təxminən 13 milyard ABŞ dolları səviyyəsinə çatıb ki, bu da hazırda Azərbaycanın ümumi xarici dövriyyəsinin 40%-nə bərabərdir.

Aİ Azərbaycanda həm hökumət, həm də vətəndaş cəmiyyətinin ən böyük xarici qrant donorudur. Aİ yaxşı idarəetmə, ölkənin demokratik qurumları, sosial inkluziya və qanunun aliliyini hədəf alan yerli islahatları dəstəkləyir. Ölkələr ətraf mühit və iqlim hədəfləri, nəqliyyat dialoqu və əməkdaşlığı, hüquqi yardım, korrupsiya əleyhinə mübarizə, bacarıqların inkişafı və s. kimi məsələlərdə əməkdaşlıq edir. 2020-ci ilə gəldikdə, Aİ EU4Business təşəbbüsü ilə yeni bazarlara ixrac, maliyyə və maarifləndirmə dəstəyi ilə 13.000 şirkətə kömək etmiş, 3.300-dən çox yeni iş yerinin yaradılmasına töhfə vermişdir*.

Azərbaycan Aİ-nin strateji enerji tərəfdaşıdır və 2017-ci ildən bəri EU4Energy təşəbbüsünə qoşuldu. Ölkə Xəzər enerji resurslarının Aİ bazarına çıxarılmasında və hazırda Aİ-nin neft idxalının təxminən 5 faizini təmin etməkdə həlledici rol oynayır. 2020-ci ildə inşası başa çatan Cənub Qaz Dəhlizi Xəzərdən qazın Avropa bazarlarına çıxarılması üçün strateji təşəbbüsdür və Avropada enerji təchizatı təhlükəsizliyini gücləndirmək üçün əsas vasitədir.

2020-ci il pandemiya dövründə Aİ ŞT ölkələrinin təcili ehtiyaclarına cavab verdi. Bunun bir hissəsi olaraq, Aİ ölkədə səhiyyə sektoru, vətəndaş cəmiyyəti, KOB və kənd təsərrüfatına dəstəyi, habelə sosial-iqtisadi dayanıqlılığın gücləndirilməsini hədəfləyən 31,6 milyon avro dəyərində dəstək paketini Azərbaycanın COVID-19 ilə bağlı mübarizə tədbirləri üçün səfərbər etdi.[7]

* EU4Business təşəbbüsü: www.eu4business.eu

## 1.2 MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR 2020

2016-cı ildə islahatların başlanmasından bəri Azərbaycanın ÜDM-i bu dövrdə təxminən 1% orta artımla bir neçə enmə-qalxmalarla üzləşdi. 2020-ci ildə Azərbaycan iqtisadiyyatı həm COVID-19 pandemiyası ilə mübarizə tədbirlərindən, həm də qlobal neft qiymətlərinin düşməsindən ciddi təsirləndi. COVID-19-un iqtisadi təsirinin ağır olduğu artıq təsdiqlənmiş və II Dünya Müharibəsi və 1930-cu ildəki Böyük Depressiyadan sonra ən güclü iqtisadi tənəzzülün səbəbi kimi müəyyən edilmişdir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) 2020-ci ilin sentyabr ayında yenilənmiş bir proqnoz yayımlayaraq, qlobal iqtisadiyyatın i) 2020-ci ildə pandemiyanın tək dalğa ssenarisi ilə 6% və II) ikinci dalğa ssenarisi ilə 7,6% azalacağını proqnozlaşdırdı. 2021-ci il üçün proqnoz hər bir ssenari üçün iqtisadi artımın müvafiq olaraq 5,2% və 2,8% olacağını təxmin edir.[8]

Azərbaycanda pandemiya iqtisadi inkişafa, siyasət istiqamətinə və yerli biznes mühitinə təsir göstərdi. Hökumət rəsmilərinə görə, 2020-ci ilin aprel ayında milli məhdudlaşdırma tədbirlərinin ən pik həddində iqtisadiyyat gündəlik 120-150 milyon manat azaldı (70,7-88,4 milyon ABŞ dolları). Azərbaycan Dövlət Statistika Komitəsinə görə,[1] 2020-ci ilin yanvar-avqust ayları arasında Azərbaycanın ÜDM-i əvvəlki ilə nisbətən 3% azaldı. AYİB-in proqnozuna əsasən, ÜDM-in 2020-ci ildə 3% azalacağı

**ŞƏKİL 2.** Dünyada və Azərbaycanda iqtisadi artım proqnozu (illik faizlə)




**MƏNBƏ:** OECD, İqtisadi proqnoz, sentyabr 2020[8]; AYİB, Azərbaycana baxış, Noyabr 2020[4]

və 2021-ci ildə təxminən 2,5% artacağı gözlənilir ki,[4] bu da dünya üzrə gözlənilən orta iqtisadi artımdan aşağıdır.

Yerli iqtisadiyyatın şaxələndirilməsi səylərinə baxmayaraq, Azərbaycan hələ də neft sektorundan asılı olaraq qalır. Pandemiya neft və qaza qlobal tələbatın azalmasına və neft qiymətlərinin 2020-ci il dövlət büdcəsi üçün proqnozlaşdırılan bir barrel üçün 55 ABŞ dollarından xeyli aşağı düşməsinə səbəb oldu. 2020-ci ilin mart və aprel aylarında bir barrelin qiymətinin 20-30 ABŞ dollarına kəskin düşməsi bazarda qısa müddətli şoka və devalvasiya riskinin artmasına səbəb oldu. 6 avqustda Parlament daha aşağı neft qiymətini (bir barrel üçün 35 ABŞ dolları) əks etdirən 2020-ci il büdcəsinə dəyişikliyi təsdiqlədi. Planlaşdırılan kəsir ilkin büdcədəki 2,3%-dən ÜDM-in 12,4%-ə qaldırıldı. Dövlət Neft Fondundan (ARDNF) büdcəyə planlaşdırılan köçürmədə artım 1.7 AZN / USD məzənnəsini dəstəkləmişdir.[9] 2020-ci ildəki əsas makroiqtisadi göstəricilər qlobal pandemiya və digər iqtisadi tendensiyaların yaratdığı iqtisadi daralmanı geniş şəkildə əks etdirir. (bax: Cədvəl 1)

2019-cu ildə Azərbaycana ümumi xarici birbaşa investisiyaların həcmi təxminən 32,3 milyard ABŞ dollarına çatdı və xarici investorların cəlb edilməsi ölkənin iqtisadi siyasətində əsas prioritetlərdən biri olaraq qalmaqdadır. 2018 və 2019-cu illər ərzində xarici investisiya daxilolmalarının həcmi 1,4-1,5 milyard ABŞ dolları səviyyəsində qiymətləndirilmişdir ki, bu da 2014-cü il neft və qaz böhranından əvvəlki təxminən 4,4 milyard ABŞ dolları olan nəticədən xeyli aşağıdır. Daxili investisiya portfelini şaxələndirmək üçün edilən cəhdlərə baxmayaraq, neft və qaz sektoru xarici investisiyaların təxminən 80%-ni təşkil edir.[13]

UNCTAD-ın 2020-ci il oktyabr ayı üzrə Qlobal İnvestisiya Trend Monitoruna görə, 2020-ci ilin ilk 6 ayında qlobal birbaşa xarici investisiyaların daralması 49%-ə çatdı və bəzi inkişaf etmiş iqtisadiyyatlar 2019-cu illə müqayisədə 75%-ə qədər azaldığını bildirdi.[14] Azərbaycan Mərkəzi Bankının statistikasına görə, birbaşa xarici investisiyalar 2020-ci ilin birinci yarısında 2019-cu ilin eyni dövrü ilə müqayisədə 23,5%-ə yüksələrək müsbət dinamika nümayiş etdirdi. Ən əhəmiyyətli artım qeyri-neft sektorunda müşahidə edildi (38.4%) və ümumi payda 15.6%-a yüksəldi.[2]

## 1.3 AVROPA ŞİRKƏTLƏRİ ÜÇÜN İNVESTİSİYA TƏŞVİQLƏRİ VƏ İMKANLARI

Azərbaycan qeyri-neft sektoruna xüsusi diqqət ayıraraq birbaşa xarici investisiyaların cəlb edilməsini prioritetləşdirdi. 2019-cu ildə İqtisadiyyat Nazirliyi açıqlama yayaraq xarici investisiyalar cəlb etmək üçün prioritet sektorların **kimya, metallurgiya və enerji sənayesi, maşınqayırma və tikinti materialları, yüngül sənaye, qida və kənd təsərrüfatı sahələri, İKT və turizm** olaraq qaldığını təsdiqlədi.[15] Bərpa olunan enerji 2019-cu ilin əvvəlində Energetika Nazirliyi yanında yaradılan Bərpa olunan Enerji Mənbələri Dövlət Agentliyinin dəstəyi ilə Azərbaycanda xarici investorlar üçün açıq və inkişaf edən bir sektor olaraq qalır.[15] İnvestorları cəlb etmək üçün bir sıra yeni investisiya təşviqləri başlanmışdır. Avropa şirkətlərinin faydalana biləcəyi əsas tənzimləmələr, qanunvericilik və infrastruktur aşağıda xülasə edilmişdir.

Azərbaycan bir sıra Avropa dövlətləri də daxil olmaqla, ikitərəfli investisiya müqavilələri və ikiqat vergitutmanın aradan qaldırılmasına dair müvafiq olaraq 44 və 53 ölkə ilə müqavilə bağlamışdır. (bax: Cədvəl 2)

**CƏDVƏL 2.** Avropa ölkələri ilə mövcud müqavilələr

| MÜQAVİLƏLƏRİN NÖVÜ | AVROPA ÖLKƏLƏRİ İLƏ MÖVCUD MÜQAVİLƏLƏR |
|---|---|
| **İkitərəfli investisiya müqavilələri** | Avstriya, Belçika, Bolqarıstan, Xorvatiya, Çexiya, Estoniya, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, Macarıstan, İtaliya, Latviya, Litva, Lüksemburq, Norveç, Polşa, Rumıniya, İspaniya, İsveçrə, Böyük Britaniya** |
| **İkiqat vergitutmanın aradan qaldırılmasına dair müqavilələr** | Avstriya, Belçika, Bolqarıstan, Xorvatiya, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Almaniya, Yunanistan, Macarıstan, İtaliya, Latviya, Litva, Lüksemburq, Malta, Niderland, Norveç, Polşa, Rumıniya, Sloveniya, İspaniya, İsveç, İsveçrə, Böyük Britaniya |

**MƏNBƏ:** UNCTAD, İnvestisiya müqavilələri[16]; AZPROMO, Doing Business Azərbaycan, 2018[1]

** Belçika, Lüksemburq, Bolqarıstan, Finlandiya, Yunanıstan, Norveç və Rumıniya ilə mövcud ikitərəfli investisiya müqavilələri hələ qüvvəyə minməyib.

**CƏDVƏL 1.** 2020-ci ilin yanvar-iyul ayları ərzində Azərbaycanda başlıca iqtisadi tendensiyalar [10 11 12]

| | |
|---|---|
| **İXRAC** | İxrac səviyyələri əsasən neft və qaz ixracının 2019-cu ildəki 9,1 milyard ABŞ dolları səviyyəsinə nisbətdə 25,6% azalması hesabına aşağı düşdü. Qeyri-neft ixracı 8,7% azalaraq 1,03 milyard ABŞ dollarına düşdü. |
| **XARİCİ TİCARƏT** | Xarici ticarət dövriyyəsi 2019-cu ilin birinci yarısı ilə müqayisədə real ifadədə 22,5% (idxal 43,4%, ixrac 7,1%) azaldı. Ümumi ticarət balansı 3,2 milyard ABŞ dolları səviyyəsində müsbət olaraq qalır. |
| **İSTEHLAKÇI AKTİVLİYİ** | İstehlakçı aktivliyi indeksi 7,3%, pərakəndə satış isə 2,1% azaldı. Qida dövriyyəsi 3,5% artdı, qeyri-ərzaq məhsulları dövriyyəsi 7,5% azaldı. |
| **İNFLYASİYA** | İnflyasiya orta dərəcədə böyüdü və 2020-ci ilin iyul ayında 2.8% səviyyəsində qaldı. |
| **MƏŞĞULLUQ** | Dövlət Statistika Komitəsinə görə, iqtisadi fəal əhali arasında işsizlik 2019-ci ildə 4.8% səviyyəsində idi və Dünya Bankı tərəfindən 2020-ci ildə 5.5-6% səviyyəsinə qalxacağı proqnozlaşdırıldı. |

**MƏNBƏ:** OECD. ŞT ölkələrində COVID-19 böhranına cavab. Oktyabr 2020; Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Diplomatik Korpusun təqdimatı. Sentyabr 2020; DB, Azərbaycanda işsizlik 2020

Azərbaycanın həmçinin Rusiya, Ukrayna, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Özbəkistan, Moldova və Belarus ilə azad ticarət müqavilələri (FTA) var. Azad ticarət müqavilələri altında mallar bu ölkələrdən gömrük rüsumu olmadan idxal edilə bilər.[1]

Azərbaycan hazırda Ümumdünya Ticarət Təşkilatının (ÜTT) üzvü olmasa da, qoşulma prosesini fəal şəkildə davam etdirir. Daxili qanunvericilik və prosedurların hökumətlərarası təşkilatın tələbləri ilə davamlı şəkildə uzlaşdırılması ölkənin ÜTT-yə üzvlük statusunu almaq istəyindən xəbər verir və yerli bazarın Avropa investorları üçün cəlbediciliyini artırır.

Neft və qazla bağlı layihələr investorlar üçün ən cəlbedici olaraq qalsa da, hökumət qeyri-neft investisiyalarını cəlb etmək üçün xüsusi tədbirlər görür. Azərbaycanda investorlar investisiyanın sektoru, həcmi və regionu baxımından müəyyən meyarlara cavab verdiyi təqdirdə "İnvestisiya Təşviqi Sənədi" (IPD) əldə edə bilər. İnvestisiya Təşviqi Sənədinə malik olanlara mənfəət və gəlir vergisində 50% güzəşt; torpaq və əmlak vergisinin ləğvi; idxal olunan avadanlıq və texnologiyaya görə ƏDV və gömrük rüsumlarından azad etmə də daxil olmaqla 7 il müddətinə müəyyən vergi və gömrük güzəştləri tətbiq edilə bilər. 1 sentyabr 2020-ci il tarixinədək 379 müəssisəyə 455 İnvestisiya Təşviqi Sənədi verilmişdir.

2020-ci ilin avqust ayında müəyyən dövlət müəssisələrinin işlərini idarə etmək məqsədi ilə yeni İnvestisiya Holdinqi quruldu. Onun məqsədi Avropalı investorlar üçün yeni imkanlar gətirən dövlət müəssisələrinin şəffaflığını artırmaq, dövlət-özəl sektor tərəfdaşlığını (PPP) təşviq etmək və müəssisələri özəlləşmə üçün hazırlamaqdır. İnvestisiya Holdinqinin rəhbərliyi altında fəaliyyət göstərən şirkətlərin siyahısı 2020-ci ilin noyabrında təsdiqləndi və müxtəlif sektorlardan 21 təşkilatı əhatə edir.[17]

### HÜQUQİ MƏLUMAT

Xarici investorların qorunmasını təmin edən Azərbaycan qanunvericiliyinə xarici və milli investorların bərabərliyini təmin və xarici investorların milliləşdirmə və rekvizisiyaya qarşı qorunması üçün çərçivəni müəyyənləşdirmək məqsədilə qəbul edilmiş "Xarici investisiyanın qorunması haqqında" Qanun (1992)[18] "İnvestisiya Fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1995)[19] daxildir. Hazırda İqtisadiyyat Nazirliyi Beynəlxalq Maliyyə Korporasiyası (BMK) ilə birlikdə adı çəkilən qanunları əvəz etmək və investisiyaların qorunması standartları, mübahisələrin həlli mexanizmləri kimi geniş mövzuları əhatə etmək, dövlət investisiya siyasətinin əsas istiqamətlərini müəyyən etmək və s. məqsədilə "İnvestisiya Fəaliyyəti haqqında" yeni qanun layihəsi hazırlayır.

### Sənaye sahələri

Hazırda Azərbaycanda beş sənaye parkı fəaliyyət göstərir (bax: Cədvəl 3). Vergi Məcəlləsinə və "Gömrük tarifləri haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq sənaye parklarının rezidenti olan sahibkarlar 10 il müddətinə müəssisə, torpaq və əmlak vergisindən, əlavə dəyər vergisindən (ƏDV) azaddırlar. Əlavə olaraq, 7 il müddətinə idxal olunan avadanlıq və texnologiya üçün gömrük vergisi tətbiq olunmur. Sənaye parkları mövcud infrastruktur, aşağı icarə dərəcəsi, xüsusi kreditlərin mövcudluğu, sadələşdirilmiş inzibati prosedurlar, elektrik və istilik enerjisi, su və təbii qaz üçün güzəştli tariflər, tullantıların idarə olunması kimi digər əlverişli şərtlər səbəbindən də cəlbedicidir.

Azərbaycanda Prezidentin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il oktyabr tarixli Fərmanı ilə tənzimlənən dörd sənaye məhəlləsi fəaliyyət göstərir (bax: Cədvəl 4). 2015-ci ilin may ayında torpaq sahələri və tikinti üçün aşağı icarə qiymətlərinin müəyyən edilməsini şərtləndirən, güzəştli kreditlərin ayrılması; inzibati prosedurların sadələşdirilməsi; sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsini təmin edən xidmətlərin şərtləndirilməsi məqsədilə "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə" təsdiq edildi.

Azərbaycanda fəaliyyət göstərən iki yüksək texnoloji park - Azərbaycan Milli Elmlər Akademiyası Yüksək Texnologiyalar Parkı (2016-cı ildən bəri tədqiqat və inkişaf, elm və yüksək texnologiyalar sektorunda fəaliyyət göstərir) və Sumqayıt Texnologiyalar Parkı (2009-cu ildə qurulan, neft və qaz, kənd təsərrüfatı, mənzil tikintisi, logistika, enerji istehsalı, meliorasiya və su təsərrüfatı, sənaye və maşınqayırma, İKT kimi sahələrin təmsil olunduğu geniş siyahı ilə).

### Ələt Azad İqtisadi Zonası

Ələt Azad İqtisadi Zonasını (AİZ) təsis edən qanunvericilik qeyri-neft sektoruna yerli və xarici investisiyaların intensivləşdirilməsi məqsədilə 2018-ci ildə qəbul edilmişdir. Ələt AİZ paytaxt Bakının 65 km cənubunda, Qaradağ inzibati ərazisində yerləşir və xüsusi qayda və tənzimləmələrə malikdir. Xüsusi vergi və gömrük rejimi ƏDV-dən, vergitutma və ya digər hər hansı şirkət vergisindən, fərdi gəlir vergisindən, sosial təminat və xarici təcrübəli kadrlar üçün digər ödənişlərdən, hər hansı bir xarici məhsul və ya xidmət idxalına görə gömrük rüsumlarından azad edir. Qanunvericilik Ələtdə xarici investorları milliləşmə tədbirlərindən qorumağı və əqli mülkiyyət hüquqlarının qorunmasını da nəzərdə tutur. Ələtin 2019-cu ildə Xəzər bölgəsindəki ilk Yaşıl Dəniz Limanı olan və Avropa Dəniz Limanları Təşkilatının EcoPorts sertifikatını alan Bakı Beynəlxalq Dəniz Ticarət Limanına çıxışı var. Bu, potensial investorlar üçün yüksək ətraf mühit standartlarını qeyd edir. Liman əməliyyat

**CƏDVƏL 3.** Azərbaycanın sənaye parkları

| SƏNAYE PARKI | YARANMA TARİXİ | TƏMSİL ETDİYİ SEKTOR |
|---|---|---|
| Sumqayıt Kimya Sənaye Parkı | 2011 | Kimya, tikinti materialları, maşın və avadanlıqlar |
| Balaxanı Sənaye Parkı | 2011 | Təkrar emal (motor yağları, plastik, kağız və karton məhsulları) |
| Mingəçevir Sənaye Parkı | 2015 | Yüngül sənaye (tekstil, dəri, pambıq məhsulları) |
| Qaradağ Sənaye Parkı | 2015 | Gəmiqayırma və gəmi təmiri |
| Pirallahı Sənaye Parkı | 2016 | Əczaçılıq, dərman məhsulu qablaşdırması |

MƏNBƏ: OECD. Azərbaycanın yerli tədarükçüləri xarici investorlarla əlaqələndirməsi. 2019[20]

**CƏDVƏL 4.** Azərbaycanın sənaye məhəllələri

| SƏNAYE MƏHƏLLƏSİ | YARANMA TARİXİ | TƏMSİL ETDİYİ SEKTOR |
|---|---|---|
| Neftçala Sənaye Məhəlləsi | 2016 | Avtomobil, balıq yemi, plastik məhsullar, borular, kağız məhsulları, səyyar məktəblər |
| Masallı Sənaye məhəlləsi | 2016 | Mebel, döşəklər, tikinti inşaat materialları, taxta emalı, metal məmulatlar |
| Hacıqabul Sənaye Məhəlləsi | 2017 | Ağır mühəndislik, xüsusi mikroavtobuslar, kompozit materiallar, plastik məhsullar |
| Sabirabad Sənaye məhəlləsi | 2017 | Yun, inşaat materialları, avtomobil hissələri |

MƏNBƏ: Azərbaycan yerli tədarükçüləri xarici investorlarla əlaqələndirməsi[16]

səmərəliliyi, liman idarəçiliyi, ətraf mühit və risklərin idarə edilməsi siyasətlərində Avropa İttifaqı ilə sıx əməkdaşlıq edir. Ələtin daxili infrastrukturuna sənaye tədris mərkəzi, "bir pəncərə" biznes qiymətləndirilməsi və lisenziyalaşdırma, viza mərkəzi, müstəqil tənzimləmə orqanı; beynəlxalq mübahisələrin həlli üçün imkanlar və s. daxildir.[21]

### Avropa şirkətlərinin dəstəyi üçün infrastruktur

İnvestisiyaların təşviqi üzrə dövlət təşkilatı 2003-cü ildə Azərbaycan İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan ortaq dövlət-özəl sektor təşəbbüsü olan Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondudur (AZPROMO). Fond Azərbaycandakı investisiya imkanlarını araşdırmaq və istifadə etməkdə maraqlı olan xarici şirkətlərə kömək etmək üçün "vahid pəncərə" funksiyası əsasında fəaliyyət göstərir.[22]

Azərbaycanda 2018-ci ildə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) təsis edilmişdir. Qurum KOB-ları birbaşa proqramlar vasitəsilə dəstəkləməyi və ölkədə KOB-lara dəstək infrastrukturunu qurmağı hədəfləyir. Azərbaycanda qeydiyyatdan keçən və fəaliyyət göstərən kiçik və orta Avropa şirkətləri KOBİA dəstək proqramları və xidmətlərindən faydalana bilər.[23]

Məlumat dəstəyi almaq üçün Avropa şirkətləri ölkələrindəki səfirliklərlə, eləcə də Azərbaycanda Avropa şirkətlərinin maraqlarını təmsil edən və şirkətlərə yerli əməliyyatlar və Azərbaycan bazarına daxil olmaq ilə əlaqədar xidmətlər göstərən iqtisadi və ticari dəstək ofisləri və ikitərəfli Palatalarla əlaqə qura bilərlər.

Avropa şirkətləri Aİ-nin dəstəyi ilə Azərbaycanda həyata keçirilən özəl sektor üçün regional və yerli layihələrdən də faydalana bilər. Bu və digər Aİ təşəbbüsləri haqqında daha ətraflı məlumat Əlavə 2-də verilmişdir.

**ŞƏKİL 3.** 2020-ci il üzrə sorğuda iştirak edən Avropa şirkətlərinin ölçüsü




MƏNBƏ: Aİ Biznes Mühiti Sorğusu 2020

## 1.4 2020-Cİ İL ÜZRƏ Aİ BİZNES MÜHİTİ SORĞUSUNDA İŞTİRAK EDƏN AVROPA ŞİRKƏTLƏRİ

Azərbaycanda müxtəlif sektorları və ən böyük investorlar qrupunu təmsil edən 400-dən çox Avropa şirkəti fəaliyyət göstərir.[8] 2020-ci il sentyabr və oktyabr aylarında Azərbaycanda Avropa şirkətlərinə çatmaq məqsədilə onlayn Aİ Biznes Mühiti Sorğusu keçirildi və onlar fikirlərini bölüşmək üçün sorğuda iştiraka dəvət edildi. Builki sorğuda Aİ, EFTA üzv ölkələri, Böyük Britaniya və Azərbaycan daxil olmaqla 23 ölkədən 123 şirkət təmsil olunur. 2020-ci il üzrə Biznes Mühiti Sorğusunda ən böyük iştirakçılıq payı ümumi cavabların 10-15%-ni təşkil edən Fransa, Böyük Britaniya, Almaniya və İtaliyadan olan şirkətlərə məxsusdur. Niderland, Polşa, Avstriya, İsveçrə və Danimarkadan olan şirkətlərdən də aktiv töhfələr əldə edildi (bax: Əlavə 1, S5). Sorğu prosesi haqqında daha ətraflı məlumat Metodologiyada əks olunmuşdur.

Əvvəlki Aİ Biznes Mühiti Sorğusu buraxılışlarının nəticələri ilə müqayisədə builki sorğuda iştirak edən Avropa şirkətlərinin əksəriyyəti kiçik və orta müəssisələri təmsil edir (bax: Əlavə 1, S3). Xatırladaq ki, Azərbaycanda KOB-ların yeni tərifi 2018-ci ildə tətbiq edildi. O, müəssisələrin müxtəlif ölçülərini fərqləndirir və işçilərin sayı ilə əlaqəli meyarları sinxronlaşdıraraq Aİ tərifi ilə qismən uzlaşır: mikro (<10 işçi); kiçik (<50 işçi) və orta (<250 işçi).

Şirkətlərin əksəriyyəti Azərbaycanda 2001-2015-ci illər arasında ən sürətli iqtisadi böyümə illərində qurulmuşdur. Bu həm də onların iqtisadi islahatlar başladığı vaxtdan bəri Azərbaycanda fəaliyyət göstərdiklərini göstərir və verilən cavabların etibarlılığını təmin edir. (Əlavə 1, S6).

Əcnəbilər sahibkarlıq subyektlərini tam mülkiyyətində olan müəssisə açmaq, mövcud bir şirkətin səhmlərini əldə etmək və ya yerli partnyoru ilə birgə müəssisə yaratmaqla qeydiyyatdan keçirə bilirlər. Xarici şirkətlərə Azərbaycanda nümayəndəliyini və ya filialını vergi orqanlarında qeydiyyata alaraq yerli hüquqi şəxs yaratmadan fəaliyyət göstərmələrinə də icazə verilir. Avropa şirkətlərinin əksəriyyəti Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) və ya Nümayəndəlik hüquqi statusuna malikdir.

Sorğu iştirakçılarının 60%-dən çoxu Avropa mülkiyyətindədir: şirkətlərin təxminən yarısı tam Avropa mülkiyyətini saxlayır və daha 12%-i Avropa nəzarətində olan səhmə sahibdir. Şirkətlərin dörddə biri tamamilə yerli mülkiyyətdədir. Qalan şirkətlər Aİ-nin fərqli iştirak paylarına sahibdir (Əlavə 1, S4, S7).

2020-ci il sorğusunda iqtisadiyyatın 19 sektoru təmsil olunur, bunlara konsaltinq və audit; mədənçilik, neft və qaz; nəqliyyat, logistika; İKT; topdan və pərakəndə satış; mühəndislik və tikinti; təhsil, elm, tədqiqat və inkişaf; maşın və avadanlıqlar; kənd təsərrüfatı və istehsalat və s.daxildir (Əlavə 1, S1). Xatırladaq ki, neft və qaz sektorunu təmsil edənlər sorğunun bütün iştirakçılarının yalnız 12%-ni təşkil edir. Beləliklə, 2020-ci il sorğusunda iştirak etmiş Avropa şirkətlərinin böyük əksəriyyəti Azərbaycan iqtisadiyyatı üçün strateji cəhətdən əhəmiyyətli şirkətlər qrupunu, yəni iqtisadiyyatın qeyri-neft sektorunda fəaliyyət göstərən KOB-ları təmsil edir. Buna görə də hesabatın nəticələri bu qrupun perspektivindən biznes mühitindəki əsas tendensiyaları müəyyənləşdirməyə və yerli hökumətin gələcək siyasət prioritetləri üçün bir zəmin yaratmağa kömək edə bilər.

**ŞƏKİL 4.** Avropa şirkətlərinin Azərbaycanda qurulma tarixi




MƏNBƏ: Aİ Biznes Mühiti Sorğusu 2020

**ŞƏKİL 5.** Avropa şirkətlərinin hüquqi statusu




MƏNBƏ: Aİ Biznes Mühiti Sorğusu 2020

**ŞƏKİL 6.** Azərbaycanda fəaliyyət göstərən Avropa şirkətlərinin strukturu




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

**ŞƏKİL 7.** Azərbaycanda fəaliyyət göstərən Avropa şirkətlərinin fəaliyyət sahələri




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020







# 2 BİZNES MÜHİTİ 2020. AVROPA ŞİRKƏTLƏRİ ÜÇÜN ÇƏTİNLİKLƏR VƏ İMKANLAR

## 2.1 BİZNES VƏ İNVESTİSİYA MÜHİTİ 2020

2020-ci ildə pandemiya ilə əlaqədar məhdudiyyətlər, neft qiymətlərində dalğalanma, Dağlıq Qarabağ və ətrafında aparılan hərbi əməliyyatlar kimi qlobal və yerli amillərin qarışığı Azərbaycan biznes mühitinə əhəmiyyətli dərəcədə təsir etdi. Yeni çətinliklərə baxmayaraq, Avropa şirkətlərinin Azərbaycan iqtisadiyyatına inamı sabit olaraq qalır. Əvvəlki illərdə olduğu kimi, müəssisələr Azərbaycanda mövcud olan siyasi və sosial sabitliyi təklif olunan yerli göstəricilər arasında ən yüksək qiymətləndirir. 2020-ci ildə Avropa şirkətləri üçün həssas amillər arasında qanunun aliliyinin qeyri-kafi səviyyəsi, maliyyəyə çıxış, ödəmə intizamı, korrupsiya və dövlət satınalmalarının qeyri-şəffaflığı qalır. Bazarlara çıxış və strateji tərəfdaşlıqlar Azərbaycanda fəaliyyət göstərən investorlar üçün əsas amillər olaraq qalır. 2020-ci ildə çətin mühitə baxmayaraq, şirkətlər Azərbaycandakı gələcəkləri barədə nikbinliyini saxlayır : şirkətlərin dörddə biri mövcud potensialları daxilində fəaliyyət göstərməyi planlaşdırır və iştirak edən şirkətlərin demək olar ki, yarısı yaxın bir neçə ildə genişlənməyi planlaşdırır.

Qeyri-neft sektoru üçün yerli mühitin və iqtisadiyyatın dayanıqlılığının artırılması 2016-cı ildən bəri ölkə üçün dəyişməz prioritet olaraq qalır. Eyni zamanda, dünya reytinqləri biznes mühitinin inkişafında bəzi ziddiyyətləri göstərir. Azərbaycan 2018-ci ildən bəri Doing Business reytinqindəki mövqeyində kəskin yaxşılaşma nümayiş etdirir. 57-ci yerdən 25-ci yerə yüksəldikdən sonra, 2020-ci ildə ölkə 34-cü yerdə qərarlaşdı[22]. Ancaq bu hesabatı yazan vaxt Dünya Bankı tərəfindən 2020-ci il üzrə bir neçə göstəricidə mövqelərini yaxşılaşdıran (“elektrik təchizatı şəbəkələrinə qoşulma”, “müqavilələrin icrası” və “sərhəddə ticarət”) ölkəni 28-ci pilləyə və Doing Business reytinqində 10 “ən islahatçı ölkə” siyahısına gətirən məlumat uyğunsuzluqları ilə bağlı icmal dərc etdi[25]. Eyni zamanda, Dünya İqtisadi Forumu tərəfindən hazırlanan Qlobal Rəqabətlilik Hesabatı 2016-cı ildən bəri Azərbaycanın mövqelərində orta dərəcədə geriləmə olduğunu göstərir. 2014-2016-cı illər ərzində ölkə 138 ölkə arasında 35-37-ci yerləri tuturdu. 2019-cu ildə ölkənin reytinqi 20 pillə geriləyərək 141 ölkə arasında 58-ci yerdə qərarlaşdı.[26]

2016-cı ildən Azərbaycan üzrə Aİ Biznes Mühiti Hesabatı başladıqdan bəri Avropa şirkətləri biznes mühitində bəzi irəliləyişlər olduğunu qeyd etsə də, ümumi qiymətləndirmə oxşar səviyyədə qalır.

2020-ci il üzrə Aİ Biznes Mühiti Sorğusunda şirkətlərə yerli iqtisadi mühitin qiymətləndirilməsi təklif olundu. Neqativ makroiqtisadi tendensiyalara baxmayaraq, 2020-ci ildə Avropa şirkətlərinin Azərbaycan iqtisadiyyatına olan inamı əvvəlki ilə müqayisədə sabit qalır, iqtisadiyyat isə hələ də "qənaətbəxş" səviyyədən bir qədər aşağı hesab edilir. Eyni zamanda, müəssisələrin öz biznesləri və öz sahələrindəki iqtisadi vəziyyət barədə fikirləri bu il 2019-cu illə müqayisədə daha pessimist görünür və bir qədər aşağı qiymətləndirildi (Əlavə 1, S9).

2020-ci ildəki vəziyyətin ən mənfi qiymətləndirilməsi nəqliyyat, logistika, topdan və pərakəndə satış, turizm və otelçilik, eləcə də konsaltinq və audit sektorlarının nümayəndələri tərəfindən edilmişdir. Eyni zamanda, neft-qaz, kənd təsərrüfatı, İKT, mühəndislik və tikinti sektorlarının nümayəndələri öz sektorlarını və müəssisələrini daha sabit qiymətləndirdilər.

Təklif olunan yerli biznes və investisiya mühiti göstəriciləri arasında 2020-ci ildə siyasi və sosial sabitlik ənənəvi olaraq ən yüksək səviyyədə qiymətləndirildi. Bir neçə ildir ki, göstərici Aİ Biznes Mühiti Hesabatlarında yüksək səviyyədə qalır və "qənaətbəxş" səviyyədən yuxarı qiymətləndirilən yeganə göstəricidir. Bu, Azərbaycan biznes mühitinə və gələcək siyasətlərinə kifayət qədər inamın olduğunu təsdiqləyir.

2019-cu il ilə müqayisədə 2020-ci ildə ən müsbət dinamika "infrastruktur", "gömrük tarifləri" və "iqtisadi siyasətin proqnozlaşdırılması" yerli göstəriciləri üzrə nümayiş olunur. Bunlardan axırıncı qlobal iqtisadi qarışıqlığın bu qeyri-müəyyən dövrü ərzində xüsusilə vacibdir. "Kadrların kvalifikasiyası", "ödəmə intizamı" və "korrupsiyanın aradan qaldırılması üçün tədbirlər" kimi yerli göstəricilərdə mənfi dinamika müşahidə edildi. Əmək bazarı, vergi və miqrasiya ilə əlaqəli amillər keçən il olduğu kimi qalır. Əvvəlki illərdən də göründüyü kimi, "peşə təhsilinin keyfiyyəti" və "dövlət satınalmalarının şəffaflığı" siyahının sonunda yer alır (bax: Əlavə 1, S23).

Hər il Aİ Biznes Mühiti Hesabatları çərçivəsində Avropa şirkətlərindən Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olmağa təşviq edən əsas amillər barədə soruşulur. 2020-ci ildə cavablar böyük ölçüdə əvvəlki illərdə olduğu kimi qaldı. Daxili bazar və strateji tərəfdaşlıqlar Avropa şirkətlərini Azərbaycanda fəaliyyət göstərməyə sövq edən əsas amillər olaraq qalır, ardınca ənənəvi olaraq investorları xaricdə biznes açmağa təşviq edən sərbəst ticarət və sərhəd bazarlarına çıxış amili gəlir (Əlavə 1, S8).

Çətin dövrə baxmayaraq, Avropa şirkətlərinin təxminən yarısı Azərbaycandakı gələcəyinə nikbin qalır və gələcək illərdə böyüməyi planlaşdırır. Ən nikbin proqnozları verən sahələr arasında neft və qaz, tikinti və kənd təsərrüfatı sahələri yer alır. 2020-ci ildə iqtisadiyyatda əsasən pandemiyanın yaratdığı aşkar mənfi tendensiyalara baxmayaraq, göstərilən nəticələr əvvəlki illərlə müqayisə oluna bilər. Məsələn, 2019 və 2018-ci illərdə Avropa şirkətlərinin müvafiq olaraq 44% və 53%-i böyüməyi planlaşdırırdı. Pandemiya həm də şirkətlərə qeyri-müəyyənlik əlavə etdi. 2020-ci ildə eyni potensialda fəaliyyət göstərməyə hazır olan şirkətlərin payı 2019 və 2018-ci illər üzrə Aİ Biznes Mühiti Sorğusunun nəticələri ilə müqayisədə 10% endi və şirkətlərin 15%-i gələcək inkişaflarını proqnozlaşdıra bilmədi. Şirkətlərin təxminən

ŞƏKİL 8. 2011-2020-ci illərdə qlobal reytinqlərdə Azərbaycanın mövqeyi




MƏNBƏ: DB, 2020 Doing Business Hesabatı, Məlumat uğunsuzluqlarına dair icmal; Dünya İqtisadi Forumu, Qlobal Rəqabətlilik Hesabatı 2019

ŞƏKİL 9. Avropa şirkətlərinin 2020-ci ildəki iqtisadi vəziyyətə baxışları




MƏNBƏ: Aİ Biznes Mühiti Sorğusu 2020; Aİ Biznes Mühiti Sorğusu 2019

ŞƏKİL 10. Avropa şirkətləri tərəfindən yerli göstəricilərin sıralanması




MƏNBƏ: Aİ Biznes Mühiti Sorğusu 2020

ŞƏKİL 11. Avropa şirkətlərini Azərbaycana investisiya qoymağa və/və ya biznes fəaliyyəti ilə məşğul olmağa təşviq edən amillər




MƏNBƏ: Aİ Biznes Mühiti Sorğusu 2020

10%-i qarşıdakı illər üçün mənfi proqnoz verdi və əsasən kiçiləcəklərini proqnozlaşdırdı. Mənfi proqnozlar əsasən 2020-ci ildə pandemiyadan ən çox təsirlənən turizm və otelçilik, nəqliyyat sektorları tərəfindən verildi. Əvvəlki illərin nəticələri ilə oxşar olaraq, şirkətlərin yalnız 2%-i Azərbaycandakı fəaliyyətlərini dayandırmağı, əsasən bağlanmağı və ya üçüncü bir ölkəyə köçməyi düşünür. (bax: Əlavə 1, S20).

Alınan digər bir müsbət nəticə Avropa şirkətlərinin 80%-dən çoxunun fəaliyyət göstərdiyi ölkə olaraq yenidən Azərbaycanı seçməkdə əminliyini ifadə etməsidir (bax Əlavə 1, S20.1). Müqayisə üçün 2018 və 2019-cu illər üzrə Aİ Biznes Mühiti Hesabatlarında bu müsbət cavabı şirkətlərin müvafiq olaraq 66% və 75%-i vermişdi ki, bu da Avropa biznesinin yerli biznes mühitinə artan inamını və məmnunluğunu göstərir. Avropa şirkətləri Qafqaz bölgəsindəki ölkələr arasında Azərbaycana yeganə alternativ kimi yekdilliklə Gürcüstanı qeyd etdilər.

**ŞƏKİL 12.** Növbəti bir neçə il ərzində öz inkişafları üzrə şirkətlərin proqnozları




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

**ŞƏKİL 13.** Şirkətlərin yenidən biznes fəaliyyəti üçün Azərbaycanı seçməkdə əminliyi




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

## 2.2 COVID-19-UN AZƏRBAYCANDA AVROPA BİZNESİNƏ TƏSİRİ

> Azərbaycanda karantin rejimi altında beynəlxalq nəqliyyat əlaqələrinin yavaşlaması Avropa şirkətləri üçün ən böyük maneə oldu. Pandemiya ilə əlaqəli məhdudiyyətlər biznes fəaliyyətlərinə güclü təsir göstərdi: Avropa müəssisələrinin 80%-i mənfəətinin, daxili və beynəlxalq dövriyyəsinin azaldığını bildirdi. Bu təsirlərin intensivlik səviyyəsi "orta" və "əhəmiyyətli" arasında qiymətləndirildi. Şirkətlərin yarısından çoxu (64%) bu məhdudiyyətlərin müəssisələrindəki məşğulluq və iş şəraitinə mənfi təsir göstərdiyini də təsdiqlədi. Ən çox görülən təsirin yeni iş yerləri açmaq planlarının ləğvi ilə bağlı olduğu ortaya çıxdı (42%). Şirkətlərin üçdə biri işçilərini natamam iş rejiminə keçirdiyini (37%), əmək haqlarının və digər mükafatların azaldıldığını qeyd etdi (33%).

Sorğuya görə, COVID-19 pandemiyası və bununla bağlı məhdudlaşdırma tədbirləri 2020-ci ildə Azərbaycandakı Avropa şirkətlərinə ən çox təsir edən amil oldu. Pandemiya, ümumilikdə qeyri-müəyyən bazar inkişafı, Dağlıq Qarabağ və ətrafında hərbi əməliyyatların aktivləşməsi ilə yanaşı, neft qiymətlərinin qeyri-sabitliyi ilə birlikdə yerli biznes mühitinə böyük təsir göstərdi, əvvəlki illərdə bu siyahının başında olan bürokratiya və korrupsiya kimi digər ölkə problemlərini kölgədə qoydu (bax: Əlavə 1, S10).

### COVID-19 məhdudiyyətləri

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) qlobal pandemiyanı elan etməsindən bir həftə sonra, 19 mart tarixində "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Prezident Fərmanı[27], imzalandı. Martın 24-dən etibarən səlahiyyətli rəsmilər Azərbaycanda sərhədlərin bağlanması, xaricdən qayıdan vətəndaşların məcburi karantinaya alınması, kütləvi toplaşmaların qadağan edilməsi, daxili hərəkətin məhdudlaşdırılması, pərakəndə satış məntəqələrinin, aeroportların və nəqliyyat mərkəzlərinin bağlanmasını, sosial məsafə, ictimai yerlərin dezinfeksiyasını əhatə edən xüsusi karantin rejimi tətbiq etdi. Pandemiya 2016-cı ildə istifadəyə verildiyi

**ŞƏKİL 14.** 2020-ci ildə müxtəlif amillərin Avropa şirkətlərinə təsiri




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

**ŞƏKİL 15.** COVID-19 məhdudlaşdırma tədbirlərinin Avropa şirkətləri üzərində təsirinin qiymətləndirilməsi




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

gündən bəri ilk dəfə "ASAN Viza" xidmətinin fəaliyyətinin dayandırılmasına səbəb oldu. Şübhəsiz ki, həyata keçirilən tədbirlərin biznes mühitinə çox böyük təsiri oldu və turizm, otelçilik, əyləncə və ictimai nəqliyyat kimi bəzi sektorların yeni məhdudiyyətlərlə sanki tamamilə bloklandığı müşahidə olundu.

Sorğu nəticələri göstərdi ki, beynəlxalq nəqliyyat əlaqələrinə dair məhdudiyyətlər Avropa şirkətlərinə digər tətbiq olunan tədbirlərdən daha güclü təsir etdi. Bu məhdudiyyət orta təsir səviyyəsini kəskin təsir səviyyəsinə doğru keçən yeganə tədbir oldu. Müsahibələr zamanı şirkətlər izah etdi ki, xarici əlaqələrə yüksək həssaslıqları aid olduğu ölkə, qərargah, xarici təchizatçılarla əməkdaşlığı nəzərdə tutan və xarici ixtisaslı işçilərdən və s. asılı olan bizneslərinin beynəlxalq xüsusiyyətlərindən qaynaqlanır. Azərbaycanda daxili səyahətlərin məhdudlaşdırılması, işçilər üçün distant iş rejiminin tətbiqi və insanların sosial mühitdə toplanmasına qoyulan məhdudiyyətlər də Avropa müəssisələrinə mənfi təsir etdi, lakin təsirləri orta səviyyəyə yaxın qiymətləndirildi (bax: Əlavə 1, S11).

Müsahibə nəticələri göstərdi ki, beynəlxalq karantin dövründə belə bəzi Avropa müəssisələri beynəlxalq təchizatçıları axtarmağa davam etdilər. Şirkətlərdən bunun səbəbləri barədə soruşuldu. Əvvəlki illərdə də göstərildiyi kimi, yerli təchizatçılarla əməkdaşlıq etmək üçün ən çox yayılmış əngəllərdən biri kimi qeyri-kafi keyfiyyət standartları, yerli alternativ məhsulların olmaması və yerli tədarükçülərin bacarıq və qabiliyyətlərinin çatışmazlığı qalır (bax: Əlavə 1, S14.3).

## Şirkətlərin fəaliyyətinə təsir

COVID-19-un nəticəsini daha yaxşı qiymətləndirmək üçün Avropa şirkətlərindən 2020-ci il sorğusunda karantin rejiminin öz fəaliyyətlərinə təsirini müəyyənləşdirmələri istənildi. Verilən cavablara görə, müəssisələrin 80%-i mənfəətin, daxili və beynəlxalq ticarət dövriyyəsinin azalması ilə bağlı təsiri təsdiqlədi. Sorğuda qeyd olunan göstəricilərin azalmasının faizlə qiymətləndirilməsi təklif edildi. Nəticələr göstərir ki, 2020-ci ildə Avropa müəssisələrinin dövriyyə və mənfəət baxımından daralması təxminən 25% təşkil edib ki, bu da şirkətlər tərəfindən "orta" və "əhəmiyyətli" təsir səviyyələri kimi qiymətləndirilir. Bununla yanaşı, müəssisələrin qalan 20%-i üçün karantin rejimi fəaliyyətlərində heç bir dəyişikliyə səbəb olmadı və şirkətlərin yalnız çox məhdud bir hissəsi mənfəətlərini bir qədər artırdı (müəssisələrin 5%-i) (bax: Əlavə 1, S12; 12.1).

> Pandemiya bir il əvvəl heç birimizin təsəvvür etmədiyi fövqəladə bir hadisə oldu və bunun bəşər dünyasına təsirinin miqyası dəhşətlidir. İnanıram ki, pandemiya və karantin rejiminin təsirini hiss etməyən şirkətlər yoxdur. Bütün müəssisələr birbaşa və ya dolayı şəkildə müəyyən dərəcədə təsirlənir.
>
> Avropa şirkətinin direktoru
> (konsaltinq şirkəti)

Müsahibələr zamanı şirkətlər karantin rejiminin ilk aylarının iş yerlərinin və əhalinin əksəriyyətinin dayandığı və gələcək inkişafları gözlədiyi "şok effekti" səbəbindən ən çətin dövr olduğunu vurğuladı. Onların fikrincə, yerli iqtisadiyyatın dinamikası hər ay dəyişdiyindən və kommersiya nəticələri pandemiya və yerli məhdudiyyətlərlə bağlı gələcək inkişaflardan asılı olduğundan şirkətlərin maliyyə itkilərini tam qiymətləndirmək hələ tezdir.

**ŞƏKİL 16.** Karantin məhdudiyyətlərinin Avropa şirkətlərinin fəaliyyətinə təsiri




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

**ŞƏKİL 17.** Karantin rejimindən qaynaqlanan nəticələrin intensivliyi




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

## Məşğulluğa təsirlər

Pandemiyanın ən güclü təsirlərindən biri qlobal məşğulluqda əks olundu. OECD üzv ölkələri arasında ortalama işsizlik nisbətinin 2020-ci ildə tək dalğa ssenarisi ilə 9,2%-ə, ikinci dalğa ssenarisi ilə isə 10,0%-ə yüksələ biləcəyini proqnozlaşdırdı. Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanın iqtisadi fəal əhalisi arasında işsizlik 2019-ci ildə təxminən 4.8% təşkil edib[1] və Dünya Bankı tərəfindən 2020-ci il üçün təxminən 5.5-6%-ə çatacağı proqnozlaşdırılır[2].

Respondentlərin yarısından çoxu karantin rejiminin şirkətlərindəki məşğulluq və iş şəraitinə təsirinin olduğunu təsdiqlədi (64%). Ən çox görülən mənfi təsir yeni iş yerləri (şirkətlərin 42%-i) yaradılması planlarının ləğvi ilə əlaqədardır. Şirkətlərin üçdə biri karantin rejiminin mövcud işçi heyəti üzərində natamam iş rejiminə keçmə (37%), əmək haqlarının və digər mükafatların azaldılması (33%) kimi təsiri olduğunu təsdiqlədi. Şirkətlərin təxminən 20%-i müəssisədən kənar/müqaviləli işçi sayını azaltdı. Bu il demək olar ki, heç bir şirkət yeni iş imkanları yarada bilmədi (bax: Əlavə 1, S13).

> Yazda şirkətimiz işləyə bilmədi və əmək haqlarını ödəmək çətin idi. Son aylarda karantin ləğv edildi və ticarət əməliyyatlarımız sabitləşdi, ancaq pandemiyanın ikinci dalğası olacağı təqdirdə, eyni problemlə qarşılaşacağımızı düşünürük.
>
> Avropa şirkətinin direktoru
> (nəqliyyat və logistika)

**ŞƏKİL 18.** Karantin rejiminin şirkətlərin məşğulluq və iş şəraitinə təsiri




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

## 2.3 BİZNESLƏRİN KARANTİN REJİMİNƏ UYĞUNLAŞDIRILMASI

2020-ci ildə müəssisələrin uğur qazanması şirkətlərin fəaliyyətlərini karantin rejiminə uyğun tənzimləmə hazırlığından və qabiliyyətindən asılı idi. Azərbaycanda fəaliyyət göstərən Avropa şirkətlərinin böyük əksəriyyəti bir neçə növ adaptasiya tədbirləri gördü (94%). Müəssisələrin fəaliyyətinin rəqəmsallaşdırılması (58%) və işçi heyət üçün distant iş rejiminə keçmə (75%) şirkətlərdə ən çox tətbiq olunan həll yolları oldu. Buna görə də özəl sektorun daha da rəqəmsallaşdırılması və Azərbaycanda kifayət qədər informasiya infrastrukturunun mövcudluğu özəl sektorun dayanıqlılığı üçün mühüm əhəmiyyətə malikdir. Karantin rejimi daha da uzadıldığı təqdirdə Avropa müəssisələrinin yarısı fəaliyyətlərini uyğun şəkildə tənzimləməyə davam etməyi, 42%-i mövcud potensialda fəaliyyət göstərməyi planlaşdırır və 8%-i fəaliyyətlərini dayandıracağını qeyd edir.

2020-ci ilin mart ayından bəri şirkətlər öz fəaliyyətlərini Azərbaycanda digər ölkələrlə müqayisədə nisbətən uzun müddət davam edən karantin rejiminin gətirdiyi yeni reallığa uyğunlaşdırırlar. Avropa şirkətlərinin 94%-i fəaliyyətlərini yeni mühitə uyğunlaşdıqlarını qeyd etdi. Müsahibə olunan Avropa biznesləri bu il öz fəaliyyətləninin dayanıqlılığının çevik reaksiya vermək və biznes əməliyyatlarını adaptasiya etmək üçün lazımi hazırlıq və bacarıqlarından güclü şəkildə asılı olduğunu vurğuladı.

> Karantin elan edildikdə dərhal şirkətimizi onlayn işə uyğunlaşdırmağa başladıq. Bir ayda normal iş səviyyəmizə qayıtdıq və bir neçə ayda şirkətimiz satışlarını da artırdı. Bu ona görə baş verdi ki, o vaxt rəqiblərimiz hələ mövcud vəziyyətə uyğunlaşa bilmədilər və onların müştəriləri bizə müraciət etdilər.
>
> Avropa şirkətinin direktoru
> (maşın və avadanlıq sektoru)

Avropa şirkətləri ən geniş yayılmış və effektiv adaptasiya tədbirləri arasında işçilər üçün distant iş rejiminin tətbiqi  və biznes fəaliyyətlərinin rəqəmsallaşdırılmasını qeyd etdilər (bax: Əlavə 1, S14). Avropa şirkətlərinin əksəriyyəti 2020-ci ildə fəaliyyətlərini rəqəmsallaşdırarkən bəzi şirkətlər işlərini tamamilə onlayn formata keçirdi. Şirkətlərin yalnız 12%-i biznes sektorlarının spesifikliyinə görə məhdud rəqəmsallaşdırma tətbiq etdi (bax: Əlavə 1, S14.1). Respondentlər vurğulayır ki, Azərbaycanda biznesin orta rəqəmsallaşma səviyyəsi Avropa şirkətlərinin verdiyi cavablara görə qiymətləndirilə bilməz. Avropa şirkətləri bizneslərinin beynəlxalq təbiəti olması ilə əlaqədar xarici infrastrukturlarla distant

**ŞƏKİL 19.** Avropa şirkətləri tərəfindən karantin rejiminin təsirini minimuma endirmək üçün həyata keçirilən tədbirlər




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

**ŞƏKİL 20.** Avropa şirkətlərinin öz bizneslərini rəqəmsallaşdırma qabiliyyəti




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

əlaqələr qurmaq üçün pandemiya başlamazdan əvvəl onlayn işin aparılmasına orta yerli müəssisələrə nisbətən daha hazırlıqlı idilər. Bu hazırlıqlara təsdiqlənmiş onlayn prosedurların və protokolların mövcudluğu, proqram təminatı, keyfiyyətli internet bağlantısı və s. daxildir.

Avropa şirkətlərinin işçi heyəti də distant işə hazır olduqlarını nümayiş etdirdilər. Karantin rejiminin ilk aylarında şirkətlərin çoxu işçilərinin yeni iş formatına uyğunlaşmasına kömək etmək üçün xüsusi daxili təlimlər təşkil etdi (bax: Əlavə 1, S14.2).

Avropa şirkətlərindən Azərbaycandakı karantin rejimi əlavə 3-6 ay uzadıldığı təqdirdə planları barədə soruşuldu. Pandemiya ilə əlaqəli məhdudiyyətlərin iqtisadiyyat və biznes mühitinə böyük təsirinə baxmayaraq, şirkətlərin 90%-dən çoxu karantin rejimi dövründə biznes fəaliyyətlərini davam etdirməyə hazır olduğunu qeyd etdi: müəssisələrin yarısı karantin rejiminin uzadılması halında öz işlərini tənzimləməyə davam etməyi planlaşdırır və şirkətlərin 40%-dən çoxu isə işlərini mövcud formatda  davam etdirəcəyini bildirdi. Bu, eyni zamanda Avropa şirkətlərinin əksəriyyətinin pandemiya məhdudiyyətləri zamanı əlçatan olaraq qalan yerli bazarı hədəf alması faktı ilə izah edilə bilər. Bununla yanaşı, Avropa şirkətlərinin təxminən 8%-i mövcud məhdudiyyətlər altında bizneslərini davam etdirə biləcək vəziyyətdə olmayacaqlarını və Azərbaycanda karantin və ya pandemiya bitənə qədər fəaliyyətlərini dayandıracağını proqnozlaşdırır (bax: Əlavə 1, S19). Bu cür mənfi proqnozlar nəqliyyat, turizm və otelçilik kimi ən çox təsirlənən sektor nümayəndələri tərəfindən verildi.

**ŞƏKİL 21.** Azərbaycanda karantin rejiminin daha da uzadılması halında Avropa şirkətlərinin planları




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

> Azərbaycanda karantin əksər Aİ və ŞT ölkələri ilə müqayisədə ən uzun və ən sərt formada tətbiq edilir. Hökumətin təsirlənmiş sektorları dəstəkləmək üçün səy göstərdiyini görürük, amma biznes sektorumuz üçün bu cür məhdudiyyətlər altında uzunmüddətli əməliyyatları davam etdirmək mümkün deyil.
>
> Avropa şirkətinin direktoru (turizm və otelçilik)

Bu hesabatı yazarkən karantin rejiminin 2021-ci ilə qədər uzadılacağı məlum oldu. Buna görə də özəl sektorun daha da rəqəmsallaşdırılması və Azərbaycanda yetərli informasiya infrastrukturunun mövcudluğu yerli iqtisadiyyatın dayanıqlılığı üçün çox vacibdir (bax: Bölmə 3.3).

## 2.4 PANDEMİYA ZAMANI DÖVLƏT DƏSTƏYİ

> Avropa şirkətləri ümumilikdə pandemiya dövründə dövlət dəstəyindən, onun əlçatanlığından və kommunikasiya səviyyəsindən məmnundur (75%). Ən yüksək qiymətləndirilən dəstək vergi və maliyyə imtiyazları ilə əlaqəli təşəbbüsdür (55%), daha sonra ən çox təsirlənən sektorlarda çalışan işçilərin əmək haqqının ödənilməsi (49%) və inzibati prosedurların rəqəmsallaşdırılması (40%) təşəbbüsləridir. Dövlət dəstəyinin daha da yaxşılaşdırılmasına dair ən çox verilən tövsiyələr karantin rejimindən dolayı yolla təsirlənən daha çox biznes sektoru üçün vergi güzəştlərinin tətbiqi, daha ucuz maliyyəyə çıxışın genişləndirilməsi və beynəlxalq səyahətlərə olan məhdudiyyətlərin aradan qaldırılması idi.

4 aprel 2020-ci ildə Azərbaycan hökuməti koronavirus pandemiyasının mənfi təsirini azaltmaq üçün tədbirlər planını elan etdi. 1,47 milyard ABŞ dolları (ÜDM-in 4,85%) büdcəsi olan dəstək proqramı qlobal pandemiya və bununla əlaqəli məhdudiyyətlərdən ən çox təsirlənən şirkətlər və əhali qruplarını əhatə etdi.[28] Qəbul edilmiş fəaliyyət planı pandemiyadan təsirlənmiş fərdi sahibkarlara birbaşa maliyyə dəstəyini (47 milyon ABŞ dolları); əmək haqqı subsidiyaları (127 milyon ABŞ dolları), vergi güzəştləri (68 milyon ABŞ dolları), həyati vacib sərnişindaşıma fəaliyyəti sahələrinə dəstək (165 milyon ABŞ dolları); bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və kredit faizlərinin subsidiyalaşdırılması (300 milyon ABŞ dolları); mövcud kredit portfeli üzrə kredit faizlərinin subsidiyalaşdırılması (600 milyon ABŞ dolları) kimi təşəbbüsləri əhatə edir.[7]

**ŞƏKİL 22.** Pandemiya zamanı müxtəlif dövlət dəstək tədbirlərinin effektivliyi




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

**ŞƏKİL 23.** Hökumətin əlavə tədbirləri ilə bağlı gözləntilər




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

Prioritet KOB-lar və ən çox təsirlənmiş sahələrdən olan istehsal, turizm, otelçilik və əyləncə, nəqliyyat, topdan və pərakəndə satış və s. kimi ən həssas kateqoriyalara verilmişdir. Hazırkı yanaşma beynəlxalq təcrübə ilə uyğun olsa da, bu yanaşma vergi güzəştlərinin karantin rejimindən təsirlənən daha geniş müəssisələrə şamil edilməli olduğuna inanan Avropa şirkətlərinin tənqidi ilə qarşılaşır. Çevik meyarlar yalnız müəyyən bir sektoru deyil, eləcə də pandemiya dövründə şirkətlərin fəaliyyətlərini nəzərə almalıdır.

2020-ci il üzrə Aİ Biznes Mühiti Sorğusunun nəticələrinə görə, vergi və maliyyə imtiyazları ilə bağlı təşəbbüs Avropa şirkətləri tərəfindən ən çox təqdir edilən tədbir hesab edildi, ardından ən çox təsirlənən sektorlarda çalışan işçilərin əmək haqqının ödənilməsi və inzibati idarəetmənin rəqəmsallaşdırılması üçün prosedurlar yüksək qiymətləndirildi (bax: Əlavə 1, S17).

> Bu il hökumət mövcud vəziyyətə qarşı çevik və güclü siyasi reaksiya verdi və KOB-lara dəstək vaxtında gəldi. Müvafiq təşəbbüslər zamanı kommunikasiya vaxtında və düzgün qurulurdu. Bu, 2016-cı ildəki neft böhranından sonra görülən tədbirlərdən daha yaxşı bir cavab tədbiri idi.
>
> Avropa şirkətinin direktoru (nəqliyyat və logistika sektoru)



Avropa müəssisələri bu aylarda karantin məhdudiyyətləri ilə əlaqədar lazımi kommunikasiyanın hökumət tərəfindən təmin edildiyini, müəssisələrin və əhalinin dəyişikliklərlə bağlı mütəmadi olaraq məlumatlandırıldığını bildirir. Vətəndaşları məhdudlaşdırma tədbirləri barədə məlumatlandırmaq və onlayn təhsil, e-səhiyyə və əyləncə kimi rəqəmsal xidmətlərə çıxışını təmin etmək üçün xüsusi bir vebsayt quruldu.

İkitərəfli müsahibələr zamanı Avropa şirkətləri COVID-19 ilə əlaqəli mövcud dövlət dəstəyini 2015 və 2016-cı illərdəki neft qiymətləri ilə əlaqədar böhrandan sonra tətbiq edilən əvvəlki tədbirlərlə müqayisə etdilər. Cavab tədbirlərinin hazırkı sürəti, keyfiyyəti və hazırda təqdim olunan vasitələrin müxtəlifliyi ən müsbət hal olaraq qiymətləndirildi. Açıqlanan proqramların əlçatanlığı qeyd edilən müsbət məqamlardan biri idi. Şirkətlər dövlət dəstəyinin əhatə dairəsinə daxil olan müəssisələrin həm güzəştlər, həm də gözlənilən maliyyəni aldıqlarını bildirdi.

Şirkətlərin 75%-i mövcud tədbirlərin kifayət olduğunu düşünür və hökumətdən əlavə tədbirlər gözləmir. Mümkün əlavə tədbirlər barədə ən tez-tez verilən təkliflər karantin rejimindən dolayı yolla təsirlənən daha çox biznes sektorunun dövlət dəstəyi alması üçün uyğunluq meyarlarının əlavə edilməsi, daha ucuz maliyyəyə çıxışın genişləndirilməsi və beynəlxalq səyahətlərə qoyulan məhdudiyyətlərin aradan qaldırılması idi (bax: Əlavə 1, S18).

> Bir çox sektor pandemiyadan dolayı yolla təsirlənir və dövlət dəstəyi proqramları da bu faktı nəzərə almalıdır. Məsələn, sektorumuz və şirkətimiz dövlət dəstək proqramının əhatə dairəsinə daxil deyil. Ancaq hər bir konsaltinq şirkəti kimi bizim də gəlirimiz birbaşa müştərilərimizin biznes əməliyyatları ilə bağlıdır və bir çoxu hazırda böhran yaşayır. Bununla da fəaliyyətimizdə əhəmiyyətli azalma oldu.
>
> Avropa şirkətinin meneceri (konsaltinq və audit)

## 2.5 DAĞLIQ QARABAĞ VƏ ƏTRAFINDA HƏRBİ ƏMƏLİYYAT

Dağlıq Qarabağ və ətrafında aparılan hərbi əməliyyat müharibədən təsirlənmiş ərazinin xaricində fəaliyyət göstərən müəssisələrə məhdud təsir göstərdi. Pandemiya zamanı İKT distant iş üçün həlledici bir vasitə olduğundan biznesin əsas çətinlikləri internetə və sosial şəbəkələrə girişin məhdudlaşdırılması ilə bağlı idi. Hərbi əməliyyatların uzadılması ehtimalı Avropa şirkətləri tərəfindən biznes mühitinə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək ən böyük təhlükə kimi qiymətləndirildi. Hərbi əməliyyat Azərbaycanın yeni xarici şirkətlər və investorlar üçün cəlbediciliyinə bir qədər təsir göstərsə də, Azərbaycandakı mövcud investorlar və şirkətlər öz biznesinə olduğu kimi davam etdi. Atəşkəs razılığından sonra müəssisələr təsirə məruz qalan ərazilərdə yeni layihələrin və investisiya imkanlarının başlanacağını və ümumilikdə iqtisadi islahatların daha güclü prioritet olacağını gözləyir.

Dağlıq Qarabağ münaqişəsi uzun illərdir ki, Azərbaycanın iqtisadiyyatına və inkişafına təsir göstərir. 2020-ci ildə Azərbaycanla Ermənistan arasında gərginlik iyul ayında yüksəldi və sentyabr-noyabr aylarında 44 günlük müharibə ilə davam etdi.

Aktiv hərbi əməliyyatlar 2020-ci il üzrə onlayn Aİ Biznes Mühiti Sorğusu artıq yayımlandıqdan sonra başladı. Buna görə də bu hadisənin biznes mühitinə təsiri ilə əlaqədar məhdud sayda məlumat toplana bildi. Buna baxmayaraq, sorğu nəticələrinə görə, hərbi konflikt 2020-ci ildə COVID-19-dan və bazarın inkişafındakı qeyri-müəyyənlikdən sonra yerli biznes mühitinə təsir edən ən güclü 3-cü amil kimi qeyd olundu (bax. Əlavə 1, S10).

Avropa şirkətlərinin hərbi eskalasiyanın bizneslərinə təsiri barədə fikirləri haqqında daha çox məlumat toplamaq üçün bu mövzu oktyabr və noyabr aylarında edilən ikitərəfli müsahibələr zamanı müzakirə edildi. Müsahibədə iştirak edən nümayəndələrin rəyləri əsasında aşağıdakı nəticələr əldə olundu:

- Hərbi eskalasiyaların münaqişə bölgəsi xaricində fəaliyyət göstərən müəssisələrə məhdud təsiri var idi. Bakıda yerləşən şirkətlər öz işlərini adi qaydada davam etdirdilər;
- Hərbi əməliyyatlardan təsirlənən qonşu bölgələrdə davam edən layihələr müvvəqqəti dayandı və şirkətlər işçilərini başqa yerə köçürdülər. Azərbaycanın ikinci böyük şəhəri olan Dağlıq Qarabağa yaxın ərazidə yerləşən Gəncədə fəaliyyət göstərən müəssisələr müəyyən dərəcədə təsirə məruz qaldılar;
- Hərbi vəziyyətin tətbiq olunduğu dövrdə İKT ilə əlaqəli məhdudiyyətlər pandemiya zamanı distant iş rejimi olduğundan bizneslərin fəaliyyətlərinə əhəmiyyətli dərəcədə təsir etdi;
- Bizneslər layihələri müvvəqqəti dayandırmağa və hərbi vəziyyətin səbəb olduğu qısamüddətli məhdudiyyətlərin öhdəsindən gəlməyə hazır idilər, lakin hərbi əməliyyatların orta və uzun müddətə uzadılması ehtimalının şirkətlərin fəaliyyətlərini davam etməsi baxımından güclü bir maneə ola biləcəyindən narahat idilər;
- Hərbi əməliyyat yeni Avropa şirkətləri və investorlar üçün Azərbaycanın beynəlxalq cəlbediciliyinə müvəqqəti təsir göstərmiş ola bilər, lakin bazarda fəaliyyət göstərən mövcud şirkətlər biznes fəaliyyətlərini olduğu kimi davam etdirir;
- Yuxarıda göstərilən təsirlərə baxmayaraq, Avropa şirkətləri hökumətin münaqişədən təsirlənmiş ərazilər üzərində nəzarətinin yenidən qurulmasının ölkə vətəndaşları və iqtisadiyyatı üçün vacibliyini vurğuladılar.

Üçtərəfli "Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş nazirinin və Rusiya Federasiyası Prezidentinin Bəyanatı"nın imzalanması ilə atəşkəs elan olundu.

Atəşkəs əldə edildikdən və hərbi qarşıdurma dayandıqdan sonra Avropa biznesləri bərpa və investisiyaların cəlb edilməsi zərurəti səbəbindən Azərbaycanda iqtisadi islahatlara daha çox üstünlük veriləcəyini düşünür. Şirkətlər həmin ərazilərdə yol və irriqasiya infrastrukturu, mülki və sənaye tikintisi, İKT ilə yanaşı kənd təsərrüfatı sektorunun inkişafı ilə bağlı yeni layihələr və investisiya imkanlarını gözləyirlər.

> İnanıram ki, münaqişə bitdikdən sonra geri qaytarılmış ərazilərdə yeni investisiya imkanları artacaq. Çox güman ki, bu imkanlar həmin ərazilərin mülki tikintisinə və infrastruktur bərpasına həsr olunmuş böyük layihələri əhatə edəcək. Şübhəsiz ki, bu, Avropa investorları üçün maraqlı olacaq.
>
> Avropa biznes dəstək təşkilatının rəhbəri





# 3 YERLİ İSLAHATLARDA İRƏLİLƏYİŞ

2016-cı ildən bəri Azərbaycan KOB-ların inkişafına xüsusi diqqət ayıraraq iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun gücləndirilməsi üçün islahatlar həyata keçirir. İslahatların əsas məqsədi bürokratiyanın, korrupsiyanın azaldılması və daha şəffaf iqtisadiyyat qurmaqla yerli biznes mühitinin yaxşılaşdırılmasıdır.

Dünya Bankının “Doing Business 2020” hesabatına görə, Azərbaycan dünyanın 10 “ən islahatçı ölkələri” sırasında yer aldı. 2018-ci ilin may ayından 2019-cu ilin may ayınadək olan dövrdə hökumət daşınmaz əmlak üzərində hüquqların qeydə alınması, kreditlər və minoritar səhmdarların müdafiəsi ilə bağlı dörd islahat həyata keçirmişdir. Eyni zamanda, ölkədə özəl sektorla əlaqəli struktur islahatları, korrupsiyanın azaldılması, əqli mülkiyyət hüquqlarının təminatı və məhkəmə şəffaflığı ilə bağlı istiqamətlərdə irəliləyiş əldə edilmədi.[22] OECD “KOB Siyasət İndeksi 2020”-yə görə, Azərbaycan 2016-cı ildən bəri institusional və tənzimləyici çərçivə göstəricilərini və sahibkarlıq bacarıqları göstəricisini xeyli yaxşılaşdırıb. Maliyyəyə çıxış, dövlət satınalmaları və innovasiya siyasətində də orta irəliləyişlər müşahidə edilmişdir.[30]

2016-cı ildən bəri Azərbaycan üzrə Aİ Biznes Mühiti Hesabatı Avropa şirkətlərinin yerli islahatlara dair fikir və qiymətləndirmələrinin illik monitorinqini həyata keçirir. Monitorinq sorğu iştirakçıları tərəfindən verilən anonim rəylərə əsaslanır.

2020-ci il sorğusunda Avropa biznesləri tərəfindən ən effektiv olaraq qiymətləndirilən islahatlar keçən ilin nəticələri ilə müqayisədə eyni olaraq qalır. Belə ki, ASAN, vergi və gömrüklə bağlı islahatlar və əmək bazarı sahəsindəki irəliləyişlər ən yüksək xalları əldə etdi (bax: Əlavə 1, S21). Ən yüksək qiymətləndirilən islahatlar və bunun arxasında duran səbəblər haqqında daha ətraflı məlumat aşağıda verilmişdir.

Əvvəldə qeyd edildiyi kimi, 2020-ci ildə qlobal pandemiya və Dağlıq Qarabağ münaqişəsi kimi fövqəladə amillər xaricində Avropa şirkətləri “yerli iqtisadi islahatların yavaşlaması riski”ni yerli biznes mühiti üçün əsas təhdidlərdən biri hesab edir (bax: Əlavə 1, S10). Bu isə Avropa şirkətlərinin aparılan islahatlara dair gözləntilərinin yüksək olaraq qaldığını göstərir. Müəssisələrin müsahibələr zamanı təsdiqlədiyi kimi islahatlar Avropa şirkətlərinin əksəriyyətinin təmsil olunduğu qeyri-neft sektorundakı KOB-lar üçün mühitin yaxşılaşdırmasında effektiv mexanizm hesab edilir.

**ŞƏKİL 24.** 2019-2020-ci illər ərzində aparılan yerli islahatların effektivliyi




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

## 3.1 ASAN DÖVLƏT XİDMƏTİ

> Sorğuda iştirak edən Avropa şirkətlərinə görə, ASAN 2017-ci ildən bəri Azərbaycanda aparılan yerli islahatların zirvəsində və illik Aİ Biznes Mühiti Hesabatının ən yüksək pilləsində qalmaqdadır. Müştəri yönümlü yanaşma və prosedurların kifayət qədər şəffaflığı ilə yanaşı, "bir pəncərə" konsepsiyası ASAN-ı illik reytinqin zirvəsində saxlayır.

Dövlət Xidmətləri və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi nəzdində fəaliyyət göstərən ASAN bu illər ərzində öz xidmətlərinin portfelini inkişaf etdirməyə davam edir və Azərbaycanda yerli islahatların flaqmanı olaraq qalır və 2017-ci ildən bəri illik Aİ Biznes Mühiti Hesabatında ən yüksək pillədə yer alır.

Avropa şirkətləri ASAN-a vergi, gömrük, konsulluq və maliyyə xidmətləri daxil olmaqla bizneslə əlaqəli xidmətlər, eləcə də şirkətin Azərbaycanda qeydiyyatı, lisenziyalar və icazələrin alınması, viza və miqrasiya sənədləri, ixtisaslı xarici kadrlar üçün iş və yaşayış icazələri, sığorta, nəqliyyat sənədləri, qaynar xətt xidməti və s. üzrə müraciət edirlər. 2020-ci il karantin rejimi dövründə ASAN kvotanın əldə edilməsi və məsafədən işləyə bilməyən və iş yerlərində fəaliyyət göstərməli olan işçilər üçün qeydiyyat platforması kimi fəaliyyət göstərmişdir.

İkitərəfli müsahibələr zamanı Avropa şirkətləri ASAN-ı islahatlar siyahısında birinci pillədə saxlamağın əsas amillərini qeyd etdilər:

- "Bir pəncərə" konsepsiyası və geniş çeşidli xidmətlərin mövcudluğu;
- Müraciət edənlərin tələblərini təmin etməyi hədəfləyən güclü müştəri yönümlü yanaşma;
- Bürokratiyanın aşağı səviyyədə olması ilə nəticələnən lazımi səviyyədə rəqəmsallaşma;
- Hazırlanması və tətbiqi üçün sərf olunan vaxta qənaət etməklə nəticələnən hər bir xidmət üçün aydın mövcud təlimatlar;
- Şəffaflıq və aşağı korrupsiya riskləri.




> "ASAN-a gələndə hiss etdiyimiz əsas fərq bizi də öz müştəriləri kimi görmələri və ehtiyaclarımızın təmin olunması üçün kömək etməyə çalışmalarıdır. Digər dövlət qurumları düşüncə tərzini dəyişənə, özlərini nəzarət edən və cəzalandıran orqanlar kimi göstərməyə davam edənə qədər ASAN bu reytinqin başında qalacaq.
>
> Avropa şirkətinin sahibi

ASAN-ın təqdim etdiyi geniş çeşidli xidmətlər nəzərə alınaraq, onu yalnız biznes əməliyyatlarını hədəf alan digər islahatlarla müqayisə etmək hər zaman uyğun deyil. Geniş perspektivdə ASAN tərəfindən nümayiş etdirilən münasibət və müştəri yönümlü yanaşma tərzi dövlət qurumlarının digər islahatlarına da tətbiq oluna bilər.

### ƏLAVƏ MƏLUMAT

Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi (ASAN) 2012-ci ildə Prezidentin Fərmanı ilə yaradıldı və 10 fərqli dövlət və özəl qurum tərəfindən həyata keçirilən 300-dən çox dövlət xidmətini birləşdirən "bir pəncərə" sistemi kimi fəaliyyət göstərir. ASAN tərəfindən göstərilən xidmətlər ASAN-Viza, ASAN Ödəniş və ASAN Maliyyə platformaları da daxil olmaqla fiziki və hüquqi şəxslərin həyat və ehtiyacları ilə əlaqəli müxtəlif sahələri əhatə edir. Bu gün ölkədə "Səyyar ASAN Xidmət" lə fəaliyyət göstərən 20 ASAN mərkəzi fəaliyyət göstərir ki, bununla ərazilərdə də xidmətlər göstərilə bilər.[31]

## 3.2 ELEKTRON VERGİ XİDMƏTLƏRİ VƏ VERGİ MƏCƏLLƏSİNƏ DƏYİŞİKLİKLƏR DAXİL OLMAQLA VERGİ İSLAHATLARI

Vergi sisteminin yaxşılaşdırılması prioritetləşdirildikdən bir neçə il sonra 2020-ci ildə aparılan sorğu bu sahədə irəliləyişlər olduğunu nümayiş etdirir. Avropa şirkətləri həm yeni vergi güzəştlərini, həm də elektron vergi prosedurlarını yüksək qiymətləndirir. İqtisadiyyatın daha da şəffaflığı ilə nəticələnək elektron vergi xidmətlərinin genişləndirilməsinin təşviq edilməsinə ehtiyac var. Vergi orqanlarının bizneslərə münasibəti hələ daha da təkmilləşdirilməlidir. Vergi Xidmətini İqtisadiyyat Nazirliyinə keçirən son təşkilati islahatdan sonra şirkətlər bu baxımdan müsbət dinamika gözləyir.

Builki reytinq cədvəli vergi islahatlarını iki qrupa bölür: vergi xidmətlərinin rəqəmsallaşdırılması (e-vergi) və vergi qanunvericiliyindəki dəyişikliklər (Vergi Məcəlləsinə dəyişikliklər). Avropa şirkətləri hər iki aspekti müsbət qiymətləndirir, lakin elektron vergi sisteminin üstünlükləri vergi qanunvericiliyindəki dəyişikliklərdən daha yüksək sıralarda yer alır.

2020-ci ildə karantin rejimi və bununla əlaqəli tədbirlər vergi xidmətləri ilə əlaqədar bütün rəqəmsal xidmətlərin aktivləşdirilməsi üçün əlavə bir katalizator oldu. Müsahibələr zamanı Avropa şirkətləri onlayn vergi bəyannaməsindən istifadə etmək imkanının bürokratiyanı azaltdığını və hesabat prosedurlarının aparılmasında vaxt səmərəliliyini artırdığını bildirdi. Bizneslər inanır ki, elektron vergi sisteminin daha da təşviqi və Azərbaycanda daha çox yerli şirkətlər tərəfindən istifadəsi "kölgə iqtisadiyyatı"nı azaldacaq və biznes mühitini yaxşılaşdıracaq. Elektron vergi sisteminin tətbiqi ilə daha çox irəliləyiş təmin etmək məqsədilə müəssisələr üçün maarifləndirmə kampaniyaları və təlimlərin təşkili zəruridir.

> Bu islahatın əvvəlində müştərilərimiz olan KOB-lar onlar üçün çətin görünən elektron vergi hesabatlarının istifadəsinə müqavimət göstərirdilər. Ancaq bir müddət sonra buna uyğunlaşdılar və bu sistemin gətirdiyi əhəmiyyətli üstünlükləri anladılar.
>
> Konsaltinq şirkətinin meneceri

2016-cı ildən bəri vergi qanunvericiliyində davam edən dəyişikliklərə bir sıra investisiya təşviqləri, vergi yükünün tarazlaşdırılması, "kölgə iqtisadiyyatı"nın azaldılması və COVID-19 pandemiyası dövründə məşğulluq və vergi güzəştləri tədbirləri daxildir. Tətbiq olunan dəyişikliklər Avropa şirkətləri tərəfindən faydalı və effektiv hesab edilir.

Şirkətlərin vergi orqanları ilə əlaqələri diqqət və daha da təkmilləşdirmə tələb edən bir məsələ olaraq qalmaqda davam edir. Əldə olunan rəylərə görə, vergi orqanlarının sahibkarlarla qarşılıqlı əlaqələrindəki nəzarət və cəzalandırma mövqeyi yerli biznes mühiti sahəsində məmnuniyyəti əhəmiyyətli dərəcədə azaldır. Müsahibələr zamanı sahibkarlar tərəfindən vergi orqanlarının qanunsuz hərəkətləri də daxil olmaqla bir neçə spesifik məsələ qaldırılmışdır.

Azərbaycan özəl sektorunu inkişaf etdirmək və investisiyalar cəlb etmək istədiyi müddətcə ədalətli vergi yükü ilə effektiv vergi idarəçiliyi arasında bir tarazlıq yaratmaq vacibdir. 2019-cu ildə Dövlət Vergi Xidmətinin İqtisadiyyat Nazirliyinin tabeliyinə keçirilməsi ilə nəticələnən institusional islahat bu sahədə nikbinliyi bir qədər artırdı. Bu iki qurumun tək bir çətir altında birləşdirilməsi ilə fəaliyyətlərində koordinasiyasının artacağı və xidmət göstərilməsində müştəri yönümlü davranışın inkişaf etdiriləcəyi gözlənilir.

### ƏLAVƏ MƏLUMAT

2016-cı ildə "İnvestisiya Təşviqi Sənədi"ni (IPD) almış hüquqi şəxslərin və fərdi sahibkarların 7 il müddətinə əldə etdikləri mənfəətin (gəlirin) 50 faizi qədər mənfəət (gəlir) vergisindən, əmlak və torpaq vergisindən azad edilməsi, eləcə də həmin müddətə idxal olunan avadanlıqlara görə gömrük rüsumdan azad olunması kimi çoxsaylı vergi güzəştlərinə imkan verən "İnvestisiyaların Təşviqi Sənədinin Verilməsi Qaydası" Fərmanı və Vergi Məcəlləsinə dəyişikliklər təsdiq edilmişdir. "Gömrük Tarifi haqqında" Qanun IPD-lərə uyğun olan rezidentlər, idarəedici təşkilatlar və sənaye və texnoloji park rezidentləri üçün vergidən azadolma çərçivəsini müəyyənləşdirdi.

2019-cu ilin yanvarında qüvvəyə minmiş "Vergi Məcəlləsində Dəyişiklik edilməsi haqqında" Qanun rəsmi məşğulluğa stimul verərək əmək mühitini yaxşılaşdırmaq və işçilərin fərdi sahibkar kimi qeydiyyatını qadağan etmək məqsədi daşıyır. Təqdim olunan dəyişikliklər Prezident İlham Əliyevin 2018-ci ildə elan etdiyi "kölgədən işığa" şüarı ilə dövlətlə vergi ödəyiciləri arasında etibarlı münasibətlər qurmağı və "kölgə iqtisadiyyatı" ilə qeyri-formal məşğulluğu azaltmağı hədəfləyən vergi siyasətinə uyğundur.

2020-ci ilin iyun ayında Prezident COVID-19 pandemiyasından zərər çəkmiş sahibkarlara vergi güzəştlərinin tətbiq edilməsini nəzərdə tutan Vergi Məcəlləsinə dəyişiklikləri təsdiqlədi[30]. Dəyişikliklər zərər çəkmiş sahələri torpaq və əmlak vergisindən bir illik müddətə azad etdi. Bundan əlavə vergi ödəyiciləri 2020-ci ildə əldə edəcəkləri mənfəət və ya gəlirlərinin 75 faizi miqdarında, sadələşdirilmiş vergi məbləği üzrə 50 faiz vergi güzəştləri əldə etdilər. COVID-19-dan zərər çəkmiş sektorlarda icarə haqlarından tutulan verginin dərəcəsi 14 faizdən 7 faizə endirildi.

## 3.3 GÖMRÜK SİSTEMİNDƏ İSLAHATLAR

Rəqəmsal gömrük prosedurlarının effektivliyi Avropa şirkətləri tərəfindən yüksək qiymətləndirildi. Şirkətlər gömrük islahatlarının ən güclü təsirləri arasında şəffaflığın artırılması, bürokratiyanın azaldılması və brokerlərin bazardan kənarlaşdırılması kimi amilləri qeyd etdi. Bizneslər gömrük prosedurlarının sürətini əhəmiyyətli dərəcədə artıran "Yaşıl Dəhliz" in üstünlüklərindən də razıdır. Eyni zamanda, şirkətlər bütün yeni imkanların və elektron prosedurların lazımi səviyyədə işləməsini təmin etmək, yeni vasitələr barədə anlaşıqlı formada təlimatlar təqdim etmək və gömrük sistemində müştəri yönümlü yanaşmanı təkmilləşdirmək, eləcə də gömrük tariflərini daha da yaxşılaşdırmaq daxil olmaqla gömrük işinin təkmilləşdirilməsinə daha çox üstünlük verməyin zəruri olduğunu hesab edir.

Elektron vergi islahatı kimi gömrük sistemindəki elektron prosedurlar da Avropa şirkətləri tərəfindən müsbət qiymətləndirildi. Avropa müəssisələrinin aydın müsbət rəy verməyə başlamaları və bu istiqamətdə irəliləyişlərin olduğunu təsdiqləmələri bir neçə il çəkdi. Elektron sistem 2020-ci il sorğusunda digər gömrük aspektlərindən (tariflər, əməliyyatlar və s.) daha yüksək yer tutdu. Avropa şirkətlərinə görə, e-bəyannamələrin ən əhəmiyyətli faydalarından biri də əvvəllər gömrük sisteminin ayrılmaz elementi olan vasitəçilərin (brokerlərin) kənarlaşdırılmasıdır. Digər müsbət dəyişikliklər arasında bürokratiyanın, gömrük rəsmiləşdirilməsi üçün sərf olunan vaxt və xərclərin azalması, eləcə də şəffaflığın artırılması yer alır.

Gömrük prosedurlarında müddətin azalması və daha az inzibati yüklə nəticələnən irəliləyişlər xüsusilə yüksək qiymətləndirildi. Avropa şirkətləri 2019-cu ildə fəaliyyətə başlayan və ödənilməmiş vergi borclarının olmaması ilə əlaqədar xüsusi şərtlər ödənildikdə sürətli rəsmiləşdirmə prosedurunun tətbiq edildiyi və qeydiyyatda olan anbarın mövcud olduğu "Yaşıl Dəhliz" sistemindən məmnundurlar.

Eyni zamanda, gömrük prosedurlarının daha da yaxşılaşdırılması 2020-ci il sorğusuna əsasən ən çox həyata keçirilməsi gözlənilən islahatlardan biri olmuşdur (bax: Əlavə 1, S23). Avropa şirkətləri gömrük islahatlarına, xüsusilə korrupsiya risklərinin azaldılması, tariflərin yaxşılaşdırılması, onlayn platformanın lazımi səviyyədə təmin edilməsi və prosedurda qırılma və ya səhvlərin minimuma endirilməsi ilə bağlı islahatlara daha çox üstünlük verilməsini gözləyir. Gömrükdə inkişafı artırmaq üçün elektron gömrük prosedurları, üstünlükləri və istifadəsi barədə aydın və anlaşıqlı təlimatlar ilə müəssisələr arasında daha çox məlumatlılığın artırılmasına ehtiyac var. Gömrük sisteminin müştəri yönümlü inkişafı üçün elektron platformanın işi və gömrük prosedurları barədə müştəri məmnunluğuna dair sürətli rəy əldə etmək məqsədilə vasitələrin tətbiqi də vacibdir.

Ən ziddiyyətli məqam biznes tranzaksiyalarından daha çox sərnişin səyahətlərinə dair yeni gömrük tənzimləmələrində ortaya çıxır. 300 ABŞ dollarından çox olan istehlak mallarının gömrük rəsmiləşdirilməsinə dair yeni öhdəliklər səyahətlər zamanı adi istehlak malları üçün əlavə tənzimləmələrə və nəzarət prosedurlarına səbəb olduğu üçün müsahibələr zamanı bir çox şirkət tərəfindən qaldırılan məsələ oldu.

> Son illər gömrük bizneslər üçün xidmətlərini yaxşılaşdırsa da, əhali üçün bunu edə bilmədi. Yeni tənzimləmə dəyəri 300 ABŞ dollarından çox olan hər bir idxal olunan malın bəyan edilməsini nəzərdə tutur. Bu yenilik dövlət büdcəsinə əhəmiyyətli gəlir gətirə bilməz, lakin adi səyahətçilərin rahatlığına birbaşa təsir edir.
>
> Avropa şirkətinin sahibi (maşın və avadanlıqlar)

### ƏLAVƏ MƏLUMAT

2016-cı ildə təsdiqlənmiş "Gömrük sistemində islahatların davam etdirilməsi üçün əlavə tədbirlər haqqında" Sərəncama əsasən, Azərbaycan gömrük sahəsində elektron gömrük xidmətlərinin genişləndirilməsi, gömrük rəsmiləşdirilməsi üçün tələb olunan sənəd və prosedurların sayının minimuma endirilməsi və "Yaşıl Dəhliz"in yaradılmasını nəzərdə tutan islahatlara başladı. "Yaşıl Dəhliz" 2019-cu ildə fəaliyyətə başladı.

2016-cı ildən bəri "Gömrük tarifi haqqında" Qanun ilə tənzimlənən sənaye parklarında və məhəllələrində fəaliyyət göstərən investorlar üçün bir sıra endirim və gömrük güzəştləri tətbiq edildi. İdxal olunan avadanlıq və materialların gömrük rəsmiləşdirilməsinə dair xüsusi şərtlər "Ələt Azad İqtisadi Zonası haqqında" Qanuna da daxil edildi.

## 3.4 DOST MƏRKƏZLƏRİ DAXİL OLMAQLA ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ SAHƏSİNDƏ İSLAHATLAR

2020-ci ildə Avropa şirkətləri Azərbaycanda əmək və sosial müdafiə sahəsində əldə olunan son nailiyyətlərə dair məmnunluğu vurğuladı. Bura rəsmi məşğulluğun təmin edilməsi və işəgötürənlər və işçilər də daxil olmaqla, əhalinin bütün kateqoriyaları üçün “bir pəncərə” prinsipi üzrə fəaliyyət göstərən DOST mərkəzlərinin yaradılması və minimum əmək haqqının yaxşılaşdırılmasına yönəlmiş tədbirlər daxildir

Əvvəlki devalvasiyaların təsirini aradan qaldırmaq və əhalinin sosial xidmətlərə çıxışını yaxşılaşdırmaq məqsədi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əmək bazarında və sosial müdafiə sahəsində islahatlar həyata keçirilmiş və Avropa şirkətləri tərəfindən müsbət qarşılanmışdır. 2020-ci il üzrə Sorğuda yeni istifadəyə verilmiş DOST mərkəzlərinin təklif etdiyi xidmətlər Avropa şirkətlərinin gündəlik biznes əməliyyatları ilə birbaşa əlaqəli olmasa da, ən vacib 5 islahat siyahısına daxil edildi.

> Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən tətbiq olunan islahatlar haqqında xoş təəssürat var. Bunlar həm işçilər, həm də əhalinin sosial müdafiəyə ehtiyacı olan digər qrupları daxil olmaqla çox sayda əhaliyə təsir göstərir. Yaşayış səviyyəsindəki dəyişikliklər mütləq şəkildə biznes mühitinə təsir göstərir.
>
> Avropa şirkətinin direktoru

Müsahibələr zamanı bizneslər hökumətin son vaxtlar ölkədə rəsmi məşğulluğu və əhalinin sosial müdafiəsini yaxşılaşdırmaq məqsədi ilə həyata keçirdiyi tədbirlərin əhəmiyyətini vurğuladı (bax: Bölmə 3.2). 2019-cu ildə 3.9 milyard manat (2.3 milyard ABŞ dolları) büdcə ilə həyata keçirilən sosial islahatlar paketi illik dövlət büdcəsi xərclərinin təxminən 17 faizinə bərabərdir və 4 milyondan çox insanı əhatə edir. Minimum əmək haqqının, təqaüdlərin və ölkə üzrə yaşayış minimumunun iki dəfə artırılmasını nəzərdə tutan qanunvericiliyə edilən son dəyişikliklər Avropa şirkətlərinin Azərbaycanda yaşayış səviyyəsinin və istehlakçı istehlakının artırılması ilə bağlı ümidlərinin artmasına səbəb oldu. Təqdim olunan dəyişiklik Azərbaycanı MDB ölkələri arasında alıcılıq qabiliyyətinin yüksəlməsi baxımından ön sıralara gətirdi və bizneslər üçün bazardakı şəraiti yaxşılaşdırdı.

**ƏLAVƏ MƏLUMAT**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 130-dan çox xidmət təklif edir və 22 xidməti Elektron hökumət platformasına inteqrasiya edib. Nazirlik əmək, məşğulluq, sosial müdafiə, innovativ idarəetmə və s. sahələrdə şəffaflığı təmin etmək üçün xidmətləri “vahid platforma” konsepsiyası ilə təqdim etməyi planlaşdırır.

2018-ci ildən etibarən Prezident Fərmanı ilə Davamlı və Operativ Sosial Təminat Agentliyi (DOST) və mərkəzləri yaradıldı.[32] DOST infrastrukturu, işəgötürənlər və işçilər arasındakı əmək münasibətlərinə dair xidmətlər daxil olmaqla, əhalinin fərqli qrupları üçün müxtəlif xidmətlər təklif edir. 2018 və 2019-cu illərdə Vergi Məcəlləsinə edilən dəyişikliklər rəsmi məşğulluğun yaxşılaşdırılmasına yönəlmişdi. 2019-cu il ərzində dövlət tərəfindən maliyyələşdirilən qurumlarda minimum əmək haqlarının artırılmasını nəzərdə tutan islahatlar paketi təqdim edildi.

## 3.5 DİGƏR İSLAHATLAR

### KOB İnkişaf Agentliyi

İqtisadiyyat Nazirliyinin tərkibində 2018-ci ilin iyun ayında KOB İnkişaf Agentliyinin (KOBİA) yaradılması Azərbaycan hökumətinin KOB sektorunu gücləndirmək məqsədini təsdiqləyən mühüm bir addım idi.[19] Agentlik publik hüquqi şəxs kimi fəaliyyət göstərir. Bu gün KOBİA regionlarda yerli KOB-lara dəstək məqsədi daşıyan “KOB Dostları”nın yaradılması da daxil olmaqla, hədəf auditoriyanın öz xidmətlərinə çıxışını təmin etmək üçün Bakıda və bölgələrdə infrastrukturunu inkişaf etdirir. 2020-ci ildə Xaçmaz bölgəsində biznes planlaması və marketinqdən tutmuş maliyyə və ixracın təşviqinədək dövlət və özəl xidmətlər üçün "bir pəncərə" platforması təqdim edən ilk KOB Evi açıldı.

KOBİA 2019-cu ildən bəri Aİ Biznes Mühiti Hesabatındakı sıralamasını bir qədər yaxşılaşdırsa da, Avropa şirkətləri üçün effektivlik baxımından sadalanan islahatlar sıralamasında ilk 5-liyə daxil olmadı. Müsahibələr zamanı Avropa biznesləri tam olaraq KOB sektoruna həsr olunmuş belə bir Agentliyin yaradılmasının vacibliyini vurğuladı, bununla yanaşı isə KOBİA-nın fəaliyyətinə dair məhdud məlumata sahib olduqlarını və əməkdaşlıq təcrübələrinin olmamasını bildirdi. Buna görə də Avropa biznes icmasının KOBİA və onun Azərbaycanda fəaliyyət göstərən xarici KOB-lar tərəfindən istifadə edilə biləcək xidmətləri barədə məlumatlılığının artırılması aktual görünür.

### İxracın şaxələndirilməsi onlayn platforması

Qeyri-neft ixracını dəstəkləmək üçün hökumət Azərbaycan istehsalı olan məhsulların vahid məlumat bazasını özündə cəmləşdirən və xarici bazarlara çıxarmağı hədəfləyən AZEXPORT.AZ onlayn ixrac portalı qurdu.[33] Bu platforma və bu günə qədər ixracı dəstəkləyən digər təşəbbüslər Avropa şirkətlərinin skeptik yanaşması ilə üzləşir. Bunun səbəbi ölkədə ixracın təşviqinə ümumilikdə bölünmüş yanaşmadır. Qeyri-neft sektorunun ümumi Azərbaycan ixracının yalnız 10%-ni təmsil etdiyini nəzərə aldıqda, aydın olur ki, xarici ticarətin şaxələndirilməsi daha güclü sistematik bir yanaşma tələb edir. Hazırda İqtisadiyyat Nazirliyi Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “İxrac Strategiyasının İnkişafında Azərbaycan Hökumətinə Dəstək” layihəsinin dəstəyi ilə Azərbaycan ixracının yaxşılaşdırılması və şaxələndirilməsi üçün əsas uzunmüddətli siyasətə çevrilməsi gözlənilən Milli İxrac Strategiyası üzərində işləyir.

### Qida Təhlükəsizliyi Agentliyi

Qida Təhlükəsizliyi Agentliyi 2017-ci ildə yaradıldı. Agentliyin yaradılması bu istiqamətdə pozitiv rəy verən Avropa şirkətləri tərəfindən müsbət qarşılandı. Agentlik idxal və ixrac fəaliyyəti ilə bağlı qida təhlükəsizliyi standartlarının hüquqi tənzimlənməsi, riskin qiymətləndirilməsi, qida məhsullarının və qablaşdırma materiallarının rəsmi qeydiyyatı, ixrac olunan qida məhsullarına qida təhlükəsizliyi sertifikatlarının verilməsi, qida təhlükəsizliyi üzərində dövlət nəzarəti, qida istehsalı, tədarükü, qablaşdırması, daşınması, ticarəti daxil olmaqla qida təchizatı zəncirinin bütün mərhələlərində qida məhsulları istehlakçılarının hüquqlarının qorunması, qida məhsullarının ketrinq və xidmət sektorunda istifadəsi, utilizasiyası, məhv edilməsi, eləcə də yuxarıda qeyd olunan sahələrdə dövlət siyasətinin və tənzimləmələrinin tətbiqi xidmətlərini həyata keçirir.[34]

### Miqrasiya Məcəlləsinə və viza prosedurlarına edilən dəyişikliklər

Əvvəlki illərlə müqayisədə bəzi şirkətlər üçün iş icazələri hələ də problem olaraq qalır. Bir neçə il əvvəl ASAN “bir pəncərə” sistemi ilə iş icazələri ilə əlaqəli xidmətlər təqdim etdi. Bu prosedur bizneslər üçün daha əlverişli şərait yaratsa da, problemi tam həll etmədi. Hazırda Azərbaycanda hər ölkədən gələn kadrlar üçün bir kvota var, lakin il ərzində qalan kvotalar haqqında son məlumatlara çıxış yoxdur ki, bu da iş icazələrinin alınmasının proqnozlaşdırılmasını mümkünsüz edərək kadr rotasiyasını planlaşdırmağı çətinləşdirir. Məlumat çatışmazlığı xüsusən ilin sonunda iş icazələrinin gözlənilmədən imtinasına səbəb olur. Qalan kvotalar haqqında ən son məlumatlara çıxışın təmin edilməsi bu məsələnin həlli üçün bir addım olacaq və Avropa şirkətlərinə kadr rotasiyasını effektiv şəkildə planlaşdırmağa imkan verəcək və bununla bağlı prosedurları daha da şəffaflaşdıracaq.

Kvotalarla bağlı texniki problemlərə baxmayaraq, Avropa şirkətləri müsahibələr zamanı açıq və müştəri yönümlü yanaşma nümayiş etdirən Dövlət Miqrasiya Xidmətinin fəaliyyəti barədə müsbət rəy bildirdilər. Xidmət 2007-ci ildə yaradılıb[35] və bu illər ərzində elektron xidmətlərin tətbiqi və sahibkarlarla müntəzəm görüşlər də daxil olmaqla öz dəstəyi barədə müsbət rəylər almışdır.

### Lisenziyalar və icazələrə dair tənzimləmələrin təkmilləşdirilməsi

2015-ci ildə lisenziyalara və icazələrə dair əsaslı dəyişikliklər tənzimləmə mühitini əhəmiyyətli dərəcədə yaxşılaşdırdı:

- Tələb olunan icazələrin sayı 4 dəfə azalaraq 330-dan 86-ya endi;
- Lisenziyalı fəaliyyət növləri 59-dan 37-yə endirildi;
- Lisenziya verən dövlət orqanlarının sayı 23-dən 4-ə endirildi;
- Lisenziyanın verilmə müddəti 15 gündən 10 iş gününə endirildi.
- ASAN mərkəzləri vasitəsi ilə müvafiq sənədləri əldə etmək imkanı.

2015-ci ildən sonra daha çox liberallaşma, əsasən, rəqəmsallaşma və prosedurların sürətinin və şəffaflığının artırılmasına yönəldi. Prosedur və qaydalarla bağlı bizneslər arasında məlumatlılığı artırmaq üçün ayrıca tədbirlər görüldü.

### Azərbaycanın ÜTT-yə qoşulma prosesinin tamamlanması

2020-ci il ərzində Azərbaycan hökuməti ÜTT-yə üzvlük danışıqları ilə bağlı fəaliyyətini davam etdirdi. İqtisadiyyat Nazirliyi və digər dövlət qurumları ÜTT Katibliyi və Üzvləri ilə üzvlüyə dair məsələlərdə mütəmadi əlaqə qurdu. Ticarətlə əlaqəli qanunvericilik və institusional islahatlar da daxil olmaqla qərar qəbuletmə proseslərinin izlənilməsinə davam edildi. Bu səylərə nümunə olaraq, digərləri ilə yanaşı, Ticarətin Asanlaşdırılması üzrə Milli Komitənin yaradılması istiqamətində aparılan işlər, “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi”nin təsdiq edilməsi və 2020-ci ilin martında qüvvəyə minən “Texniki Tənzimləmə haqqında” yeni Qanun daxildir. Rəqabətə gəlincə, Rəqabət Məcəlləsinin yeni versiyası hazırlanır. Bu inkişaflar Azərbaycandakı institusional və hüquqi bazanı ÜTT-yə daxil olma tələblərinə daha da uyğunlaşdırır. Hökumətin səylərini dəstəkləmək üçün Aİ 2020-2021-ci illər ərzində texniki yardım göstərəcək “ÜTT-yə üzvlük danışıqları və ticarətlə əlaqəli digər tədbirlərlə bağlı Azərbaycan hökumətinin potensialının gücləndirilməsi” adlı layihəyə başladı.[*]

* www.wto.az



# 4 DAHA DA TƏKMİLLƏŞDİRMƏK ÜÇÜN PRİORİTETLƏR

2020-ci ildə müsbət nəticələrə gətirib çıxaran bir sıra məqamlar olsa da, məsələn, 3-cü fəsildə (3.2, 3.3 bölmələr) təsvir edilmiş vergi və gömrüklə bağlı islahatlar, digər aspektlər hələ də Avropa şirkətləri tərəfindən inkişaf etmiş olaraq qiymətləndirilmir.

Əlavə islahatların aparılmalı olduğu digər prioritet istiqamətlər arasında (Əlavə 1, S22) məhkəmə sistemi (bölmə 4.1), maliyyə sektorları və maliyyəyə çıxış (bölmə 4.2) və peşə təhsili və təlimi (PTT) (bölmə 4.5) var. Bu istiqamətlərdə irəliləyişlərin olmaması müsahibələr zamanı təsdiq edildi. Əlavə olaraq, 2020-ci ildəki sorğuda bu göstəricilər ən aşağı qiymətləndirildi: "qanunun aliliyi" 18 yerdən 13-cü, "maliyyəyə çıxış" 14-cü, "PTT-nin keyfiyyəti" 17-ci yerdə qərarlaşdı (Əlavə 1, S23). Pandemiya zamanı distant iş rejiminin tətbiqi ilə əlaqədar bu il rəqəmsallaşma çox vacib əhəmiyyətə malik oldu və Avropa biznesləri tərəfindən daha çox prioritetləşməyə ehtiyac olan istiqamət olaraq təsdiq edildi (bölmə 4.3). Müsahibələrin nəticələri Azərbaycanda irəliləyiş əldə edilməyən digər bir prioritet sahə kimi KOB-lar üçün "yaşıl" inkişaf olduğunu vurğulayır. (bax: bölmə 4.4).

**ŞƏKİL 25.** Azərbaycanda biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması üçün prioritet islahatlar




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

## 4.1 ŞƏFFAF MƏHKƏMƏ SİSTEMİ VƏ EFFEKTİV MƏHKƏMƏLƏR

2020-ci ildə məhkəmə sistemində daha çox islahatların aparılması bütün respondentlərin yarısından çoxu tərəfindən prioritet olaraq seçildi. Son bir neçə ildə hökumət tərəfindən bu istiqamətdə bir neçə addım atılsa da, bizneslər hələ də bu baxımdan xüsusi bir irəliləyiş hiss etmir. Yeni yaradılmış kommersiya məhkəmələrinin səmərəli işini təmin etmək və icra mexanizmlərini və institutlarını təkmilləşdirmək üçün əlavə tədbirlərə ehtiyac var. Ədliyyə Nazirliyində və məhkəmə qurumlarında islahat və şəffaflıq çatışmazlığı mövcuddur. Avropa şirkətləri Nazirliyin nəzarəti altında fəaliyyət göstərən qurumlarda inzibati yükün və bürokratiyanın azaldılmasını gözləyir.

Qanunun aliliyi və məhkəmə sisteminin şəffaflığı hər zaman investisiya qərarları üçün həlledici amillər olmuşdur. Sabit, şəffaf və müstəqil leqal mühit investorların inamını gücləndirəcək və yerli bazarı Avropa biznesləri üçün daha cəlbedici edəcəkdir.

> Bir ölkədə qanunun aliliyi təmin edilən kimi qalan məsələlərdə bizneslər həll yolunu tapacaq.
>
> Aİ şirkətinin direktoru

2020-ci ildə keçirilmiş sorğunun nəticələri təsdiqlədi ki, hüquq sisteminin şəffaflığı, effektiv müqavilə icrası və kommersiya mübahisələrinin qərəzsiz idarə olunmasını təmin etmək Azərbaycanda yaxşılaşdırılması ən çox gözlənilən aspektlər olaraq qalır. Bu istiqamətlərdə islahat sorğuda iştirak edən Avropa şirkətlərinin yarısından çoxu tərəfindən vacib hesab edildi (bax: Əlavə 1, S22). Mövcud "qanunun aliliyi" göstəricisi orta göstəricilərdən xeyli aşağıda qiymətləndirildi (bax: Əlavə 1, S23). Əlavə olaraq, korrupsiya hələ də biznes mühitinə mənfi təsir göstərən amillər arasında qalmaqdadır. Müsahibələr zamanı aydın oldu ki, Avropa şirkətləri ən yüksək korrupsiya risklərini hələ də islahatlar aparılmamış məhkəmə prosedurlarında və səlahiyyət dairələrində görür.

Müsahibələr zamanı Aİ şirkətləri ixtisaslaşmış Kommersiya Məhkəmələrinin yaradılmasını müsbət dəyərləndirdi. Ancaq onların fikrincə, bu xüsusi institutların səmərəli fəaliyyət göstərməsini təmin etmək üçün əlavə addımlar atılmalıdır. İlkin prioritet isə biznes əməliyyatları ilə bağlı məsələlərdə hakimlərin ixtisaslarının artırılması və iş yüklərinin tənzimlənməsinə verilməlidir. Digər vacib addım məhkəmələrin şəffaflığını artıracaq və prosedurları sürətləndirəcək bürokratiyanın azaldılması və məhkəmələrdə elektron sənəd axınının effektiv təşkil edilməsi olmalıdır.

Məhkəmələr yaxın gələcəkdəki irəliləyişlərlə bağlı ümid versə də, icra problem olaraq qalır. İcra Baş İdarəsi Avropa şirkətləri tərəfindən 2020-ci il sorğusunda qeyri-effektiv və qeyri-şəffaf hesab edildi. Əlavə olaraq, məhkəmələrin qərarlarını icra etmək üçün alternativ mexanizmlərdə çatışmazlıqların olduğu görünür. Avropa şirkətləri İcra Baş İdarəsinin yenidən fəaliyyətinin təşkilinə və ən yaxşı beynəlxalq təcrübələrə uyğun olaraq alternativ icra mexanizmlərinin tətbiqinə ehtiyac olduğuna inanır.

> Azərbaycanda məhkəmə qərarının icrası məhkəməni qazanmaqdan daha çətindir. İcra mexanizmləri çatışmır, buna görə də bir şirkətin məhkəmə qərarını könüllü şəkildə icra etməsini gözləyirik. İcra məmurlarının ağır iş yükü məhkəmə qərarlarının icrası üçün əlavə bir maneə yaradır.
>
> Hüquqi konsaltinq şirkətinin partnyoru

Avropa şirkətləri ədliyyə sisteminin təkmilləşdirilməsinin hər bir ölkə üçün uzunmüddətli bir proses olduğunu vurğulayır. İnfrastruktur və mexanizmlər qurulub fəaliyyətə başladıqdan sonra məhkəmə sisteminin şəffaf, qərəzsiz və effektiv beynəlxalq nüfuz qazanması üçün əlavə vaxt lazımdır. Yerli məhkəmə sistemi özünün təkmilləşdirilmiş mühakimə və icra mexanizmlərini qurmaqla yanaşı, bizneslərə mübahisələrə xarici məhkəmələrdə baxmaq hüququnun tanınması vacibdir. Azərbaycanda belə bir platformanın yaxşı bir nümunəsi öz müstəqil məhkəmələri ilə ayrıca azad bir bölgə olan Ələt Azad İqtisadi Zonasıdır[17]. Bu gün bəzi **Avropa şirkətləri bu məhkəmələrə çıxış əldə etmək üçün qeydiyyatını Ələtə keçirir**. Bu, müəssisələrin şəffaf və qərəzsiz məhkəmə prosedurlarına olan yüksək tələbini təsdiqləyir.

Azərbaycanda Biznes Ombudsmanı Aparatı hələ də qurulmayıb. Buna baxmayaraq, yerli Apellyasiya Şuraları Avropa şirkətləri tərəfindən kifayət qədər effektiv alternativ qurum kimi dəyərləndirilir. Şuralar 2016-cı ildən bəri icra orqanları daxilində fəaliyyət göstərir və dövlət orqanları tərəfindən verilmiş qərarlara qarşı iddialara baxır. Alınan rəylərə görə, Apellyasiya Şuraları işləri məhkəmələrə aparmadan mübahisələri həll etmək üçün effektiv bir forum kimi təsdiq olunmuş reputasiya yaratdı. 2019-cu ilin iyun ayında Azərbaycanda keçmiş Vergilər Nazirliyinin tərkibində yeni Vergi Ombudsmanı ofisi yaradıldı və hazırda İqtisadiyyat Nazirliyinin tərkibindədir. Bu yeni qurumun effektivliyini qiymətləndirmək üçün isə hələ tezdir.

Avropa bizneslərinə görə, Ədliyyə Nazirliyində hələ də bir islahat yoxdur. Nazirlik və onun tabeliyindəki qurumlar elektron prosedurların məhdud istifadəsi və müştəri yönümlü yanaşmanın olmadığı bürokratik qurumlar olaraq qalır. Bu, Avropa biznes icmasının fikrində bütün sistemin hələ də köhnə üsulla idarə edildiyi, şəffaflığın olmadığı və biznes dünyasının ehtiyaclarına yaxşı cavab verməyən bir sistem olduğu təəssüratını yaradır. Buna nümunə kimi 2015-ci ildən bəri bazarda geniş şəkildə iştirak etməyə başlayan özəl notariuslar göstərilə bilər. Bu notariusların xüsusi statusa və daha yaxşı xidmət yönümlü yanaşmaya sahib olmasına baxmayaraq, bizneslər üçün həddindən artıq inzibati yükə səbəb olan Nazirliyin müəyyən etdiyi eyni qayda və prosedurları tətbiq edir. Başqa bir nümunə iflas prosedurlarına aiddir. Mürəkkəbliyinə görə bir çox şirkət iflas prosesi aparmaq əvəzinə fəaliyyətlərini dondurmağa üstünlük verir. Nəticədə, bu, ölkədə fəaliyyət göstərən qurumların sayı baxımından ciddi statistik təhriflərə səbəb olur.

**ƏLAVƏ MƏLUMAT**

Məhkəmələr və mübahisələrin həlli ilə bağlı son əhəmiyyətli islahat 2019-cu ildə Prezidentin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı oldu. Bu islahat xüsusi məhkəmələrin yaradılması, məhkəmə qərarlarının icrası, habelə mediasiya və arbitraj təcrübələrini inkişaf etdirmək üçün imkanları təmin etmək daxil olmaqla ədalət mexanizmlərinin effektivliyini artırmaq məqsədi daşıyır.[36] Elə həmin il mübahisələrin alternativ həlli üçün bir çərçivə qurmaq məqsədilə "Mediasiya (Vasitəçilik) haqqında" qanun qəbul edildi.

## 4.2 STABİL MALİYYƏ SEKTORLARI VƏ MALİYYƏYƏ DAHA YAXŞI ÇIXIŞ

Maliyyə sektorunun dayanıqlılığı 2015-2016-cı illərdəki böhrandan sonra artdı. Respondentlərin 40% -dən çoxu maliyyə sektorunu daha da yaxşılaşdırmaq üçün prioritet olaraq seçdi ki, bu da onu 2020-ci ildə ən çox gözlənilən 3-cü islahata çevirdi. Bizneslər sadalanan aspektlərlə bağlı inkişaf gözləyir i) bank sektorunun dayanıqlılığının təmin edilməsi; ii) maliyyəyə çıxışın asanlaşdırılması / biznes üçün daha ucuz kreditlərin verilməsi, iii) yerli bankların beynəlxalq əlaqələrinin yaxşılaşdırılması və iv) rəqabətqabiliyyətli bank xidmətlərinin mövcudluğu.

Son onilliklər ərzində Azərbaycanın bank sektoru iki böhrana məruz qaldı: 2008-ci ildəki qlobal maliyyə böhranı və 2015-2016-cı illərdə dünya neft qiymətləri ilə bağlı böhran. Son qarışıqlıqdan sonra hökumət tərəfindən son illər ərzində bir sıra qlobal reytinqlərdə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması və beynəlxalq tərəfdaşlar arasında ölkəyə inamın artması ilə nəticələnən sektorun sabitləşməsi və gücləndirilməsi üçün bir neçə addım atıldı.

Ümumilikdə, maliyyə sektoru, xüsusilə banklar canlanmağa başladı və müsbət dinamika nümayiş etdirdi. Bu gün yerli bankların kifayət qədər kapitallaşması və likvidliyi sektorun güclü tərəfləri arasındadır. Depozit dollarlaşması (2019-cu ilin sonunda 61%) və kredit dollarlaşması (35%) səviyyəsi 2015-ci il böhranından bəri azaldı, lakin 2014-cü ildən əvvəlki səviyyələrin üstündə qaldı və qeyri-sabit devalvasiya vəziyyətində təsirini göstərə bilər. "Fitch"-in Bank Sistemi İndikatorunda (BSI) Azərbaycan bankları 2020-ci ilin iyul ayında "B" dərəcəsi ilə qiymətləndirildi. Azərbaycan Beynəlxalq Bankı (ABB) 2017-ci ildə borcun restrukturizasiyasından sonra böyük kapital qoyuluşları və aktivlərin keyfiyyətinin artırılması ilə mənfəətliliyə qayıtdı. ABB-nin 2020-ci ilin iyun ayı etibarilə 0,7 milyard ABŞ dolları (2017: 1,9 milyard ABŞ dolları) həcmində açıq valyuta mövqeyi qalmaqdadır.[37]

2020-ci ildə qlobal pandemiya, neft qiymətlərində dalğalanma, Dağlıq Qarabağ və ətrafında hərbi əməliyyatların aktivləşməsindən qaynaqlanan ÜDM və iqtisadiyyatın daralması ilə əlaqədar olaraq maliyyə sektorunda yeni problemlər meydana çıxdı. Bu, sektor üçün bir çoxunun dünya bank sənayesi ilə əlaqəli olduğu yeni təhdidlərin və mənfi tendensiyaların yaranmasına səbəb oldu. İnflyasiya 2019-cu ilə nisbətən 2020-ci ildə

orta dərəcədə böyüdü. Mərkəzi Banka əsasən, 2020-ci ilin avqust ayında inflyasiya 2.8% səviyyəsində qaldı və ilin sonuna qədər potensial olaraq 3.0-3.2% səviyyəsinə qədər böyüyə bilər.[38] 2020-ci ilin yazındakı neft qiymətləri ilə əlaqədar qısamüddətli böhran və hərbi münaqişə zamanı devalvasiya ehtimalı artsa da, sonra azaldı. Hökumət bazar qarışıqlığının qarşısını almaq məqsədilə yerli valyuta və məzənnəni sabit saxlamaq üçün biznes sektorunu sakitləşdirən bir neçə açıqlama verdi.

Qlobal pandemiyanın özlüyündə bank əməliyyatları üzərində məhdud təsir göstərməsinə baxmayaraq, karantin rejiminin iqtisadiyyata mənfi təsiri və beynəlxalq ticarət və investisiya fəaliyyətinin ləngiməsi səbəbindən Azərbaycandakı bankların gəlirləri mənfi təsirə məruz qaldı. Müsahibələr zamanı verilən məlumata görə, BMİ-lər və Azərbaycanda mövcud olan investisiya bankları bu dövrdə çətinliklərin öhdəsindən yaxşı gəlsələr də, yerli banklar daha güclü təsirə məruz qaldı və mənfi təsirin pandemiya bitənə qədər davam edəcəyi gözlənilir. Səbəblərdən biri yerli bankların fərdi şəxslərin əmək haqlarından və karantin məhdudlaşdırma tədbirlərindən ən çox təsirlənən kiçik müəssisələrin mənfəətindən asılı olan istehlak kredit portfoliosudur. Yerli bankların verdiyi məlumata görə, onlar dövlət dəstəyi proqramları hesabına portfolionu yeniləməyə və borclarını qismən yenidən maliyyələşdirməyə çalışırlar. Fərdi müştərilərə gəldikdə, banklar akkreditivlər üzrə portfolionu restrukturizasiya edirlər.

2020-ci ildə daha dörd bankın lisenziyası ləğv edildi – "Atabank" ASC, "AG Bank" ASC, "NBCBank" ASC və "Amrah Bank" ASC.[39] Bununla da ölkədəki bankların sayı 2015-ci ildə 45-dən 2020-ci ildə 26-ya endi. Bankların bağlanmasının son dalğası səbəbindən bank sektorunun problemli kreditləri (TSK) səviyyəsi orta səviyyədədir və 2019-cu ildəki 8,3%-dən 2020-ci ilin may ayında 7.3%-ə endi.[40] Müsahibələr zamanı Avropa müəssisələri bankların davam edən "təbii seçmələr"i ilə bağlı nikbin idilər; Onların fikrincə, bununla zəif banklar ləğv olunduqca və digər banklar gücləndikcə daha sağlam bir iqtisadiyyat və daha güclü bir bank sektoru qurula bilər.

Azərbaycanda bank sektorunu tənzimləyən hərtərəfli qanunvericilik mövcuddur, lakin ölkədə hələ də məhdud sayda beynəlxalq və xarici bank var. Bu, beynəlxalq əlaqənin olmamasına və bank sektorunun ləng inkişafına, habelə maliyyə mənbələrinin aşağı dərəcədə şaxələndirilməsinə gətirib çıxarır. Maliyyə qurumlarının milli mənbələrdən və xüsusilə dövlət maliyyəsindən əhəmiyyətli dərəcədə asılılığı onların dayanıqlılığı üçün bir təhlükə kimi qəbul edilə bilər. Buna baxmayaraq, bu, 2020-ci ildə Dağlıq Qarabağ və ətrafında hərbi əməliyyatlar zamanı sektorun sabitliyini təmin etdi və xarici maliyyələşdirmə imkanlarının daralması yolu ilə sektora zərər vurulmasının qarşısını aldı.

> ”
> Bank sektoru həmişə real iqtisadiyyatın bir əksidir. Dövlət iqtisadiyyatın əsas borc verənlərindən biri olaraq qalır və bu da bank sektorunun müstəqilliyi və dayanıqlılığı üçün bir maneədir.
>
> Maliyyə qurumunun direktoru

2020-ci ildə Avropa şirkətləri tərəfindən bank prosedurları ilə əlaqəli əhəmiyyətli dərəcədə bürokratiya, bank vasitəçiliyinin yüksək dəyəri, xüsusən də xarici valyutanın mübadiləsi ilə əlaqədar bir sıra texniki problemlər bildirildi. Günümüzdə Azərbaycanla beynəlxalq ticarət əməliyyatlarının aparılmasında əngəllərdən biri beynəlxalq ticarət üçün bank vasitəçiliyi xidmətlərinin olmamasıdır. Faktorinq və forfeytinq xidmətləri göstərilsə də, maliyyə idarəetməsi üçün artan çevikliyi təklif edən və ticarət tərəflərinin risklərini azaldan sənədli pul köçürmələri üzrə xidmətlər hələ də mövcud deyil. Hazırda Azərbaycandakı maraqlı tərəflərlə xarici ticarət əməliyyatları idxal edildiyi təqdirdə tam əvvəlcədən ödəmə şərtiylə, ixrac edildikdə isə "alındıqdan sonra ödəniş" prinsipi ilə aparılır və hər iki yanaşma da Azərbaycanda yerləşən tərəflər üçün risk yaradır.

> ”
> Standart beynəlxalq ticarət prosedurlarının olmaması ilə Azərbaycandakı şirkətlər bütün riskləri öz üzərinə götürür. Yerli bankların Avropa bankları ilə təcrübə mübadiləsi etmələri və bu xidmətləri Azərbaycanda təmin etməyə başlamaları məqsədi daşıyan layihə təşəbbüsünə ehtiyac var. Əlavə olaraq, bu, yerli bankların vasitəçiliklə əlavə pul qazanması üçün yaxşı bir fürsətdir.
>
> Azərbaycanda Aİ şirkətinin sahibi



Azərbaycanda maliyyəyə çıxış, əsasən biznes kreditləri üçün yüksək faiz dərəcəsi olduğundan problemli olaraq qalır. 2016-cı ildən bəri Azərbaycan Mərkəzi Bankının uçot dərəcəsi 8 ilə 10% arasında dəyişdi[40], ancaq kredit dərəcəsi nisbəti daha yüksək, 16 ilə 20% arasında, hətta bəzi banklarda 30%-ə çatdı[41]. Bahalı maliyyələr KOB-ların kommersiya layihələri üçün geri ödəmə müddətini uzadır və əksər hallarda layihələrin ləğvi ilə nəticələnir.

Bankların bəhs etdikləri mövcud bahalı kreditlərin səbəblərindən biri də Azərbaycan banklarının daha çox fərdi və korporativ depozitlərdən ibarət olan bahalı vəsaitləridir. Yüksək faiz dərəcələrinin digər bir səbəbi xüsusilə mikro, kiçik müəssisələr və startaplar üçün yeni kredit vermə layihələri başlatmaq üçün yerli banklar tərəfindən tətbiq olunan cari risk qiymətləndirmə modelidir.

Bu yaxınlarda hökumət İqtisadiyyat Nazirliyinin tərkibində Sahibkarlığın İnkişafı Fondunun[42] fəaliyyətində dəyişiklik edərək sahibkarlara daha ucuz kreditlər vermək üçün tədbir gördü. Fondun nizamnamə kapitalı 1,9 milyard manat (1,1 milyard ABŞ dolları) səviyyəsində müəyyən edildi və kreditlər 3 il müddətinə 5 000 manatdan (2.933 ABŞ dolları) 50 000 manata (29.326 ABŞ dolları) qədər; 5 il müddətinə 50.000 manatdan 1 milyon manata (586.510 ABŞ dolları); və 10 il müddətinə 1 milyondan 10 milyona (5.87 milyon ABŞ dolları) qədər verilir. İllik faiz dərəcəsi banklar üçün 1%-dir, bu da son istehlakçılar üçün orta hesabla maksimum 5%-ə bərabərdir.

Fond kənd təsərrüfatı, qida sənayesi, dayanıqlı fermerlik, turizm, yüngül sənaye və iqtisadiyyatın digər prioritet qeyri-neft sektorunda olan layihələrə üstünlük verir. Fondun hədəf qrupu yerli startap və KOB-lardır, layihələri Fondun prioritet istiqamətlərinə uyğun olduğu təqdirdə xarici şirkətlər də maliyyələşmə üçün müraciət etmək hüququna malikdir. Fond effektiv bir vasitə olmasına baxmayaraq, bazar iqtisadiyyatının tələb etdiyi kreditlərin həcmi baxımından bankları əvəz edə bilmir, bu səbəbdən də Azərbaycan bankları vasitəsi ilə maliyyəyə çıxışı genişləndirmək mühüm vacibliyini saxlayır.

## ƏLAVƏ MƏLUMAT

2015–2016 böhranından sonra bir neçə qurum – Maliyyə Bazarlarına Nəzarət Palatası (FIMSA, 2016), Azərbaycan Kredit Bürosu (2018) və zəmanətli ipoteka kreditinə çıxışın genişləndirilməsi nəticəsində İpoteka və Kredit Zəmanət Fondu (2016) yaradılmışdır. FIMSA bank tənzimləmələrinin yenilənməsi, riskin idarə olunması və ümumi monitorinq çərçivəsinin inkişaf etdirilməsində irəliləyiş əldə etmişdir. 2019–cu ilin noyabrında bütün səlahiyyətləri Azərbaycan Mərkəzi Bankına verilərək ləğv edilmişdir.

2018-ci ilin fevral ayında fiziki şəxslərin milli valyutanın 2015-ci ildəki devalvasiyasından sonra yaranan problemli kreditlərinin həlli ilə bağlı təsdiq edilən Prezident Fərmanı sektorda aktivlərin keyfiyyətinin yaxşılaşdırılmasına kömək etmişdir. Fərmana əsasən devalvasiya nəticəsində artan, fiziki şəxslərə 10,000 ABŞ dollarınadək verilmiş kreditlər üzrə yaranmış kəsrlər hökumət tərəfindən kompensasiya ediləcəkdir.[43]

Hökumət COVID-19 pandemiyasının və beynəlxalq neft bazarlarındakı dəyişkənliyin iqtisadiyyata mənfi təsirlərini azaltmaq üçün 2020-ci ildə bir çox vasitə təqdim etdi. Hökumət "Koronavirus (COVID-19) pandemiyasından təsirlənən ərazilərdə fəaliyyət göstərən müəssisələrin mövcud kredit portfelinə faiz dərəcələrinin subsidiyalaşdırılması Qaydaları"na uyğun olaraq KOB-ların borclarına görə faizlər üçün subsidiyalar verir.[44] Azərbaycan Mərkəzi Bankı davam edən COVID-19 pandemiyası zamanı banklara, bank olmayan kredit təşkilatlarına, sığorta şirkətlərinə, investisiya şirkətlərinə və bank borcalanlarına dəstək məqsədi ilə təklif etdiyi tənzimləyici tədbirlər planını açıqladı. Müvəqqəti tənzimləyici tədbirlərə kapital tələblərinin 100 bps azadılması, kredit tətilləri və kredit restrukturizasiyası daxildir və tədbirlər 1 yanvar 2021-ci ilədək davam edəcək. Hazırda bu tədbirlərin 1 yanvar 2022-ci ilə qədər uzadılması düşünülür.[45]

Bundan əlavə, əmanətlərin tam sığortalanmasının vaxtı uzadıldı. Bu mexanizm ilk dəfə makro-maliyyə dəyişkənliyi və iqtisadi tənəzzül dövründə maliyyə sektorunun stabilliyini qorumaq və inamı artırmaq üçün 2016-cı ildə tətbiq edildi. 2020-ci ilin mart ayında pandemiya dövründə banklara olan inamı gücləndirmək məqsədilə əmanətlərin sığortalanması 9 ay uzadıldı. Bu mexanizm əmanətlərin həcmi və valyutasından asılı olmayaraq bütün depozitləri əhatə edir.[46]

## 4.3 RƏQƏMSALLAŞMANIN ARTIRILMASI

> Rəqəmsallaşmanın artırılması Azərbaycan üçün iki perspektivdən vacibdir i) yerli islahatların həyata keçirilməsi, iqtisadiyyatın şəffaflığının artırılması və bürokratiyanın azaldılması üçün effektiv bir yol kimi; ii) KOB sektorunu sabitləşdirmək və pandemiyanın mənfi təsirlərini minimuma endirmək üçün bir vasitə kimi. Xüsusilə regional səviyyədə və kənd yerlərində internetin yüksək sürəti və keyfiyyəti ilə kifayət qədər adekvat İT infrastrukturunun təmin edilməsinə ehtiyac var. Əlavə olaraq, yeni onlayn prosedurlar və rəqəmsallaşmanın üstünlükləri barədə müəssisələrin məlumatlandırılması vacibdir. Əhalinin kompüter savadlılığının artırılması və dövlət orqanları arasında rəqəmsal transformasiyaya qarşı müqavimətin azaldılması üçün əlavə tədbirlər görülməlidir.

Karantin məhdudiyyətləri və müəssisələrin distant iş rejiminə keçməsi mövcud onlayn prosedurları və əhalinin məsafədən işləməyə hazırlıq səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırdı. Bu tendensiya Azərbaycandakı Avropa biznesləri tərəfindən yüksək qiymətləndirilərək təsdiq edildi. Daha da effektiv rəqəmsallaşmanı gücləndirmək üçün İKT infrastrukturuna çıxışın təmin edilməsi, eləcə də əhali arasında müvafiq bacarıqların artırılması vacibdir. 2018-ci il Dünya Bankının "Dünya Telekommunikasiya / İKT inkişafı"na dair məlumat bazasında Azərbaycan internetdən aktiv istifadə edən əhalinin payına (80% -ə qədər) görə ŞT ölkələri arasında ən yüksək sırada yer aldı.[47] 2020-ci ilin Rəqəmsal Həyat Keyfiyyəti İndeksinə görə, Azərbaycan sorğuda iştirak edən 85 ölkə arasında 40-cı yerdə qərarlaşdı. Ən yüksək qiymətləndirmə internetin əlçatanlığı (3-cü yer) göstəricisi üzrə olduğu halda, İnternetin keyfiyyəti (51), elektron idarəetmə (56), elektron infrastruktur (47) orta və aşağı qiymətləndirildi.[48]

Eyni zamanda, biznes mühiti ilə əlaqəli nəzərdə tutulan islahatları (məsələn, İKT bazarının liberallaşdırılması, rəqəmsal ödəmə sistemlərinin genişləndirilməsi) hələ uzun bir yol gözləyir. Son illər ərzində hökumət tərəfindən çox sayda tədbirlər görülsə də, 2020-ci ildə müəssisələr biznesin rəqəmsallaşdırılması üçün yerli İT infrastrukturunu hələ də qənaətbəxş səviyyədən bir qədər aşağı qiymətləndirir (Əlavə 1, S15).

Təqdim olunan cavablara görə, ən çox gözlənilən inkişaf internetin sürəti və keyfiyyəti ilə yanaşı, provayderlərin şərtləri, o cümlədən internet şəbəkəsinə qoşulma qaydaları ilə bağlıdır. (Əlavə 1, S16). Müsahibələr zamanı Avropa şirkətləri tərəfindən vurğulanan əsas narahatlıqlardan biri Bakı və digər bölgələrdə, xüsusən də kənd yerlərində internetə çıxışda ciddi fərqlərin olması ilə bağlıdır.

Avropa şirkətləri də son illərdə biznes gündəmində yer alan və Azərbaycandakı şirkətlər üçün yeni imkanlar təmin edəcək beynəlxalq elekton ticarət platformaları və onlayn ödəmə sistemləri ilə Azərbaycanın daha yaxşı əlaqələndirilməsini və bu istiqamətdə liberallaşma gözləyir. 2021-ci ildə Azərbaycanın EU4Digital regional təşəbbüsü (2019-2022) çərçivəsində həyata keçirilən "Rəqəmsal Bazarların Harmonizasiyası" proqramında iştirakı ilə bu istiqamətdə bir qədər irəliləyişin əldə ediləcəyi gözlənilir. Proqram Aİ və ŞT ölkələri arasında elektron ticarət qaydalarının uyğunlaşdırılmasını nəzərdə tutur. Azərbaycandakı bizneslər 2021-ci ildən etibarən Aİ-də elektron məhsul və xidmət bazarına qoşulmuş virtual anbarlardan yararlana biləcək. Bunun Azərbaycan ilə Aİ arasındakı elektron ticarəti asanlaşdıracağı və Azərbaycanın KOB-ları üçün Avropa bazarının əlçatanlığını artıracağı gözlənilir.[29]

Əhalinin onlayn işləməyə hazırlıq səviyyəsinə gəldikdə, bizneslər yaş və məkanın vacib amillər olaraq qaldığını təsdiqləyir. Gənc nəsillər (35-40 yaşınadək) ümumilikdə daha güclü kompüter savadına sahib olduqları və distant iş imkanlarına daha açıq olduqları halda, yaşlı nəsillər rəqəmsal fəaliyyətə uyğunlaşa bilmir. Avropa şirkətləri perspektivindən məkan işçi qüvvəsinin düşüncə tərzi və bacarıqlarını ifadə edir: kənd yerlərinin sakinləri şəhər sakinləri ilə müqayisədə onlayn işə daha aşağı səviyyədə hazırdırlar.

Karantin rejimi dövründə dövlət sektorunda rəqəmsallaşmada irəliləyişlər Avropa biznes mühitində nikbinlik yaratdı və onlayn işlə əlaqəli daha da çox yerli islahatların həyata keçirilməsinə dair gözləntiləri artırdı. Bununla yanaşı, şirkətlər məmurlar, xüsusən də yaşlı nəsil nümayəndələri arasında onlayn xidmətlərə qarşı müqavimət müşahidə etdilər. Bu, bilik və bacarıq amillərinin aşağı səviyyəsinin nəticəsi, eləcə də qərar qəbuletmə proseslərinə şəxsi təsir göstərmə cəhdlərinin saxlanılması istəyindən irəli gələ bilər.

Müsahibələrdə şirkətlər beynəlxalq təbiətlərinə görə pandemiya başlamazdan əvvəl uzaqdan işləmək üçün lazımi proqram təminatlarına və onlayn prosedurlara sahib olduqlarını vurğuladılar. Karantin rejimi onlayn işi son dərəcə intensivləşdirdi və miqyasını genişləndirdi. Digər tərəfdən, yerli tərəfdaşlar, xüsusən də bölgələrdə

**ŞƏKİL 26.** Biznesin rəqəmsallaşdırılması üçün Azərbaycanda İT infrastrukturunun keyfiyyəti




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

**ŞƏKİL 27.** Biznesin daha da yaxşı rəqəmsallaşdırılması üçün yerli İT infrastrukturu üçün lazım olan inkişaf




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

**ŞƏKİL 28.** Mövcud və distant iş rejiminə hazırlıqlı olan kadr payı




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

olanlar üçün öz fəaliyyətlərini rəqəmsallaşdırmaları daha çox vaxt tələb etdi. Bu, 2020-ci ilin yazında biznes əməliyyatlarında bəzi gecikmələrə səbəb olsa da, bir neçə ay ərzində uğurla həll edildi.

Avropa şirkətləri işçilərinin onlayn işləməyə hazırlıq səviyyəsindən narazılıq etmədilər. 2020-ci il üzrə Aİ Biznes Mühiti Sorğusuna görə, Avropa şirkətlərinin 75%-i işçilərini distant iş rejiminə keçirdi və təxminən 60%-i biznes fəaliyyətlərini rəqəmsallaşdırdı. Bəzi şirkətlər (14%) tam rəqəmsal fəaliyyətə keçdiklərini bildirdilər (Əlavə 1, S14). Avropa təşkilatlarının əksəriyyətində (60%) işçilərin çoxu distant işləməyə hazırlıqlı olub və müvafiq bacarıq və avadanlıqlara sahib olublar. İşçilərin yeni mühitə uyğunlaşmasına kömək etmək üçün daxili təlimlərin keçirilməsi 2020-ci ilin yazında bu istiqamətdə geniş tətbiq olunan bir vasitə oldu.

Azərbaycanda özəl sektorun daha da rəqəmsallaşmasına dəstək vermək üçün aşağıdakı əsas elementləri əhatə edəcək kompleks bir yanaşmaya ehtiyac var:

- Regional səviyyə və kənd yerlərinin xüsusi diqqət mərkəzində saxlanılması ilə İT infrastrukturunun keyfiyyətinin və əlçatanlığının artırılması;
- Kənd sakinləri və yuxarı yaş qruplarında olan əhali arasında kompüter savadlılığının daha da artırılması;
- Rəqəmsal transformasiya və bununla əlaqəli yeni vasitələr barədə dövlət məmurları üçün məlumatlandırma və xüsusi təlim proqramları;
- Yeni mövcud onlayn inzibati prosedurlar və vasitələr barədə biznes icması arasında maarifləndirmənin aparılması;
- Yeni inzibati onlayn prosedurlarla əlaqədar problemlərin vaxtında həll olunmasını təmin etmək məqsədilə rəylərin dərhal bildirilməsi üçün xüsusi vasitələrin tətbiqi.

2021-ci ildən etibarən İKT sahəsində sahibkarlıq ekosisteminə dəstək üzrə bələdçinin hazırlanması və yüksək texnologiyalar sahəsində çalışan startapları dəstəkləmək məqsədilə Müəssisə kapitalı fondunun yaradılmasını nəzərdə tutan EU4Digital təşəbbüsü ilə Azərbaycan KOB-larının daha da rəqəmsallaşdırılmasına dəstək veriləcəkdir. Bu, startapların mövcud olduğu bütün mərhələlərdə (inkubasiya, akselerasiya və beynəlmiləlləşmə) maliyyəyə çıxışı təmin edəcək, eyni zamanda həm startapçılar, həm də investorların biznes ideyalarının keyfiyyətini artırmaq üçün maarifləndirəcək və investisiya risklərini minimuma endirəcək.[29]

> **ƏLAVƏ MƏLUMAT**
>
> İKT inkişafına dair strateji baxış əsas üç komponent daxil olmaqla İKT sektorunun inkişafını hədəfləyir: i) idarəetmə strukturlarının təkmilləşdirilməsi və İKT-nin gücləndirilməsi; ii) biznes mühitinin məhsuldarlığının və əməliyyat səmərəliliyinin artırılması iii) dövlət və sosial mühitin rəqəmsallaşdırılması. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi İKT siyasətinin həyata keçirilməsindən və infrastrukturun inkişafından, tariflərin təsdiqlənməsindən və s. məsul mərkəzi dövlət orqanıdır.



# 4.4 BİZNES ÜÇÜN "YAŞIL" IMKANLAR

> Azərbaycan günəş və külək enerjisi, əhəmiyyətli kənd təsərrüfatı torpaqları və digər təbii sərvətləri ilə "yaşıl iqtisadiyyat"ın inkişafı üçün misilsiz potensiala malikdir. Eyni zamanda, ənənəvi enerji mənbələrinin bolluğu və yerli istehlakın güclü qiymət yönümlü olması ölkənin dayanıqlı inkişafını ləngidir. Azərbaycanda "yaşıl" KOB siyasətinə üstünlük verilməsinə ehtiyac var. Əsas komponentlərinə i) dayanıqlı layihələr üçün daha ucuz maliyyəyə çıxış, ii) "yaşıl" KOB-lar üçün vergi və gömrük güzəştləri, iii) bizneslər və əhali arasında "yaşıl" təcrübələr və dayanıqlı istehlak barədə maarifləndirmə proqramlarını daxil etməlidir.

Qlobal səviyyədə olduğu kimi, Aİ-də də "yaşıl" inkişaf sürətlə davam edir. Avropa Yaşıl Razılaşması[49] biomüxtəlifliyi bərpa edərək və çirklənməni azaldaraq, resurslardan səmərəli istifadəni artırmaq və dairəvi iqtisadiyyata keçmək üçün fəaliyyət planını təmin edir. Bu Aİ-nin 2050-ci ilə qədər karbon neytrallığına çatmasına kömək edəcəkdir. Yaşıl Razılaşma iqtisadiyyatın bütün sahələrinin yaşıllaşdırılması üçün yeni investisiyaları təşviq edir və Azərbaycanda sahibkarlar bundan istifadə edə bilsələr, ölkədə bu keçid maraqlı yeni biznes imkanları yaradacaqdır.

> Azərbaycan təbii günəş və külək enerjisinin bolluğu sayəsində alternativ enerji layihələri üçün cənnət məkandır. KOB-ların ehtiyac duyduğu tək stimul alternativ enerji üçün kredit faizinin 10%-dən aşağı dərəcədə təklif olunmasıdır. Vəsait mövcud olduğu müddətdə bu sektor gəlirli olacaq və müəssisələr alternativ enerji layihələrini özləri inkişaf etdirməyə başlayacaqlar.
>
> Avropa şirkətinin sahibi

**2020-ci il üzrə Aİ Biznes Mühiti Sorğusunda Avropa bizneslərindən ilk dəfə müəssisələrindəki mövcud "yaşıl" tətbiqetmələr barədə soruşuldu.** Alınan nəticələr olduqca müsbətdir. Azərbaycandakı Avropa müəssisələrinin 70%-dən çoxu ekoloji mədəniyyət prinsiplərinə uyğun fəaliyyət göstərir. Əsasən enerji səmərəliliyi (37%), tullantıların azaldılması (34%), ətraf mühitin qorunması layihələrinə investisiyalar və təkrar emal oluna bilən materialların və ya paketlərin istifadəsi üçün texnologiyaların tətbiqi istiqamətində geniş işlər görür.



**ŞƏKİL 29.** Azərbaycandakı Avropa şirkətləri arasında ekoloji məsuliyyət




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2020

Müsahibə nəticələri şirkətlərin Azərbaycanda xüsusi "yaşıl" proqram və imkanların olmaması ilə bağlı əziyyət çəkdiyini göstərdi. Ənənəvi enerji Azərbaycanda mövcud və əlçatan olduğu müddətdə "yaşıl" iqtisadi inkişafın prioritetləşdirilməsi problem olacaqdır. Hazırda mövcud neft məhsulları Azərbaycan ixracının 90%-dən çoxunu, neft və qaz sənayesi isə Azərbaycan ÜDM-nin təxminən 38%-ni təşkil edir[1].

Azərbaycan "yaşıl iqtisadiyyat"ın genişlənməsi üçün müxtəlif strateji və sektorial planlaşdırma sənədləri hazırlamışdır, lakin bu günə qədər təsirləri məhduddur. Azərbaycanda ətraf mühitin mühafizəsini yaxşılaşdırmaq və "yaşıl iqtisadiyyat"ı dəstəkləmək üçün qanunvericilik tətbiq olunmasına baxmayaraq, KOB-ların "yaşıl" inkişafını hədəf alan proqramların həyata keçirilməsinə ehtiyac var. Buraya müəyyən edilmiş Xüsusi İqtisadi Zonalarda fəaliyyət göstərən "yaşıl" müəssisələr üçün hazırda tətbiq olunan vergi və gömrük güzəştləri daxildir. Bərpa olunan enerjinin yerləşdirilməsinə gəldikdə: bərpa olunan enerji qurğuları üçün geri ödəmə müddəti nə qədər uzun olarsa, maliyyə çətinliyi səbəbindən KOB-ların bu işə başlaması da bir o qədər çətin olur. Bərpa olunan enerji layihələrini hədəf alan xüsusi kredit proqramları Azərbaycanda bu sahənin inkişafına dəstək olacaqdır.[33]

Aİ Yaşıl Razılaşması "yaşıl" müəssisələr üçün daha çox biznes imkanlarının yaradılmasını və əməliyyat xərclərini azaldan böyük resurs səmərəliliyinin mənimsənilməsini nəzərdə tutur. Ancaq bir çox müəssisə faydalardan xəbərsizdir və bunu potensial riskli bir fəaliyyət kimi qiymətləndirir. Ümumiyyətlə, KOB sektoru "yaşıl" təcrübələrin tətbiq edilməsinin iqtisadi faydaları, onları dəstəkləmək və biznes imkanlarından tam istifadə etmələrinə kömək etmək üçün hansı resursların mövcud olduğu barədə məlumata ehtiyac duyur. İqtisadiyyatı yaşıllaşdırmaq üçün vahid bir yanaşma ilə sahibkarlar və biznes inkişafı üçün inteqrasiya olunmuş dəstək bu boşluğu aradan qaldırmağa kömək edəcək və onları bu fürsətdən istifadə edərək "yaşıl iqtisadiyyat"a qoşulmağa təşviq edəcək.

Azərbaycanda dayanıqlı inkişaf üçün böyük potensiala sahib olan digər bir sahə kənd təsərrüfatıdır. Ölkədə kənd təsərrüfatına yararlı torpaqların həcmi 2,1 milyon ha əkin sahəsi daxil olmaqla 4,8 milyon hektardır. İqtisadiyyatı şaxələndirmək üçün kənd təsərrüfatının inkişafına üstünlük verilməsinə baxmayaraq, sektorun ÜDM-dəki payı ən yüksək qeyri-neft töhfəsini təmsil edərək 6% səviyyəsində qalır və ən böyük məşğulluq payını (39%) təmin edir[1]. Azərbaycanın 2020-ci ildə geri qaytarılmış ərazilərdə əhəmiyyətli su ehtiyatlarına çıxışı əldə etdiyini nəzərə alsaq, kənd təsərrüfatının gələcək illərdə də inkişafının davam edəcəyi gözlənilir.

Müsahibənin nəticələri göstərdi ki, Azərbaycanda dayanıqlı kənd təsərrüfatı üçün əsas maneələr yerli istehlak modellərinin güclü qiymət yönümlü yanaşması və orqanik məhsul istehsalının üstünlükləri və qiymətləri barədə məlumatlı olmamasıdır. Bu baxımdan dayanıqlı kənd təsərrüfatı Azərbaycanda həm KOB-lar, həm də istehlakçılar arasında maarifləndirmə və təşviq baxımından hökumətin dəstəyinə ehtiyac duyur.

2013–2017-ci illərdə Aİ-nin "Şərq Tərəfdaşlığı ölkələrində iqtisadiyyatın yaşıllaşdırılması" (EaP GREEN) təşəbbüsü ilə Azərbaycan "yaşıl iqtisadiyyat"a keçidi sürətləndirmək üçün dəstək aldı. Yeddi KOB Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal (RSDTİ) auditini keçdikdən və ətraf mühit səmərəliliyini artırdıqdan sonra təsirli nəticələr nümayiş etdirdi (Bax: Qutu 1, 2-dəki nümunələr).



Hazırda Avropa İttifaqı ŞT ölkələrində iki regional təşəbbüslə çıxış edir. 20 milyon Avro büdcəsi ilə Aİ tərəfindən maliyyələşdirilən "EU4Environment" Proqramı (2019–2022) Azərbaycanda, eləcə də digər beş ŞT ölkəsində ətraf mühitlə əlaqəli fəaliyyətləri dəstəkləyir, "yaşıl" inkişaf üçün imkanlar yaradır, ekoloji riskləri və onların təsirlərini daha yaxşı idarə etmək üçün mexanizmlər qurmağa kömək edir. Təşəbbüs OECD, UNECE, UNEP, UNIDO, Dünya Bankı tərəfindən icra edilir. UNIDO və OECD tərəfindən Azərbaycanda şirkətlərin faydalanmasına imkan verən bir sıra fəaliyyətlər həyata keçiriləcəkdir:[50]

- Ən azı 15 KOB resurs istifadəsini və ətraf mühitə təsirini azaltmaqla məhsuldarlığını artırmağa yönəlmiş fəaliyyət planlarını hazırlamaq üçün Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal (RSDTİ) yanaşmasından istifadə edərək qiymətləndiriləcək;
- Ən azı 20 KOB iki pilot bölgədə bələdiyyə orqanlarının ev sahibliyi etdiyi RSDTİ Klublarına qoşulacaq. Şirkətlər RSDTİ metodologiyasının tətbiqi və müvafiq fəaliyyət planlarının hazırlanması məqsədilə birgə təlimlər və təlimat alacaqlar;
- KOBİA KOB-ların ətraf mühit fəaliyyətlərini yaxşılaşdırmaq üçün xüsusi təlimatla təmin etmək və dəyişiklikləri (RSDTİ Klubları kimi) həyata keçirmək üçün əlavə resurslarla əlaqələndirmək məqsədilə onlayn Yaşıl Biznes Özünü Qiymətləndirmə Vasitəsinin hazırlanmasında dəstək alacaqdır. Portal 2021-ci ildə fəaliyyətə başlayacaq;
- İki seçilmiş bölgədə yerləşən sənaye müəssisələrinin əksəriyyəti Dairəvi İqtisadiyyat prinsipləri və təcrübələrini öyrənən, daha effektiv tullantıların idarə olunması və sənaye simbiozunun variantlarını müəyyənləşdirən Sənaye Tullantılarının Xəritəçəkmə pilot təlimində iştirak edəcəkdir.

8.8 milyon Avro büdcəsi olan "EU4 Climate" təşəbbüsü (2018–2022) ŞT ölkələrindəki iqlim dəyişikliyinə qarşı tədbir görməyə və az karbonlu inkişaf və iqlim dəyişikliklərinə qarşı dayanıqlı iqtisadiyyata keçməyə dəstək verir. EU4Climate UNDP tərəfindən həyata keçirilir və ölkələrə Paris Sazişinin icra edilməsinə, iqlim dəyişikliyinin vətəndaşların həyatına təsirini məhdudlaşdırmaq və onları daha güclü etmək ambisiyası ilə ölkələrin iqlim siyasətini və qanunvericiliyini təkmilləşdirməkdə dəstək verir.[51]

Azərbaycan iştirakçı ölkələrin dayanıqlı enerji siyasətlərini həyata keçirmək və kooperativ enerji sektorunun inkişafını təşviq etmək istəklərini dəstəkləmək üçün hazırlanmış "EU4Energy" regional proqramında iştirak edir. Proqram çərçivəsində Azərbaycanın iki ərazisi - İçərişəhər və Mingəçevir, yerli iqlim və enerji tədbirləri üçün dünyanın ən böyük hərəkatı olan "Bələdiyyə sədrləri razılaşması"na qatıldı. Şəhərlər 2030-cu ilə qədər karbon tullantılarını 30%-ə endirmək və hədəfə çatmaq üçün fəaliyyət planları hazırlamaqda maraqlıdır. 2020-ci ildə Azərbaycanın bir sıra digər şəhərləri də "Bələdiyyə sədrləri razılaşması"na qoşulmaqda maraqlı olduqlarını bildirdi və hazırda qoşulma prosesinin son mərhələsindədir.[58]

### ƏLAVƏ MƏLUMAT

Şərq Tərəfdaşlığı Sammiti Bəyannamələri çərçivəsində Azərbaycan hökuməti Aİ ilə tərəfdaşlığı vasitəsilə iqtisadiyyatı yaşıllaşdırmaq üçün öhdəliklər götürdü. Azərbaycanın strateji iqtisadi planlaşdırma sənədi "Azərbaycan 2020: gələcəyə baxış" özündə ekoloji narahatlıqları birləşdirərək və neft-qaz sektorunun ekoloji problemlərini qeyd edərək bunu aydın şəkildə göstərir.[52] Sənəd "ekoloji baxımdan davamlı sosial-iqtisadi inkişafa" nail olmaq hədəfi qoyur.

## 4.5 İXTİSASLI İŞÇİ QÜVVƏSİNİN MÖVCUDLUĞU

> Azərbaycanda əmək ehtiyatları ilə ixtisaslı işçi qüvvəsi arasında artan boşluq var. Son illərdə hökumət PTT sisteminin fəaliyyətini yeniləmək üçün səylər göstərir. Azərbaycandakı Avropa şirkətləri bu islahatları alqışlayır və gələcək təsirlərinə nikbin yanaşırlar. Lakin bazar tərəfindən bu islahatların təsirləri hələ də məhdud hiss edilir. Azərbaycanda PTT-nin imicinin yaxşılaşdırılması, yeni PTT infrastrukturunun genişləndirilməsi və özəl sektorla geniş tərəfdaşlığının möhkəmləndirilməsi vacibdir. Bazarda böyüyən digər bir məsələ hökumətin diqqət və müvafiq siyasət cavabına ehtiyacı olan orta səviyyəli yerli menecer çatışmazlığı oldu.

2020-ci il üzrə Aİ Biznes Mühiti Sorğusunda əmək bazarı ilə əlaqəli göstəricilər yüksək qiymətləndirilir. Təklif olunan 18 yerli göstəricidən "əməyin dəyəri" 3-cü yeri, ardından "miqrasiya siyasəti", "əmək siyasəti" (5-ci və 6-cı) müvafiq sırada qərarlaşdı (bax: Əlavə 1, S23). Eyni zamanda, Avropa şirkətləri Azərbaycanda mövcud əmək resursları ilə ixtisaslı işçilər arasında böyüyən fərqdən narahatdırlar. Vurğulamaq lazımdır ki, 2020-ci ildə ilk dəfə olaraq Aİ Biznes Mühiti Sorğusunda "işçilərin kvalifikasiyası" göstəricisi 2017–2019-cu illər üzrə əvvəlki üç buraxılışda tutduğu ən yüksək mövqedən 8-ci yerə endi.

Əmək ehtiyatları ilə ixtisaslı işçi qüvvəsi arasındakı boşluq Dünya İqtisadi Forumu tərəfindən 2020-ci ilə üzrə "Qlobal Rəqabətlilik İndeksi" ilə də təsdiqlənir. Nəşrdə Azərbaycanın "İşçi qüvvəsinin bacarıqları" göstəricisi "Əmək bazarı" göstəricisindən 27 pillə aşağıda yer aldı (müvafiq olaraq 48-ci və 21-ci yerlər). Bu, Azərbaycanda istifadə olunmamış əmək ehtiyatlarının potensialına işarə edir.[53]

Effektiv PTT əmək bazarının özəl sektorun ehtiyaclarına uyğunlaşdırılması üçün çox vacibdir. Azərbaycanda PTT islahatı 2016-cı ildən başladı və özəl sektorun tələblərinə cavab vermək üçün təhsil müddəti ərzində işəgötürənlərlə tərəfdaşlığı əhatə edən ikili təcrübəyə əsaslanır. Son illər ərzində 55 peşə məktəbi və liseyin bazasında 24 yeni təchiz olunmuş peşə təhsili mərkəzi yaradılmışdır. 2019-cu ildə Koreya Respublikasının qabaqcıl təcrübəsinə əsaslanan və sənaye işləri və innovativ texnologiyalarla işləmək üçün mütəxəssislər hazırlayacaq Bakı Dövlət Sənaye və İnnovasiya Mərkəzinin açılması vacib bir addım oldu.

Avropa şirkətləri PTT üçün yeni müəssisələrin yaradılmasını müsbət qarşılayır və davam edən islahatlar barədə ilkin müsbət təəssüratını bölüşür. Eyni zamanda, bu vaxta qədər özəl sektor tərəfindən hiss olunan təsirlər məhduddur və şirkətlər hələ də ixtisaslı işçilərə çatmaqda çətinlik çəkir. Yeni peşə təhsili məktəblərinin ilk tələbələri təhsillərini davam etdirdikləri və önümüzdəki illərdə məzun olacağı üçün Avropa şirkətlərinin yeni peşə təhsili məktəblərini bitirən kadrların keyfiyyətlərindən məmnunluğunu qiymətləndirmək hələ tezdir.

Mövcud mərhələdə PTT ilə bağlı islahatları prioritet olaraq saxlamaq, gənc nəsillər arasında nüfuzunu artırmaq, yeni

infrastruktur imkanlarını genişləndirmək və özəl sektorla geniş tərəfdaşlıqlarını möhkəmləndirmək vacibdir.

Kvalifikasiyalarla əlaqəli digər problem şirkətlərin iqtisadi inkişafında mühüm rol oynayan ixtisaslı orta səviyyəli yerli menecerlərin olmamasıdır. Əmək bazarındakı bu boşluğu aradan qaldırmaq daha çətindir, çünki bu cür mütəxəssisləri qısa müddət ərzində hazırlamaq olmur. Bu boşluğa səbəb olan amillər "beyin axını" və bazarın ehtiyaclarının ali təhsil ilə əlaqələndirilməməsidir.

Qısamüddətli perspektivdə bu məsələnin həlli üçün müəssisələr xaricdən kadrlar gətirməyə imkan verəcək miqrasiya siyasətinin daha da liberallaşdırılmasını gözləyir. Digər bir seçim ixtisaslı azərbaycanlı mütəxəssislər üçün "beyin qayıdışı" proqramlarının işə salınması ola bilər. Bunların həyata keçirilməsi daha çox xərc və vaxt tələb edən tədbirlər ola bilər. Uzunmüddətli perspektivdə isə bazarın tələbləri ilə Azərbaycanda təhsil arasında kifayət qədər koordinasiyanın təmin edilməsi, orta və ali təhsilin keyfiyyətinin artırılması vacibdir.

> Bu gün rəqəmsallaşma nəticəsində müəssisələr Əsas Performans Göstəricilərindəki (KPI) boşluqlarını daha yaxşı qiymətləndirir. Bu, bazarda ixtisaslı orta səviyyəli menecerlərə tələbi artırır və onların olmaması kiçik mütəxəssis və ya işçi çatışmazlığı ilə müqayisədə həll edilməsi daha mürəkkəb bir vəzifədir.
>
> Konsaltinq şirkətinin direktoru

Əlavə olaraq, bacarıqlı kadrların cəlb edilməsi ilə bağlı problemlərin həlli özəl sektorun əmək xərcləri ilə bağlı gözləntilərindən də asılıdır. Yerli statistikada açıqlanan aşağı əmək haqqı investorların gözləntilərini artırır və bazardakı ixtisaslı işçilərin real dəyəri ilə qeyri-mütənasiblik yaradır.

> Azərbaycanda şirkətlər üçün ən yaxşı yerli mütəxəssislərin cəlb edilməsi xərcləri statistikanın nümayiş etdirdiyi orta əmək haqqından xeyli yüksəkdir. Şirkətlər yüksək təcrübəli işçilər işə götürmək istəyirlərsə, onlara ədalətli əmək haqqı ödəməyə hazır olmalıdır.
>
> Avropa şirkətinin sahibi

Azərbaycanda iqtisadi artım üçün ixtisaslı işçilərə çıxışın əhəmiyyətini başa düşmək üçün Aİ bir sıra layihələrə dəstək verir, məsələn, regional infrastrukturun inkişafı üçün qrant verilmiş layihələr; "Gəncədə Sənaye üzrə Regional Peşə Kompetensiya Mərkəzinin yaradılmasına dəstək"; "Lənkəran iqtisadi rayounda Regional Model Peşə Təhsili Mərkəzinin yaradılması"; Qəbələ Dövlət Peşə Təhsili Mərkəzinin, Qax Peşə Məktəbinin, İsmayıllı Peşə Tədris Mərkəzində kənd təsərrüfatı və turizm sahələrində 4 ixtisas üzrə "dual" pilot PTT sisteminin yaradılması; Bərdə Peşə Liseyinin işəgötürənlər və digər maraqlı tərəflər üçün "iş və sosial partnyor" və "nümunəvi mərkəz" kimi inkişafı. Alman Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi (BMZ) ilə birlikdə Aİ həmçinin "Cənubi Qafqazda Özəl Sektorun İnkişafı və Peşə Təhsili və Təlimi proqramı" layihəsini maliyyələşdirir.

### ƏLAVƏ MƏLUMAT

Azərbaycan 2016-cı ildə "Peşə Təhsili və Təliminin inkişafına dair Strateji Yol Xəritəsi 2016–2025" qəbul edərək PTT islahatını elan etdi[54]. Elə həmin il Təhsil Nazirliyinin nəzdində Dövlət Peşə Təhsili Agentliyi[55] yaradıldı. 2018–2019-cu illər ərzində "Peşə Təhsili haqqında" Qanun[56] və "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"[57] qəbul edilmişdir.

2016–2020-ci illər arasında peşə təhsili müəssisələrinin sayı iki dəfə azaldıldı (114-dən 76-ya). 55 peşə məktəbi və liseyin bazasında 24 yeni təchiz olunmuş peşə təhsili mərkəzi yaradılmışdır. 33-ü yeni olan 168 peşə proqramı üzrə təhsil verirlər.[57] Növbəti mərhələdə peşə məktəbi, lisey, peşə hazırlığı və təhsil mərkəzləri kimi pilot peşə təhsili institutları yaradılacaqdır.







## BİZNES DEMOQRAFİYASI

**S1.** **Şirkətinizin əsas fəaliyyəti sahəsi hansıdır?** (Bir cavab)




**S2.** **Şirkətiniz müəyyən dərəcədə ekoloji mədəniyyət prinsipləri ilə işləyirmi?**
(Birdən çox cavab seçilə bilər)




# ƏLAVƏ 1
# 2020-Cİ İL ÜZRƏ Aİ BİZNES MÜHİTİ SORĞUSUNUN NƏTİCƏLƏRİ

2020-ci ilin sentyabr və oktyabr aylarında keçirilmiş bu sorğuda iştirak edən hər kəsə təşəkkür edirik. Vaxtınızı ayırıb tədqiqat işimizə töhfə verdiyinizə görə minnətdarıq. Toplanan rəylər bizə Azərbaycanda fəaliyyət göstərən Avropa şirkətləri üçün cari biznes mühitini təsvir etməyə və onun yaxşılaşdırılması üçün tövsiyələr verməyə imkan yaratdı. Bu hesabatdakı əsas nəticələri böyük məmnuniyyətlə təqdim edirik və növbəti illərdə əməkdaşlığımızın davam edəcəyinə ümid edirik..

**Hədəf qrupu:** Azərbaycanda fəaliyyət göstərən Avropa biznesləri və ya işləməkdə maraqlı olan investorlar, Aİ ilə əməkdaşlıq edən Azərbaycan şirkətləri

**Ümumi say:** ~ 400 şirkət

**Ümumi #əldə olunan cavablar:** 187

**# Nümunə üçün təsdiq edilmiş cavab sayı:** 123

**Təmsil olunan ölkə sayı:** 23

**Təmsil olunan sektor sayı:** 19

**Sorğunun keçirilmə dövrü:** 15 Sentyabr – 25 Oktyabr 2020

**S3. İşçilərin sayına görə şirkətinizin ölçüsünü qeyd edin** (Bir cavab)




**S4. Şirkətinizin strukturunu qeyd edin** (Bir cavab)




**S6. Şirkətiniz Azərbaycanda nə vaxt yaranıb?** (Bir cavab)




**S7. Şirkətinizin Azərbaycanda hüquqi statusu nədir?** (Bir cavab)




**S5. Şirkətiniz hansı ölkəni təmsil edir?** (Bir cavab)




**S8. Şirkətinizi Azərbaycanda investisiya qoymağa və ya biznes fəaliyyəti ilə məşğul olmağa təşviq edən ən vacib amillər hansılardır?** (Uyğun olan maksimum 3 cavab)



## BİZNES MÜHİTİ 2020 VƏ COVID-19-UN ŞİRKƏTLƏRƏ TƏSİRİ

**S9. Azərbaycanda 2020-ci ildəki vəziyyəti necə qiymətləndirirsiniz?** (Bir cavab)




**S10. 2020-ci ildə şirkətinizə aşağıdakı amillərin təsirini 1-10 arasında qiymətləndirin**
(1 – tamamilə təsirsiz, 5.5 – orta dərəcədə təsirli; 10 – kəskin təsirli)




**S11. Azərbaycanda hansı COVID-19 ilə bağlı məhdudlaşdırıcı tədbirlər şirkətinizə çox güclü təsir göstərdi? 1-10 arasında qiymətləndirin** (1 – tamamilə təsirsiz, 5.5 – orta dərəcədə təsirli; 10 – kəskin təsirli)




**S12. COVID-19 ilə bağlı məhdudlaşdırıcı tədbirlər şirkətinizin fəaliyyətinə təsir göstərdi / necə?**
(Bir neçə cavab seçilə bilər)




**S12.1. COVID-19 ilə bağlı məhdudlaşdırıcı tədbirlər şirkətinizə nə dərəcədə təsir etdi?** (Bir cavab)




**S13. COVID-19 şirkətinizdəki məşğulluq və iş şəraitinə təsir etdi / necə?** (Bir neçə cavab seçilə bilər)



## ŞİRKƏTLƏRİN YENİ MÜHİTƏ UYĞUNLAŞMASI

**S14. Pandemiya dövründə fəaliyyətini davam etdirmək üçün şirkətiniz tədbir gördü / hansı?**
(Bir neçə cavab seçilə bilər)




**S14.1. Şirkətinizin fəaliyyəti nə dərəcədə rəqəmsallaşdırıldı?** (Bir cavab)




**S14.2. İşçilərinizin neçə faizi müvafiq bacarıq və avadanlıqların mövcudluğu daxil olmaqla vəzifələrini uzaqdan icra edə bilir?** (Bir cavab)




**S14.3. Şirkətinizi yerli təchizatçılarla əməkdaşlıq etməkdən çəkindirən amil nədir?** (Bir cavab)




**S15. Biznesin rəqəmsallaşdırılması üçün Azərbaycanda İT infrastrukturunun keyfiyyətini qiymətləndirin**



**S16. Biznesin daha effektiv rəqəmsallaşdırılmasına kömək etmək üçün İT infrastrukturunun hansı sahələri inkişaf etdirilə bilər?** (Bir neçə cavab seçilə bilər)




**S17. Sizin perspektivinizdən COVID-19 pandemiyası dövründə Azərbaycan hökumətinin hansı biznesə dəstək tədbirləri ən effektiv oldu?** (Bir neçə cavab seçilə bilər)




**S18. Şirkətinizə dəstək olmaq üçün Azərbaycan hökuməti tərəfindən həyata keçirilə biləcək əlavə tədbirlər var?** (Bir cavab)




**S19. Karantin növbəti 3-6 ay müddətinə uzadılarsa, şirkətinizin fəaliyyəti necə olacaq?** (Bir cavab)




**S20. Növbəti bir-iki il ərzində Azərbaycanda şirkətinizin inkişafının daha çox hansı istiqamətdə olacağını ehtimal edirsiniz?** (Bir cavab)




**S20.1. Biznesiniz üçün məkan olaraq yenidən Azərbaycanı seçərdinizmi?** (Bir cavab)



## REFORMS-METER. QISA NƏZƏR

**S21. 2019-2020-ci illərdə Azərbaycan daxili islahatları həyata keçirməyə davam etdi. İslahatların biznes və investisiya mühitini yaxşılaşdırmaqda nə dərəcədə effektiv olduğunu düşünürsünüz? 1-10 arasında qiymətləndirin**
(1 - tamamilə təsirsiz, 10 - çox effektiv)




**S22. Aşağıdakı islahatlardan hansının Azərbaycanda biznes və investisiya mühitinin daha da inkişaf etdirilməsi üçün çox vacib olduğunu hesab edirsiniz?** (Uyğun olan maksimum 3 cavab)




**S23. Aşağıdakı yerli göstəriciləri necə qiymətləndirirsiniz?** (Zəif / Qənaətbəxş / Güclü)



# ƏLAVƏ 2
# Aİ DƏSTƏYİ ÇƏRÇİVƏSİNDƏ BİZNES ÜÇÜN İMKANLAR

Avropa İttifaqının dəstəyi ilə Azərbaycanda özəl sektorun inkişafı üçün həyata keçirilən regional və yerli layihələrin siyahısını aşağıda tapa bilərsiniz.

| NO | LAYİHƏNİN ADI | MÜDDƏT | DƏSTƏYİN NÖVÜ | | | İCRA EDƏN TƏŞKİLATLAR | ƏLAVƏ MƏLUMAT |
|---|---|---|---|---|---|---|---|
| | | | MALİYYƏYƏ ÇIXIŞ | BİZNES İNKİŞAFI XİDMƏTLƏRİ | BİZNES ÜÇÜN ƏLVERİŞLİ MÜHİT | | |
| EU4BUSINESS TƏŞƏBBÜSÜ | | | | | | | |
| 1 | Narçılıq Dəyər Zəncirində Üstün Keyfiyyətin Əldə Edilməsi və Dəyişikliklərə Dəstək (STEP) | 2019 – 2023 | | ✓ | | Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası | |
| 2 | "Mətbəxdən Biznesə" Qida məhsulların təşviqi və Qadınların səlahiyyətləndirilməsi | 2019 – 2022 | | ✓ | | Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC) | |
| 3 | EU4Business: Şirkətlərin əlaqələndirilməsi | 2020 – 2022 | | ✓ | ✓ | EUROCHAMBRES | |
| 4 | Azərbaycan Fındıq və Nar Təşəbbüsü (AHPI) | 2017 – 2022 | | ✓ | | CNFA | |
| 5 | Kənd təsərrüfatı məsləhət xidmətlərinin gücləndirilməsi | 2019 – 2021 | | ✓ | | | |
| 6 | Azərbaycanın kənd bölgələrində fermerlərə tərəvəz və yumşaq meyvə sektorlarında ticari cəhətdən faydalı dəyər zəncirlərini inkişaf etdirməkdə kömək etmək | 2019 – 2021 | | ✓ | | | |
| 7 | Fermerlərə və kənd təsərrüfatı sahəsində çalışan sahibkarlara dəyər zəncirlərinin yaradılması və təkmilləşdirməsində, həmçinin aqrar turizmin inkişafında dəstək olmaq | 2019 – 2021 | | ✓ | | | |
| 8 | Azərbaycanın Şimal-Qərb bölgəsində davamlı və inkluziv yerli kənd təsərrüfatı məhsulları sisteminin inkişafı | 2019 – 2021 | | ✓ | | BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycanda Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi | |
| 9 | Kənd yerlərində sahibkarlığın inkişafına təkmilləşdirilmiş dəstək | 2019 – 2021 | | ✓ | | EKVİTA | |
| 10 | Ənənəvi qida məhsullarının təkmilləşdirilmiş təşviqi və marketinqi | 2019 – 2021 | | ✓ | | "İntegrated Regional Development of Azerbaijan" (IRDA) | |
| 11 | COVCHEG: Böyük Qafqaz Dağlıq ərazilərində icma əsaslı dəyər zəncirinin genişləndirilməsi | 2018 – 2021 | | ✓ | | Slow Food Azərbaycan Turizm Bürosunun tərəfdaşlığı ilə (ATB) | |
| 12 | İcma əsaslı aqriturizmin kənd yerlərinin inkişafı strategiyası kimi təşviqi | 2017 – 2021 | | ✓ | | "Yerli İdarəetməyə Yardım" İctimai Birliyi | |
| 13 | Gənclərin Sahibkarlıq Proqramı | 2018 – 2021 | | ✓ | ✓ | Azərbaycan Gənclərinin Nailiyyəti | |
| 14 | "Azərbaycan regionlarında dayanıqlı mikrosahibkarlığın inkişafının sürətləndirilməsi" (ADSMIRRA) | 2018 – 2021 | | ✓ | | Azərbaycan Mikromaliyyə Assosiasiyası | |
| 15 | Kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı üçün əlverişli mühitin yaradılması və rəqabət qabiliyyətlərinin artırılmasında Azərbaycan hökumətinə dəstək | 2020 – 2021 | | | ✓ | KOBİA Aİ-nin tərəfdaşlığı ilə | |
| 16 | İxrac Strategiyasının İnkişafında Azərbaycan Hökumətinə Dəstək | 2019 – 2021 | | | ✓ | AZPROMO və Aİ-nin əməkdaşlığı ilə | |
| 17 | Azərbaycanda mübahisələrin alternativ həlli və ixtisaslaşmış məhkəmələrin inkişafına əlavə dəstək | 2021 | | | ✓ | Ədliyyə Nazirliyinin Aİ ilə əməkdaşlığı ilə | |

| NO | LAYİHƏNİN ADI | MÜDDƏT | DƏSTƏYİN NÖVÜ | | | İCRA EDƏN TƏŞKİLATLAR | ƏLAVƏ MƏLUMAT |
|---|---|---|---|---|---|---|---|
| | | | MALİYYƏYƏ ÇIXIŞ | BİZNES İNKİŞAFI XİDMƏTLƏRİ | BİZNES ÜÇÜN ƏLVERİŞLİ MÜHİT | | |
| 18 | Azərbaycanın qeyri Abşeron – Daşkəsən, Goranboy və Samux rayonlarında kiçik, sosial cəhətdən müdafiə olunmayan kənd ailələrinin sosial-iqtisadi imkanlarının genişləndirilməsi və inkişafı (“SEEDS” layihəsi) | 2018 – 2020 | | ✓ | ✓ | “SOS Uşaq Kəndləri – Azərbaycan” Assosiasiyası | |
| 19 | Şəki-Zaqatala İqtisadi Zonasında Balakəndəki ABAD regional mərkəzi vasitəsilə kiçik ailə biznesinin inkişafına dəstək | 2017 – 2020 | | ✓ | | ABAD publik hüquqi şəxs | |
| 20 | Telişli ekomiqrant icmasında bazar rəqabətli gəlir mənbələrinin formalaşması üçün kənd təsərrüfatı təşəbbüsləri | 2017 – 2020 | | ✓ | | "Ruzgar" Ekoloji İctimai Birliyi | |
| 21 | “Avropa Birliyi Azərbaycanın Lənkəran bölgəsi üçün” İllik Fəaliyyat Proqrami 2017 həyata keçirilməsində Azərbaycan hökumətinə dəstək | 2019 – 2020 | | | ✓ | | |
| 22 | Aİ-Azərbaycan Biznes Forumunun keçirilməsinə dəstək | 2020 – 2022 | | ✓ | ✓ | COWI Belçika, ITAZERCOM, CCIAF, InvestBaku | |
| 23 | Azərbaycan Respublikasında kənd yerlərinin və regionların inkişafına dəstək (SRRD) proqramının həyata keçirilməsi üçün texniki yardım layihəsi | 2017 – 2020 | | | ✓ | Azərbaycan hökuməti; İqtisadiyyat Nazirliyi | |
| 24 | EU4Business-Aİ-nın Yerli Valyuta üzrə Tərəfdaşlıq Təşəbbüsü: Cənub-Şərqi Avropa üzrə Avropa Fondu | 2018 – 2039 | ✓ | | | | |
| 25 | Struktur İslahatlar Təsisatı: Dünya Bankının tərkib hissəsi | 2018 – 2023 | | | ✓ | | |
| 26 | İş Qadınları proqramı | 2015 – 2022 | ✓ | ✓ | | | |
| 27 | “Mayors for Economic Growth” Təşəbbüsü | 2017 – 2020 | | ✓ | ✓ | | |
| 28 | “Mayors for Economic Growth” Təşəbbüsünün tətbiqində Dünya Bankı Qrupunun dəstəyi | 2016 – 2020 | | ✓ | ✓ | | |
| 29 | Şərq Tərəfdaşlığı: Ticarətə Hazır – EU4Business təşəbbüsü | 2017 – 2020 | | ✓ | | Şərq Tərəfdaşlığı | |
| 30 | EU4Business: Siyasətdən Fəaliyyətə | 2017 – 2020 | | ✓ | | | |
| 31 | Azərbaycan və Gürcüstanda Vasitəçi Maliyyə Təşkilatlarının Dəstəklənməsi Üçün Potensialın Gücləndirilməsi | 2009 – 2019 | ✓ | | | | |
| **AYİB-İN HƏYATA KEÇİRDİYİ LAYİHƏLƏR** | | | | | | | |
| 32 | Azərbaycan Kənd Təsərrüfatı Maliyyə Aləti Layihəsi | 2015 – 2020 | ✓ | | ✓ | AYİB, Azərbaycan Kənd Təsərrüfatı Maliyyə Aləti (AZAFF) | |
| 33 | FINTECC İqlim Dəyişikliyi üzrə Maliyyə və Texnologiyanın Köçürülməsi Mərkəzi. | Ongoing, started in 2017 | ✓ | ✓ | | AYİB | |
| 34 | Azərbaycan: Maliyyə vasitəçilərinin potensialının gücləndirilməsi üzrə Texniki Əməkdaşlıq proqramı | 2019 – 2021 | | | ✓ | AYİB | |
| **EU4ENVIRONMENT TƏŞƏBBÜSÜ** | | | | | | | |
| 35 | EU4Environment | 2019 – 2022 | | ✓ | ✓ | OECD, UNECE, UNEP, UNIDO, Dünya Bankı | |
| **EU4CLIMATE TƏŞƏBBÜSÜ** | | | | | | | |
| 36 | EU4Climate | 2018 – 2022 | | | ✓ | UNDP | |
| **EU4DIGITAL TƏŞƏBBÜSÜ** | | | | | | | |
| 37 | Ermənistan, Azərbaycan, Gürcüstan və Almaniya arasında elektron kommersiyaya dair pilot layihə | 2021- 2022 | | ✓ | ✓ | EY | |
| 38 | Şərqi tərəfdaşlıq DİSC Müəssisə kapitalı fondunun və İKT sahəsində sahibkarlıq ekosisteminə dəstək üzrə bələdçinin layihəsi | | ✓ | ✓ | | EY | |





# ƏLAVƏ 3

# İQTİSADİ REGİONLAR VƏ ONLARIN STRATEJİ SEKTORLARI

**Azərbaycanın iqtisadi rayonlarının coğrafiyası**
**Aİ Texniki Yardım layihəsinin hədəf aldığı 4 iqtisadi rayon və 16 bölgə**




**Hər iqtisadi bölgəyə uyğun strateji sektorlar üçün Aİ texniki yardım layihəsi çərçivəsində 170 investisiya layihəsi təsdiq edilmişdir.**




MƏNBƏ: Azərbaycan Respublikasında kənd yerlərinin və regionların inkişafına dəstək (SRRD) proqramının həyata keçirilməsi üçün texniki yardım layihəsi

# METODOLOGİYA

## Sorğu

Hesabat üçün məlumatlar 2020-ci ilin sentyabr-oktyabr aylarında keçirilmiş anonim onlayn sorğu yolu ilə toplandı.

2020-ci il üzrə sorğunun strukturu əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə yeniləndi və 2020-ci ildə Azərbaycanda biznes mühitinə ciddi təsir göstərən qlobal pandemiya, neft qiymətlərində dalğalanma və Dağlıq Qarabaq və ətraf ərazilərdə aparılan hərbi münaqişə kimi yeni qlobal və yerli amillərin təsirlərinin əks olunması məqsədilə hazırlandı. Sorğuda 5 alt sualdan ibarət 23 sual yer aldı və 4 hissəyə bölündü: i) biznes demoqrafiyası; ii) biznes mühiti 2020 və COVID-19-un şirkətlərə təsiri; iii) şirkətlərin yeni mühitə uyğunlaşması; iv) Reforms-meter. Qısa nəzər

2020-ci il üçün hədəf qrupu əvvəlki illərlə müqayisədə eyni olaraq qaldı, bu da Azərbaycanda fəaliyyət göstərən təxminən 400 Avropa şirkətini əhatə etdi: Aİ üzv dövlətləri, EFTA üzv ölkələrinə məxsus şirkətlər və Böyük Britaniya şirkətləri. Avropa şirkətlərinin məlumat bazası Aİ üzv dövlətlərinin Azərbaycandakı səfirlikləri ilə əməkdaşlıq yolu, həmçinin açıq mənbələrdən toplandı. Nümunəyə biznes fəaliyyətlərinin əsas istiqaməti Aİ ilə əməkdaşlıq olan Azərbaycan şirkətləri də daxil edilmişdir. Son mərhələdə məlumatlar bazası şirkətlərlə əlaqə qurularaq təsdiqləndi və yeniləndi.

Onlayn sorğunun başlaması Avropa İttifaqı, Fransa və İtaliyanın səfirlərinin və AZPROMO-nun direktorunun iştirakı ilə sentyabrın 18-də keçirilən vebinarda rəsmi olaraq elan edildi. Sorğu linkləri tərəfdaş təşkilatların rəsmi kanalları və layihənin sosial media səhifələri vasitəsilə paylaşıldı. Avropa ölkələrinin Azərbaycandakı ikitərəfli Palataları, eləcə də ticarət-iqtisadi əməkdaşlıq ofisləri informasiya tərəfdaşlığına dəvət edildi.

Nəticədə 187 tamamlanmış fərdi müraciət forması alındı və keyfiyyət yoxlanışından sonra hesabatın hazırlanması üçün 123 cavab təsdiq edildi. Nümunədə 22 Avropa ölkəsindən və Azərbaycandan olan müəssisələr təmsil olundu. Sorğuda iştirak edən bütün Aİ şirkətlərinin təxminən 12-15%-i fransız, ingilis, italyan, alman və yerli şirkətlərdir. Respondentlər iqtisadiyyatın 19 sektorunda fəaliyyət göstərir və əsasən KOB sektorunu təmsil edir (85%). Sorğu açıq kanallar vasitəsi ilə paylaşıldığı üçün şirkətlərin hər birinin cavab vermək şansı bərabər olduğundan, eləcə də alınan nümunələr müxtəlif ölçü, sektora malik olan, fərqli ölkələri təmsil edən və fərqli dövrlər ərzində Azərbaycanda fəaliyyət göstərən şirkətləri təmsil etdiyindən hesabatın Azərbaycandakı Avropa bizneslərinin mövqeyini təmsil etdiyini qeyd etmək olar. 0.0736 yanılma ehtimalı ilə gözlənilən etibarlılıq intervalı 0.95-dir.

## Müsahibələr

İkinci mərhələdə daha detallı məlumatlar Avropa şirkətləri və təşkilatların nümayəndələri ilə ikitərəfli müsahibələr yolu ilə toplandı. Sorğuda ən çox təmsil olunan 8 sektordan şirkətlər ilə oktyabr və noyabr aylarında 25 müsahibə aparıldı, bunlar arasında konsaltinq, neft-qaz, nəqliyyat və logistika, turizm, kənd təsərrüfatı, otelçilik, İKT, kimya sənayesi və maliyyə sektorları yer alır. Müsahibələrdə iştirak edən təşkilatların digər qrupu ikitərəfli Palatalar və ticarət və iqtisadi əməkdaşlıq ofislərini əhatə etdi.

## Fokus qrupu

Hesabat layihəsi hazırlandıqdan sonra əsas nəticələr Avropa biznes icmasını təmsil edən və müəyyən sektorlarda dərin təcrübəyə sahib olan 8 mütəxəssisin iştirakı ilə formalaşan fokus qrupuna təsdiq üçün təqdim edildi. Fokus qrupunun rəyindən sonra Hesabatın son versiyası təsdiq edildi.

## Kabinet tədqiqatı

Bu Hesabatın hazırlanmasında istifadə olunan materiallara Azərbaycan qanunvericiliyi, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin bülletenləri, Azərbaycan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin və AİB, AYİB, ATF, OECD, Dünya Bankı, BVF, BMT, UNCTAD və s. beynəlxalq təşkilatların nəşrləri kimi rəsmi mənbələr daxildir.

# AKRONİMLƏR VƏ ABREVİATURALAR

| | |
|---|---|
| ABAD | Ailə Biznesinə Asan Dəstək proqramı |
| AİB | Asiya İnkişaf Bankı |
| Ələt AİZ | Ələt Azad Iqtisadi Zonası |
| ASAN | Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi |
| AZN | Azərbaycan manatı (valyuta) |
| AZPROMO | Azərbaycan Respublikasının Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu |
| BPS | Baza punktu |
| BSI | Bank Sistemi İndikatoru |
| CCIAF | Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası |
| COVID-19 | Koronavirus xəstəliyi 2019 |
| DOST | Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi |
| ŞT | Şərq tərəfdaşlığı |
| AYİB | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| AİB | Avropa İnvestisiya Bankı |
| AQS | Avropa Qonşuluq Siyasəti |
| EFTA | Avropa Azad Ticarət Birliyi |
| ATF | Avropa Təlim Fondu |
| Aİ | Avropa İttifaqı |
| Aİ Nümayəndəliyi | Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi |
| EUR | Avro |
| EY | Ernst&Young |
| E-Gömrük | Elektron gömrük sistemi |
| E-vergi | Elektron vergi sistemi |
| ÜDM | Ümumi daxili məhsul |
| FDI | Birbaşa Xarici İnvestisiya |
| FTA | Azad Ticarət Sazişi |
| FIMSA | Maliyyə Bazarlarına Nəzarət Palatası |
| SC | Səhmdar Cəmiyyəti |
| ABB | Azərbaycan Beynəlxalq Bankı |
| I.C.E. | İtaliya Ticarət Komissiyası |
| İKT | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| IDI | İnformasiya-Kommunikasiya Texnologiyalarının inkişaf indeksi |
| IPD | İnvestisiya Təşviqi Sənədi |
| İT | İnformasiya Texnologiyaları |
| BMİ | Beynəlxalq Maliyyə İnstitutları |
| INVESTBAKU | Bakı İnvestisiya Agentliyi |
| BVF | Beynəlxalq Valyuta Fondu |
| ITAZERCOM | İtaliya-Azərbaycan Ticarət Palatası |
| MMC | Məhdud Məsuliyyətli Cəmiyyət |
| NPL | İşləməyən Kreditlər |
| OECD | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| PAIH | Polşa İnvestisiya və Ticarət Agentliyi |
| PPD | Dövlət-özəl sektor dialoqu |
| RSDTİ | Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal |
| R&D | Tədqiqat və İnkişaf |
| KOB | Kiçik və Orta Bizneslər |
| SOE | Dövlətə Məxsus Müəssisə |
| ARDNF | Azərbaycan Respublikasının Dövlət Neft Fondu |
| KOBİA | Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| ƏDV | Əlavə dəyər vergisi |
| PTT | Peşə Təhsili Və Təlimi |
| DB | Dünya Bankı |
| ÜTT | Ümumdünya Ticarət Təşkilatı |
| UK | Böyük Britaniya |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| UNCTAD | Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf üzrə Konfransı |
| UNDP | Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı |
| UNECE | Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası |
| UNEP | Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı |
| USD | Amerika Birləşmiş Ştatları dolları |

# İSTİNADLAR


[1] AZPROMO Doing Business Azərbaycan.2018.
[2] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
[3] Dünya Bankı. Azərbaycanda ÜDM üzrə məlumat
[4] AYİB. Koronavirus Böhranına cavab. Azərbaycan üzrə məlumat 13.11.20
[5] Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri
[6] Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi
[7] Avropa Şərq Qonşuları. Rəsmi vebsayt
[8] OECD İqtisadi Baxış. Aralıq Hesabatı: Koronavirus (COVID-19): Qeyri-müəyyənliklə Yaşamaq, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, sentyabr 2020
[9] Fitch Reytinqlər. Azərbaycanın yenilənmiş büdcəsi neft və pandemiyanın təsirini vurğulayır
[10] OECD. Şərq Tərəfdaşlığı ölkələrində COVID-19 böhranına cavab. Oktyabr 2020
[11] Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Diplomatik Korpusun təqdimatı. Sentyabr 2020
[12] Dünya Bankı. Azərbaycanda işsizlik. 21.06.2020
[13] UNCTAD Dünya İnvestisiya Hesabatı 2020
[14] UNCTAD. İnvestisiya Trend Monitoru, Oktyabr 2020
[15] Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Xarici investisiyaların cəlb edilməsi üçün potensial sahələr. 18.07.2019
[16] UNCTAD İnvestisiya Siyasəti Mərkəzi. İkitərəfli İnvestisiya Müqavilələri
[17] Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək şirkətlərin siyahısı
[18] UNCTAD İnvestisiya Siyasəti Mərkəzi. Xarici investisiyaların qorunması haqqında qanun
[19] UNCTAD İnvestisiya Siyasəti Mərkəzi. İnvestisiya Fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu
[20] OECD. Azərbaycanın yerli tədarükçüləri xarici investorlarla əlaqələndirməsi, 2019
[21] Ələt Azad İqtisadi Zonası. Rəsmi vebsayt
[22] AZPROMO rəsmi vebsaytı
[23] Azərbaycan KOB İnkişaf Agentliyinin rəsmi vebsaytı
[24] Aİ-Azərbaycan Biznes Mühiti Hesabatları. AHK. 2016–2019
[25] Dünya Bankı. Doing Business-dəki məlumat pozuntularının icmalı, Dekabr 2016
[26] Dünya İqtisadi Forumu. Qlobal Rəqabətlilik Hesabatı, 2020
[27] "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı
[28] "Koronavirus (COVID-19) pandemiyasının mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 04.04.2020
[29] EU4Digital rəsmi vebsaytı
[30] OECD. KOB Siyasəti İndeksi. Şərq Tərəfdaşlığı ölkələri, 2020
[31] ASAN xidmət. Rəsmi veb sayt
[32] DOST mərkəzləri. Rəsmi vebsayt
[33] AZEXPORT platforması. Rəsmi vebsayt
[34] Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi. Rəsmi vebsayt
[35] Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti. Rəsmi vebsayt
[36] Azərbaycan Respublikası Prezidentinin Fərmanı "Məhkəmə Hüquq Sistemində İslahatların Gücləndirilməsi haqqında"
[37] Fitch Reytinqlər. Fitch Azərbaycanı 'BB +' səviyyəsində təsdiqləyir; «Mənfi»proqnoz. 17.07.2020
[38] Azərbaycan Respublikasının Mərkəzi Bankı. Faiz dəhlizinin parametrləri haqqında. Mətbuat açıqlaması. 18.09.2020
[39] Azərbaycan Respublikasının Mərkəzi Bankı. Mərkəzi Bankın 4 banka müvəqqəti inzibatçı təyin edilməsi barədə açıqlaması. 27.04.2020
[40] Azərbaycan Respublikasının Mərkəzi Bankı. Rəsmi vebsayt
[41] Azərbaycanın bəzi bankları kredit faizlərini aşağı saldı. "Vergilər" sosial-iqtisadi onlayn qəzeti. 07.01.2020
[42] Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu
[43] Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
[44] Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu. Rəsmi veb sayt. Sahibkarlığın İnkişafı Fondu sahibkarlara müraciət edir. Mövcud kredit portfellərindəki faiz dərəcələrinin subsidiyalaşdırılması davam edir. 28.08.2020
[45] Azərbaycan Respublikasının Mərkəzi Bankı. Mərkəzi Bank koronavirus pandemiyası zamanı əhaliyə və biznesə dəstək üçün əlavə tədbirlər haqqında qərar qəbul etdi. 25.04.2020
[46] AYİB. Ölkə qiymətləndirməsi: Azərbaycan. Keçid hesabatı 2020–21
[47] Dünya Telekommunikasiya. İKT indikatorları databazası. 24-cü nəşr. İyul 2020
[48] Surfshark. Rəqəmsal həyat keyfiyyəti indeksi 2020
[49] Avropa Komissiyası. Avropa Yaşıl Razılaşması
[50] EU4Environment rəsmi vebsaytı
[51] EU4Climate rəsmi vebsaytı
[52] İnkişaf Konsepsiyası. "Azərbaycan 2020: gələcəyə baxış"
[53] Dünya İqtisadi Forumu. Qlobal Rəqabətlilik Hesabatı, 2020
[54] Azərbaycanda Peşə Təhsili və Təlimi üzrə Strateji Yol Xəritəsi 2016–2025
[55] Azərbaycan Respublikası Peşə Təhsili üzrə Dövlət Agentliyi. Rəsmi vebsayt
[56] Azərbaycan Respublikasının Peşə Təhsili və Təlimi haqqında Qanunu
[57] 2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası
[58] Bələdiyyə sədrlərinin Razılaşması, EU4Energy. Rəsmi vebsayt


# NƏŞR


Aİ Biznes Mühiti Hesabatı Azərbaycan 2020 Avropa İttifaqı tərəfindən maliyyələşən "Aİ-Azərbaycan Biznes Forumu" 2020-2022 çərçivəsində hazırlanmışdır

## Tədqiqat:

**Dr. Bogdana A. Efe**, "Aİ-Azərbaycan Biznes Forumu", Komanda rəhbəri
**Zibər Hüseynova**, CCİAF, İdarəedici Direktor
**Manuela Traldi**, ITAZERCOM, Prezident
**Türkan Devrijova**, "Aİ-Azərbaycan Biznes Forumu", Bazar Araşdırması üzrə ekspert
**Məmmad Əskərov**, "Aİ-Azərbaycan Biznes Forumu", Bazar Araşdırması üzrə ekspert

## Məlumatların təhlili:

**Dr. Bogdana A. Efe**, "Aİ-Azərbaycan Biznes Forumu", Komanda rəhbəri
**Kristina Mammadova**, "Aİ-Azərbaycan Biznes Forumu", KOB-lar üzrə Ekspert

## Redaktə:

**Natalia Cardona**, COWI Belçika, Layihə meneceri
**Lorena Korosec**, COWI Belçika, Konsultant

## Dizayn:

**Laura Dilnikaite**, COWI Litva, Qrafik Dizayn Layihə Koordinatoru
**Jurga Rakleviciene**, COWI Litva, Qrafik Tərtibatı üzrə Dizayner

## Photo art:

**Raj Steven**, Fotoqraf
**TJ K.**, Unsplash

**Keyfiyyətə nəzarət** Ecorys tərəfindən həyata keçirilir



**MƏSULİYYƏTDƏN İMTİNA:**

Bu hesabatın məzmunu tamamilə Müqaviləçilərin məsuliyyətindədir və heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.